**RAMİZ DƏNİZ**

# QƏLBLƏRDƏ YAŞAYAN MİR CƏLAL

**Bakı - 2008**

**D48**

Redaktor: **Xalq yazıçısı Çingiz Abdullayev**

Məsləhətçi: **Xalq yazıçısı,**
**professor Nəriman Həsənzadə**

Ön söz: **Pedaqoqika elmləri namizədi,**
**filoloq Qənirə Əmircanova**

Korrektor: **Filoloq Elnarə İbrahimova**
Kompüter
dizaynı: **Lalə Qasımova**

*Mir Cəlal yaradıcı insan olduğundan təbiətin, insan varlığının sirlərini açmağa can atmışdır. Məhz bütün bu sirlərə yiyələnmək üçün Allah ona qeyri-adi ağlı və zəkanı əta etmişdir. O, sözün əsl mənasında əsl insan, dahi şəxsiyyət olmuşdur. Əsl insan isə bu dünyada olan mövcudatın ən şərəflisidir. Mir Cəlal filosoflara, kamil insanlara xas olan qabiliyyətə - özünü və dünyanı dərk etmək qabiliyyətinə - malik idi. O, böyük, müdrik, özü bir aləm olduğundan bir çox hikmət sirlərinə yiyələnmişdir.*

*Bu kitabda adları hallanan tanınmış şəxsiyyətlər milyardlarla insanın arasında zərrəcik kimi görünsələr də, onların hər biri təmsil etdikləri xalqın mədəniyyətini, ədəbiyyatını, incəsənətini, elmini, təhsilini inkişaf etdirməkdə bütün səy və bacarıqlarını səfərbər edərək, bununla da ölkənin tarixini ən yüksək müstəvidə yaşadırlar.*

*Azərbaycanın görkəmli ədibi, pedaqoqu, ictimai xadimi professor Mir Cəlal nəsr sahəsində barokko üslubundakı naxışları və göydəki ulduzları xatırladan ölməz əsərlər yaratmış, pedaqoji fəaliyyəti dövründə elə tələbələr yetişdirmişdi ki, onlar çağdaş dövrdə Elmlər Akademiyasında və elmin müxtəlif sahələrində əvəzsiz xidmət göstərirlər. XX əsr Azərbaycan ədəbiyyatının gözəl nümayəndələrindən biri olan Mir Cəlalın həyat və yaradıcılığından bəhs edən bu kitab ictimaiyyətin bütün nümayəndələri üçün maraqlı olacaq.*

$D\,\frac{4702060103}{083-2008}$ *Qrifli nəşr*

***ISBN 9952-407-09-6***

***© R. Dəniz - 2008***
***© "Yurd" NPB - 2008***

*Bu əsəri Azərbaycanın XX əsrdə*
*yaşayıb-yaratmış görkəmli elm,*
*ədəbiyyat və təhsil xadimi, yazıçı,*
*professor Mir Cəlalın*
*anadan olmasının 100 illik*
*yubileyi ilə əlaqədar, onun*
*əziz xatirəsinə ithaf edirəm.*

*Yazdığım bu əsərin nəşr edilməsində*
*mənə əvəzsiz kömək göstərən*
***Azərbaycan Respublikası Dövlət***
***Neft Şirkətinin** rəhbərliyinə*
*təşəkkür və minnətdarlığımı*
*bildirirəm.*



# ÖN SÖZ

***Omrünii elmə sərf edən adam heç vaxt ölmür.***
***Məhəmməd Peyğəmbər (s.ə.)***

Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatında xüsusi bir səhifədir. Əgər belə olmasaydı, V. Şekspir kimi bir şəxsiyyət dünyanı təəccübdə qoyan **“Hamlet”, “Kral Lir”** və başqa əsərlərini özündən sonra xalqına miras qoymaz, şərq ədəbiyyatında Nizami kimi bir korifey, düha sahibini hörmətlə anmaz, ondan bəhrələnməz, ona olan hörmətini yazdığı əsərlərində (xüsusən, **“Romeo və Cülyetta”**da) bildirməzdi. Dünya ədəbiyyatında həmişə, bütün dövrlərdə Şərqə böyük maraq olub və olacaq. Bu bəzən təsadüf kimi görünən, amma əslində zərurət olan fəlsəfədir, çünki Şərq ədəbiyyatı, o cümlədən Azərbaycan ədəbiyyatının hər bir nümayəndəsi heç kəslə müqayisə edilə bilmir. Onun bütün dövrlərdə oxucular üçün qatbaqat açılan səhifələrində bir-birinə bənzəməyən ideya, anlam, idrak fəlsəfəsi var və bu, bəşəriyyət yaşadıqca yaşayacaq. Bir ziyalı kimi bunu görüb-müşahidə etdikcə Nizamilərin, Füzulilərin ruhlarının bu dünyanı dolambadolam dolanması, öz varislərinin əməllərində, yaratdıqları əsərlərdə yaşaması və yaşatması fikrimin sübutudur. Bu baxımdan elm və ədəbi aləmdə öz yolu olan və bu yolla inamla irəliləyən gənc tədqiqatçı Ramiz Dənizin Azərbaycan ədəbiyyatı və mədəniyyətində bənzərsiz sənətkar, əməkdar elm xadimi, filologiya elmlər doktoru, professor Mir Cəlal Paşayevin həyat yə fəaliyyətinə həsr olunmuş **“Qəlblərdə yaşayan Mir Cəlal”** adlı elmi-publisistik əsəri aktuallığı ilə fərqlənir. Hər şeydən öncə bu aktuallıq nədədir? Niyə Ramiz Dəniz onun həyat və fəaliyyətini tədqiq edib, belə bir əsəri oxuculara bəxş etdi. Mən tanıyan qədərincə yazıçı-publisist Ramiz Dəniz xalqına, vətəninə o qədər bağlı insandır ki, bu kimi şəxsiyyətləri gələcək nəsillərə bir daha sevdirmək onun daxilindən doğan

tələbatdır. Hələ gənc olan Ramiz Dənizdə Tanrı tərəfindən bəxş olunmuş istedad onu daima yeni fəaliyyətə təhrik edir.

O, M.C.Paşayevin nəsil etibarı ilə İmam Əlinin şəcərəsinə bağlandığını qeyd edir, bir yazıçı kimi nəsrinin ilk nümunələrini təhlil edir, tədqiqatını bu istiqamətdə aparır. Yeri gəlmişkən, gənc tədqiqatçı Ramiz Dəniz (Qasımov) haqqında bir neçə kəlmə deməyə ehtiyac hiss edirəm, çünki xalqına, onun tarixinə çox bağlıdır Ramiz Dəniz. Mənə elə gəlir ki, onun özünə seçdiyi Dəniz təxəllüsü də bunu sübut edir. Niyə məhz Dəniz? Ona görə ki, həyata, insanlara, təbiətə sevgisi dənizlər, ümmanlar qədərdir. Üzümü ona tutub deyirəm:

- Qoy sizin insanları sevər ürəyinizdə məhəbbət heç vədə tükənməsin. Məhəbbət bitəndə insanların bir-birinə deməyə sözü olmur. O zaman həyat dəyərsizləşir. Başqaları üçün dəyərli olan həyatınızda, ömür səhifələrinizdə dəyərli insanların sayının sonsuzluq qədər sonsuz olmasım arzu edirəm... Və önlar haqqında yazan qələminiz heç vaxt kütəlməsin.

**“Qəlblərdə yaşayan Mir Cəlal”** adlı əsərdə bir obraz kimi Mir Cəlalın təhsil illərindən başlayaraq, ömrünün son günlərinədək xarakter dəyişikliyi oxucuya çatdırılır. Bütün əsər boyu onun heç vaxt dəyişməyən xüsusiyyəti isə insanlara olan sevgisi, Tanrıya olan inamıdır. Elə bu inam da onu 1937-ci illərin fəlakətindən qoruyub öz xalqına bəxş edə bildi. Ona görə ki, Azərbaycan xalqının M.Cəlal kimi alimə çox ehtiyacı vardı:

“Alimin sözünə qulaq asıb, yavaş-yavaş, özgələrə elm öyrətmək dindən vacibdir.”

Məhəmməd Peyğəmbərin (s.ə.) öz insanlara ünvanladığı bu fikirdə böyük həqiqət elə həqiqət dəyərində görünür, çünki həqiqəti deyən adam güclü və uca olur. (Həmişə uca olan insanların elə ucalıqda da olmasını Tanrıdan diləyirəm.)

Tədqiqat əsərində diqqəti cəlb edən məqamlardan biri də hər paraqrafı adlandırarkən dahi şəxsiyyətlərin dəyərli fikirlərindən sitat gətirməsi, həmin fikirlərlə öz dünyagörüşü arasında olan uyğunluğu oxucuya çatdırması, onu dönə-dönə düşün-

dürməsidir. Hələ vaxtilə ölməz Dekart yazırdı: "Düşünürəm, demək yaşayıram."

Mir Cəlalın yazıçı kimi əsərlərinin təsirini, fəlsəfi fikirlərlə zəngin olduğunu göstərən Ramiz Dəniz (Qasımov) ölməz filosofiarın adını çəkir, öz fikirlərini onların əsərlərinə istinadən sübut etməyə çalışdığını göstərir.

Ramiz Dəniz Mir Cəlal Paşayevi müəllim, yazıçı, tərcüməçi kimi oxuculara təqdim edir. Özü də o, elə bir dövrdə tərcüməçiliklə məşğul olub ki, həmin illərdə buna çox ehtiyac vardı. Bu tərcümələr bir də ona görə vacib idi ki, daxilində böyük bir dünya yaşadan vətəndaş M.C.Paşayev üstünlüyü yenə də öz xalqının ədəbiyyatına, mədəniyyətinə verir, oxucunu düşündürürdü. Rus ədəbiyyatı ilə Azərbaycan oxucusunu tanış edən M.C.Paşayevin hekayələri də rus dilinə tərcümə edilir. Bu işi isə XX əsr Azərbaycan mətbuat tarixində xüsusi xidmətləri olan Qurbanəli Şərifovun oğlu görkəmli alim, tərcüməçi Əziz Şərif yerinə yetirmişdi. Yaradıcılığında olan bəşəri ideyaların gündəmə gətirilməsi bugünün özündə belə onu hər kəsin müasirinə çevirir. Bu müasirliyi vaxtında duyan Ramiz Qasımov onun fəaliyyətini izlədikcə həyatını "Qarış-qarış gəzir", oxucu üçün görünməyən, bilinməyən tərəfləri təhlil edir, onu Azərbaycan vətəndaşına bir daha sevdirir. Çoxlarından fərqli olan yazıçı, publisist kimi M.C.Paşayev insanda olan ədavət hissini pisləyir, "əgər ədavət varsa, demək, yalan, kin, paxıllığın olması labüddür" - deyirdi.

Onun romanları həmişə ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Təsadüfı deyil ki, tədqiqatlarını davam etdirən Ramiz Dəniz onun haqqında Jak Rikaçevin fıkirlərini oxucuya çatdırır:

"Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcam dərhal oxucuya təsir edir; kitabı oxuyub örtdükdən sonra adama elə gəlir ki, özünün dünənki həyatının

həyəcan və sevinclərini sənə nağıl edən qızğın və həyəcanlı bir adamla bir neçə saat maraqlı söhbət etmisən."

M.C.Paşayev həm də ədəbiyyatşünasdır. Onun ədəbiyyatşünaslığı ilk öncə Füzuli kimi bir şəxsiyyəti tədqiq etməsilə sübuta yetir. Niyə məhz Füzuli? Bir filoloq kimi deyə bilərəm: Füzulini hər kəs duya bilməz və tədqiq etməyi bacarmaz. Füzulini duymaq üçün ən azından onun səviyyəsində, onun kimi sevməyi bacarmaq lazımdır, çünki onun sevgisi başabaş səmimiyyət və məhəbbətdən yoğrulmuş bəşəri ideyalar daşıyıcısıdır. "Sübhədək söz almazı ilə məna gövhərinin bağrını dəlməklə məşğul olan" Füzuli qəzəlləri onun tədqiqatında öz yüksək bədii ifadəsini tapır və oxucu nə vaxt Füzuli dünyasına düşdüyünü fərq edə bilmir.

Ramiz Dənizin araşdırma və tədqiqatlarından gəldiyi qənaət M.C.Paşayevi ədəbiyyat fatehi hesab etməsidir. Tanrı ona istedadın ən gözəlini, zərifini, söz üzərində zərgər kimi işləmək bacarığını bəxş etmişdir. Təsadüfi deyil ki, hələ vaxtilə ərəb yazıçısı Cübran yazırdı ki, şairlər, nasirlər taxtından salınmış hökmdardır.

Mən isə Cübran Xəlilə etiraz edib deyirəm: - Yox, böyük sənətkar Cübran Xəlil, Mir Cəlal Paşayev və onun kimi dahi şəxsiyyətləri fərmanla taxtda əyləşdirmirlər ki, onları əmrlə də taxtlarından salmaq mümkün olsun. Sənət aləmində korifey sənətkarların öz taxtı-tacı var, o cümlədən filologiya elmləri doktoru, professor, böyük yazıçı Mir Cəlal Paşayev də söz, sənət mülkünün hökmdarıdır. Elə bir hökmdar ki, gələcək nəsillər onun yazdıqlarından və yaratdıqlarından zaman-zaman bəhrələnərək, xeyirxah məqsədli və məsləkli insanlar olacaqlar, ona görə ki, heç kəs, hətta ən qəddar hakim olan zaman da onun fəth etdiyi taxt-tacından salmağı bacarmaz, buna gücü çatmaz.

**Qənirə Əmircanova**
**filoloq, "İlin ən yaxşı müəllimi"**
**müsabiqəsinin respublika qalibi**

# YAZIÇI, PROFESSOR
# MİR CƏLAL

*Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olmuşdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyil. Çünki bizim xalqımız birincisi, öz istedadına görə şair, yazıçı, söz ustası olubdur. İkincisi, bizim xalqımız çox əsirlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik.*

*Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar. Onlardan sonra gələn nəsillərdə bu ənənəni, xüsusiyyəti davam etdirmişlər. Ona görə də tariximizin hansı əsrinə, hansı səhifəsinə baxsan, orada şairlərin, yazıçıların, mədəniyyət xadimlərinin izlərini, əsərlərini görəcəksən. Bu, xalqımızda bu gün, dünən deyil, əsrlərdən əsrlərə keçib gələn bir ənənədir, şeirə, şairə, söz ustasına, zəkalı insana həmişə hörmət, böyük ehtiram olubdur.*

*Heydər Əliyev*

***Mənim xalqımın fitri istedadı Avropa xalqlarının fitri istedadından qat-qat artıqdır.***
***Mirzə Fətəli Axundov***

# Tarixin sınağı və ya təlatümlü dövrdə Mir Cəlal müəllimin ədəbi fəaliyyəti

Uca Allahın insanlara bəxş etdiyi xüsusiyyətlər içərisində düşünmək, fikirləşmək, nəticə çıxarmaq kimi keyfiyyətlər də mövcuddur ki, bunlar bir tərəfdən insanı başqa canlılardan fərqləndirir, digər tərəfdən isə insanın özü ilə bağlı məsələlərdə seçim etməsi üçün geniş imkanlar yaradır. Bu xüsusiyyətlər insanın atacağı hər bir addımı əvvəlcə düşünüb ölçüb-biçməsi və sonra isə qərar verməsinə xidmət edir.

Tarixən alimlərə və yaradıcı insanlara böyük hörmət və ehtiram olub. Xüsusən də Şərq aləmi, İslam dünyası, müsəlman icması kamil insanı hər zaman qiymətləndirərək, onun şərəfini, hörmət-izzətini uca tutubdur.

***“Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edir. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər” (“Əl-Bəqərə” surəsi, 269-cu ayə).***

Bəşəriyyət tarixində elə məqamlar olur ki, hərəkətin, fəaliyyətin, fikir və zəkanın yeni formaları meydana çıxır; bu

yeni sıçrayışa, partlayışa, sensasiyaya səbəb olur. Bu anlayış daha çox elmə aiddir. Elm kamil insanların axtarışı nəticəsində meydana çıxır, ilk alimlər, ilk filosoflar peyda olur.

Erkən orta əsrlərdən başlayaraq müasir dövrümüzə qədər bizim dünyada iki əks sivilizasiya tipi yaranmışdır: dünyanı təkmilləşdirməyə yönəlmiş, əməli dəyişdirici fəaliyyətə əsaslanan Qərb sivilizasiyası və insanı kamilləşdirən, mənəviyyatın əsas olmasından çıxış edən Şərq sivilizasiyası. Doğrudur, bu gün Şərq-Qərb bölgüsü şərti xarakter daşıyır, çünki bir çox şərq ölkələri müvəffəqiyyətlə qərb təkmilləşmə üsuluna yiyələnib, qərb dünyasının bir çox nümayəndələri isə insanın şərq kamilləşməsi yolu ilə gedir.

Hər bir ölkədə nəşr olunan ensiklopediyaların səhifələrini vərəqləyəndə, demək olar ki, dünya elminin inkişafında müstəsna rol oynamış Antik dövrdən başlayaraq, erkən orta əsrin görkəmli şəxsiyyətləri, hamımızın dillər əzbəri olmuş Platonun, Aristotelin, Herodotun, Ptolomeyin, Eratosfenin, Arximedin, Evklidin, Strabonun, Əbu Reyhan Biruninin, Əbu Əli ibn Sinanın, Əl-Xorezminin, Məhəmməd Nəsirəddin Tusinin, Kopernikin, Nyutonun, Lomonosovun və başqa alimlərin adları ilə mütəmadi olaraq üzləşirik. Bütün bu alimlərin dövrü fəaliyyəti və elmi irsi beynəlxalq elm mütəxəssisləri tərəfindən öyrənilərək dünya ictimaiyyətinin nəzərinə çatdırılmışdır.

Açığını bildirməliyəm ki, Azərbaycanda yaşayıb fəaliyyət göstərmiş və indi də fəaliyyətdə olan bütün dahilərin həyatı mənim diqqət mərkəzimdədir. Başqa dövlətlərə nisbətən erkən orta əsrlərdə tibb, astronomiya, riyaziyyat, ədəbiyyat sahələrinin surətli inkişafı bizim ölkədə geniş vüsət

tapmışdır. Təbrizdə, Marağada, Şamaxıda, Gəncədə və s. qədim bölgələrdə tanınmış alimlərin iştirakı ilə elmi mərkəzlər yaradılaraq, fəaliyyət göstərməyə başlamışdı. Nümunə üçün deməliyəm ki, XI və XII əsrlər - Azərbaycan intibahının çiçəklənmə dövrüdür. Bu dövrdə yaşayıb yaratmış dahi şəxsiyyətlərin bolluğu hamımızı valeh edir. Qətran Təbrizi, Bəhmənyar əl-Azərbaycani, Xətib Təbrizi, Ömər Kafiəddin, Əfzələddin Xaqani, Nizami Gəncəvi, Əbu-Bəkr Gəncəvi, Məhsəti Gəncəvi və başqaları... Onların bir çoxu nəinki Azərbaycan məkanında və yaxud regionda, hətta dünya miqyasında tanınan dahilərdir. Hər bir millət arzulayar ki, belə bir şərafətli və ləyaqətli dühalar məhz onların ölkəsini təmsil etsin.

Azərbaycan ümumdünya ədəbiyyatına bir sıra sənət ustaları vermişdir. Bu sənətkarlardan hər birinin özünəməxsus ədəbi məktəbi, orijinal yaradıcılıq yolu olmuşdur. Eyni sözləri, ədəbiyyat xəzinəsinə gözəl incilər bəxş etmiş böyük Azərbaycan nasiri və alimi Mir Cəlal müəllim haqqında da deməliyik. Yazı üslubları ilə bir-birilərindən fərqlənmiş Səməd Vurğun, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mehdi Hüseyn kimi tanınmış söz ustadları ilə bir dövrdə yaşamasına baxmayaraq, Mir Cəlal müəllim də öz yazı üslubu ilə müasirlər həmkarlarından bir qədər fərqlənərək Azərbaycan ədəbiyyatına yeni ruh, yeni rövnəq gətirdi. Onun bir sənətkar kimi həyat həqiqətlərini təsvir etməkdə misilsiz məharəti vardır. Bu məharət onu nəinki, Azərbaycan və ya başqa Cənubi Qafqaz respublakaları arasında, hətta bütün SSRİ məkanında ədəbiyyatın ən görkəmli klassikləri ilə bir sıraya çıxartdı. Ümumiyyətlə, Mir Cəlal müəllimdən bəhs etmək həmin dövrdə milli ədəbiyyatımızda bədii əsərlərin ən

nadir incilərini yaratmış bir sənətkardan bəhs etmək deməkdir. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri, əlbəttə ki, öz dəsti-xətti ilə seçilmiş Mir Cəlal müəllimin adı ilə bağlıdır.

XX əsrdə Azərbaycanın tanınmış nasiri, müəllimi, satiriki, alimi, professor Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanda ölkəmizin qədim paytaxtlarından biri olan Təbriz şəhərindən bir qədər aralı Əndəlib kəndində anadan olmuş, sonradan isə Gəncə şəhərinə köçüb elə orta məktəbi də orada bitirmişdi. Elə uşaqlıq illərində o valideynləri ilə birlikdə dahi Nizaminin yurdu sayılan Gəncə şəhərinə köçmüşdü. Pedaqoji fəaliyyətinin ilk çağlarında o, Gəncəbasarın Gədəbəy bölgəsində məktəb müəllimi vəzifəsində çalışmış və sonrakı fəaliyyət dövründə Mir Cəlal müəllim Gəncədə məktəb direktoru işləmişdir. O, ədəbiyyatın sirlərinə dərindən yiyələnmək üçün Rusiya Federasiyasının Qazan şəhərində yerləşən Pedaqoji institutun ədəbiyyat fakültəsinə daxil olmuş, oranı bitirəndən sonra isə vaxt itirmədən Bakıya qayıtmışdı.

Güney Azərbaycanından quzey Azərbaycanına gələn Mir Cəlal və ümumilikdə Paşayevlər ailəsinin elmi və ictimai fəaliyyəti ilə bir çox qeydləri nəzərdən keçirəndə onların bu nəslə mənsub olan keçmiş adət-ənənələrin qorunduğunu dərk etmək çətin deyil. İslam dünyasının ən şərafətli, ləyaqətli, səxavətli, cəsarətli şəxslərdən biri olan Birinci İmam Həzrət Əlinin (ə.) xəttini davam etdirmiş Dördüncü İmam Zeynalabidinin kökündən başlayan bu nəsil, ilk öncə islami dəyərlərə arxalanaraq, xeyirxahlıq, səxavətlilik prinsipi ilə yaşayıb fəaliyyət göstərirdi. Paxıl nəzəriyyə, pis əməllər, xəbis işlər hərtərəfli olaraq bu nəsil tərəfindən tənqid edilir,

xain xislətli ünsürlər ifşa olunur, hər bir imkansız, mənəvi cəhətdən sarsılanlara isə dayaq olmağa çalışıblar.

Əli ibn Hüseyn (İmam Zeynalabidin əleyhissəlam) hicri-qəməri tarixi ilə 36-cı (bəzi mənbələrə görə 33-cü) ilin Cəmadiül - əvvəl ayında göz açıb. Anası Şahrabanu son Sasani hökmdarı Yezdəgərdin qızıdır. Həddən ziyadə ibadət etməsi və səcdədə olması səbəbi ilə həmin ləqəbləri qazanmışdır. Allahın hər nemətindən sonra şükür səcdəsi edərdi. Rəvayət olunur ki, İmam Zeynalabidinin (ə.) alnı, dizləri çox səcdə etməkdən qabar bağlayır və ildə iki dəfə həmin qabarları kəsirdilər.

Tarixi qaynaqlarda göstərilir ki, onun sağ qalmasının özü təsadüf olmuşdur. İmam Hüseyn (ə.) Kərbəla yaxınlığında Yezidin qatilləri tərəfindən şəhid edildikdən sonra (Miladi tarixi ilə 681-ci il) onun müqəddəs başını və əsir götürülmüş pak ailəsini Şama (Dəməşqə) gətirmişdilər. Sağ qalanlardan yalnız İmam Hüseynin (ə.) oğlu Əli (Dördüncü İmam Zeynalabidin əleyhissəlam) yetkinlik yaşındaydı. O, xəstə olduğundan Yezidin əsgərləri onu öldürməmişdilər. Sağ əqidəli İslam fədailərinə qarşı kütləvi qırğın törədən Yezid böyük üsyanların baş verməsindən istifadə edərək, İmam Zeynalabidini girov saxlamağı qərara almışdı.

Məhz həmin kökdən sonradan seyid Mirzəlinin nəslinin nümayəndələri Mir Paşa, Mir Ələşrəf, Mir Cəlal Dördüncü İmam Zeynalabidinin (ə.) xəttini davam etdirirlər. Ümumiyyətlə, bu nəsil tarixdə özünəməxsus layiqli və şərəfli yer tutmuş görkəmli siyasi, dövlət, ictimai, elm, mədəniyyət və incəsənət xadimlərini yetişdirmişdir.

Mir Cəlal müəllim harada doğulduğunu unutmamış və daim uşaqlıq illərinin gözəl xatirələrini avtobioqrafik tarixçəsinə həkk olunan Cənubi Azərbaycan olaylarını yada salaraq öz təəssüratlarını dost-tanışları ilə bölüşdürərdi. O, əslən, qəlbən, ruhən öz torpağına, xalqına bağlı müdrik şəxsiyyət idi. Vahid Azərbaycanı iki yerə bölən Araz çayı, intizar ürəyindən başlayan qan damarı sayılırdı və ədib üçün o taylı, bu taylı Azərbaycan arasındakı fərqi yurdsevər bir insan kimi qətiyyən sezməmişdi. Həqiqətən də bu insan ürəyində el-oba məhəbbətini gəzdirməyi bacarmışdı.

İnsanlarda xoş ünsiyyət yaratmaq, zamanın ruhunu duymaq, öz alovlu və təsiredici nitqi ilə on minlərlə insanın məhəbbətini qazanmaq, əxlaqi, etik, mədəni keyfiyyətlərlə ətrafda cərəyan edən ictimai proseslərin nəbzini tutmaq Mir Cəlal müəllimi geniş miqyasda kamil insan səviyyəsinə gətirib çıxarmışdır. Kamil insanın daxili aləminə girib onun ürəyindəki duyğuları və təfəkküründəki fikirləri qələmə alıb yazmaq, çox mürəkkəb proses sayılır. Lakin buna baxmayaraq, mən həmin prosesə qatılmağı özüm üçün vətəndaşlıq borcu hesab etdim. Çünki Mir Cəlal müəllim Azərbaycanın mədəniyyət, ədəbiyyat tarixində elə dərin iz buraxıbdır ki, onun dövrü fəaliyyətini kölgədə qoyub yan ötmək, ən azı Azərbaycan ədəbiyyatına olan biganəlikdən xəbər verə bilər.

Ədəbiyyat sahəsi üzrə tanış olduğum dahi korifeylərdən biri sayılan Mir Cəlal dühasının əsrarəngiz dünyasına qədəm qoyub onun barəsində nəsə yazı yazmaq, sanki möhkəm qayanı yerindən tərpətmək kimi bir şey sayılır. Adicə preambulanı işləmək üçün ilk növbədə əlimin altında

Gəmiqaya dağı boyda faktlara əsaslanan materiallar lazımdır. Əlbəttə ki, bu çox ciddi məsələdir.

Ədibin ilk yaradıcılıq illəri sonsuz axtarışlarla səciyyəvidir. Ağrılı-acılı uşaqlıq illəri, doğma ocağından kənar düşməsi Mir Cəlal müəllimin dünyagörüşünə son dərəcə ciddi təsir bağışlamışdı. Həyatın ağrılı-acılını çağlarına sinə gərməyi bacaran, bir çoxları kimi ruh düşkünlüyünə qapılmayan, hansı maneə ilə üzləşirsə-üzləşsin, həyata nikbinliklə baxan nasir tezliklə öz aləmini yaradır. Mir Cəlal getdikcə həyatla daha sıx əlaqəyə girir, onun sirlərini öyrənməyə, ziddiyyətlərinə açar tapmağa can atır. Onda olan bədii istedad Azərbaycan ədəbiyyatı üçün yeni sayılan yeni hekayələrin və oçerklərin yaranmasına gətirib çıxarır və Mir Cəlal müəllim yeni nasir kimi oxucular arasında təşəkkül tapır və əlbəttə ki, onların maraq obyektinə çevrilərək, onun yeni yazılarını izləməyə başladılar.

Klassik bədii-nəsrin ən yaxşı, mütərəqqi ənənələri zəminində yaranan XX əsr Azərbaycan ədəbiyyatı zaman etibarilə qısa bir dövrü, kəskin inqilabi-siyasi mübarizə və ideya çarpışmaları ilə səciyyələnən 1905-1920-ci illəri əhatə edir. Sonrakı dövrdə Azərbaycan Demokratik Respublikası Rusiya imperiyası tərəfindən işğal ediləndən sonra yeni ideologiyanın təzyiqi ilə yeni ədəbiyyatın, yeni janr üslubunun yaranması baş verir və heç bir ədib həmin çərçivədən kənara çıxa bilmir. Bu dövrün yaratdığı bədii irs mövzu, ideya məzmunu, sosial-əxlaqi problemlər baxımından son dərəcə geniş, əhatəli olmaqla yanaşı, ədəbi forma, janr, bədii söz sənətkarlığı, bədii-poetik dil və üslub cəhətdən də tamamilə yeni və orijinal xüsusiyyətlərə malikdir. Bu əlvanlıq, bu orijinallıq təkcə yeni bədii-nəsrin, inqilabi-satirik

ədəbiyyatın əsas, aparıcı xüsusiyyəti olmaqla qalmayıb, eyni zamanda klassik ədəbiyyatımızdakı romantik xəttə incə, zərif tellərlə bağlanan XX əsr romantik nəsri üçün də səciyyəvidir. Allahın əta etdiyi istedadla ədəbi fəaliyyətə başlayan Mir Cəlal müəllim həmin ab-havanın, həmin mühitin qanadında yaranan bir ləlәkdir ki, öz qələmi ilə qısa zaman kəsiyində Azərbaycan ədəbiyyat qatarının lokomotivinə çevrilir.

Həmin dövrdə bir çox yaradıcı insanlar bədbin əhval-ruhiyyənin pəncəsində əsir olurdular, lakin Mir Cəlal müəllimdə mübarizə əzmkarlığı güclü olduğundan o, çətinliklə də olsa həmin məngənənin pəncəsindən qurtula bilir. Xoşbəxtlikdən onun ətrafında çox etibarlı qələm dostları olur və onlar əl-ələ verib ədəbiyyat sahəsində öz fəaliyyətlərini davam etdirirdilər. Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Ruhulla Axundovun, Salman Mümtazın və başqalarının repressiyaya uğrayıb fiziki cəhətcə məhv edilməsi Mir Cəlal müəllimin iradəsini qıra bilmədi, əksinə repressiya maşınının bütün mexanizminin işə düşdüyü bir vaxt onun bədii yaradıcılığındakı bədbin notlar get-gedə öz yerini mübarizə motivlərinə təslim edir.

Repressiyanın geniş diapazonda hücuma keçən bir zaman əqidə sahibləri təqib olunur, savadlı adamlar, xüsusən də elm sahibləri böhtan nəticəsində həbsxanalara salınırdı. Ziyalı şəxslərin həyatı məhvə düçar olsa da, Mir Cəlal müəllim öz ədəbi fəaliyyətini dayandırmaq fikrində olmamışdı. O, həyatın, ölkənin bitməz-tükənməz, fitnə-fəsadlı, taleyin min bir acı sirli, müəmmalı oyunlarını götür-qoy edərdi. Ədibin ürəyi iztirabdan boğulmaq dərəcəsinə gələrdi, beyin sanki gürz zərbələri altında ağır acı fikirlərdən əzilərdi. Tanınmış ziyalıların fikirlərində müstəqil olması, gördüklərini

bəyan etməsi, haqq sözlərini qaldırması bolşevik ideoloqların qəzəbinə tuş gəlmiş və onlar sosialist cəmiyyətə arzuolunmaz bir insanlar kimi repressiyaya məruz qalırlar, nəticədə isə həmin şəxslərin azad dünyadan məhrum olması Mir Cəlalın çiçəklənən ömrünə qara örtük salardı.

Sovetlər ölkəsində hər bir insan, hər bir şey məxfi orqanlar tərəfindən ciddi nəzarət altında saxlanıldığı bir zaman, milli ədəbiyyat və ədəbiyyatşünaslar ideoloji senzorların süzgəcindən keçirdilər. Repressiyanın tüğyan etdiyi bir dövrdə ideoloji baxımdan buraxılan cüzi bir səhv yaradıcı insanın həyatı bahasına gəlirdi. Sanballı əsərlər məzmun cəhətcə böyük maraq kəsb etməyən əsərlər içərisində itib batır və ya çətinliklə oxucuların masasının üstünə yol tapırdı. O dövrdə az-az adamlara məxsus olan yaradıcılıq sahələrinin birdən-birə təəssüf ki, çoxalması, qeyri-istedadların ecazkar olduğu qədər də məsuliyyətli sənət aləminə, estetik meyara öz təsirini göstərdi, maraqsız, həvəsi öldürən, duyğusuz yazılmış əsərlər, həqiqi mənada mənalı, cəlbedici təfəkkür məhsullarını geridə qoymağa çalışırdı. Belə bir vəziyyətdə əsl söz sahibi olan Mir Cəlal müəllim başqa yaradıcı istedadlarla birlikdə həmin ünsürləri kölgədə qoyurdu. Məhz əsl yaradıcı insanların sayəsində istedadla qələmə alınmış əlyazmaların nəşrinə maraq, onlarla tanışlığa, sanballı əsərlərə istək, həvəs duyulmağa başladı.

Mir Cəlal müəllim təbiətən təmkinli, eyni zamanda həqiqəti üzə söyləyən olmuşdur, o həm sakit, eyni zamanda iradəsini nümayiş etdirmişdi. Sovetlər ölkəsinin Stalinin ölümünə qədər ziyalılara divan tutdurulan zaman ədib öz məğrurluğunu itirməmişdir. Faciə iradəsiz adamın belini bükür, müdriklərin isə gözünü açır. Həmin dövrdə Mir Cəlal

müəllim öz nöqsanlarını da gözü qabağına gətirərdi. Nöqsanlar isə hər adama bel bağlamaqdan, etibar etməkdən, nadanların beyninə həqiqəti yeritməkdən ibarət idi. Lakin əqidəsinə yenə də həmişəki kimi sadiq qalmış Mir Cəlal müəllim buraxdığı həmin səhvlərin əsiri olmamışdır. Yaradıcı insanın gücü onun elmində və onun məğrurluğundadır.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının geniş diapazonda təşəkkül tapması ədiblərin həqiqi mənada oxucuların zövqünə uyğun olaraq oxunacaq əsərlər yazmasına sövq edirdi. Sovet dövründə isə hər bir adam işlə təmin olunduğundan, ədəbiyyatla, xüsusən də nəsrlə məşğul olmaq yalnız asudə vaxtlarına təsadüf edirdi. Bütün bu çətinliklərə baxmayaraq, həm özünü, kollektivi yaşatmalı, bundan ötrü isə, şübhəsiz ki, qazancla işləməli, həm ümumi zövqlərin korlanmasına yox, yüksəlməsinə kömək edən, estetik tərbiyə səciyyəsi daşıyan əsərlər nəşr edilməli idi.

Mir Cəlal müəllimin erkən yazdığı hekayə və oçerklər əvvəlcə qəzet səhifələrində, sonra isə 1932-ci ildə toplu şəkilində bir kitabda dərc edilərək oxucuların ixtiyarına verilmişdir. Azərbaycan ədəbiyyatında öz mövqeyini möhkəmlədən gənc yazıçı, yavaş-yavaş geniş oxucu arasında tanınmağa başlayır.

Onu ədəbi-bədii, ictimai-fəlsəfi yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında və ictimai-fəlsəfi fikrində əsaslı dönüş yaradan mütəfəkkir yazıçılardan biri hesab etsək, bu fikirdə yanılmarıq. O, Azərbaycanda dramaturgiya da daxil olmaqla, yeni realist bədii nəsrin, realist ədəbi tənqidin, satiranın, materialist estetikanın görkəmli nümayəndələrindən biri, ictimai və fəlsəfi fikir tarixində maarifçilikdən sovet rejimində yaranan özünəməxsus demokratiyayadək olduqca

mürəkkəb ideoloji yüksəliş yolu keçmiş böyük yaradıcı alimdir.

Bəlağətə ehtiyac olmadan qeyd etmək lazımdır ki, ədibin yaradıcılığı çoxşaxəli və geniş sahəlidir. Elə yeniyetmə vaxtlarında Gəncədə kök salan Mir Cəlal müəllimə oranın mühiti bədii yaradıcılığı və fikir inkişafı qarşısında sərhədsiz bir məkan açır. İnsanın idrakını inkişaf etdirən, təfəkkürünü formalaşdıran isə ətraf aləm, təmasda olduğu mühitdir. Gəncədəki ədəbi yüksəliş, maarifin inkişafı, adət-ənənələrin xüsusiyyəti, milli özünüdərk, ünsiyyət və davranış qaydaları başqa regionlardan xeyli dərəcədə fərqlənirdi. Necə deyərlər, mühit insanı əbədiyyət göylərində qürub edən günəşə də çevirə bilər, mühit insanın insanlığını əlindən alıb ən qəddar yırtıcı da edə bilər.

Mir Cəlal müəllim öz hekayələrini çap maşınında yığdırmaq üçün mütəmadi olaraq **"Kommunist"** qəzeti redaksiyasına gedər və orada gələcək həyat yoldaşı gülərüzlü, xoşsifətli, mülayim davranışlı, ədəb-ərkanla oturub-duran Püstəxanımla tanış olur və çox keçməmiş, yazıcı 1930-cu ildə Püstəxanımla ailə həyatı qurur. Bu barədə akademik Arif Paşayevin valideynləri barəsində yazdığı xatirəsini dinləmək yerinə düşərdi:

- Atam Mir Cəlal müəllim və anam Püstəxanım 1930-cu ildə evləniblər. Onların evlənməkləri də qəribə olub. Mənim anam **"Kommunist"** qəzetində makinaçı idi. Anamla onlar ilk dəfə orada görüşüblər. Sonra dostunu göndərib Püstə xanımın yanına və nəhayət razılığını alıb, 30-cu ildə evləniblər. Onlar ZAQS-a gedərkən yolda rəhmətlik Mikayıl Müşfiqə rast gəliblər. O, da ZAQS-da onların şahidi olub.

Əlbəttə, bunların hamısı tarixdir. Püstəxanım üzügülər, insanları sevər, heç kimin xətrinə dəyməzdi.

Bizim evə kim gəlirsə-gəlsin, qapını açarkən onun üzündə təbəssümdən başqa heç bir şey olmurdu. Dərhal süfrə açardı. Süfrədə nə lazımsa hər şey var idi. Qonağı çox layiqincə qəbul edərdi. O, xüsusiyyət anama mənim nənəmdən keçmişdi. Püstəxanımın anasını nəzərdə tuturam. Evə kim gəlsə idi, o yedirtməmiş yola salmazdı. Deyirdik ki, ay kişinin qızı, bu yeyib-içib, tox gəlib. O da cavabında deyirdi ki, - yox yeməlidir. Yeməmiş yola salmırdı. Bu da onun qonaqpərvərliyi üçün bir nümunədir. Doğrudan da Püstə xanım Azərbaycan qadınlarına xas olan bütün gözəl xüsusiyyətləri özündə təcəssüm etdirirdi. Valideynlərim 1933-cü ildən 1978-ci ilə qədər bir yerdə həyat sürüblər.

45 il bir yerdə ömür sürən valideynlər bir-birilə rəftarında çox nəzakətli idilər. Mən indi hamısını yada salıb, özümdə nəzərdən keçirirəm. O vaxt, cavan olanda, çox şeyə fikir vermirsən. Amma yadımda qalıb. Mir Cəlal müəllim həyat yoldaşını o qədər çox istəyirdi ki, elə bil o evdə olmayanda narahat idi. Maşallah, Püstəxanım çox mehriban və ünsiyyətli qadın idi. Rəfiqələri çox idi - qonaq gedərdi, qonaq qəbul edərdi. Yas mərasimlərinə çox gedərdi.

Yumoru xoşlayan Mir Cəlal müəllim evə girən kimi birinci sual bu olurdu: “Püstəxanım evdədir, ya yox?” Bunun üçün əsas bu idi. Elə ki, deyərdilər - “Püstəxanım yasa gedib”, deyərdi: “Hə, ölünü diriltməyincə gəlməyəcək”. Yəni ki, gec gələcək .

Mir Cəlal müəllim yazdığı əsərlərin parçalarını Səməd Vurğunun, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Süleyman Rüstəmin, Hüseyn Cavidin iştirak etdikləri

ədəbiyyat dərnəklərində oxuyur və səbrlə onların fikirlərini dinləyərdi. İlk öncə onda olan mədəniyyət, qabiliyyət, ünsiyyət və davranış məşhur Azərbaycan ədiblərində heyranlıq hissi yaratmışdı.

XX əsrin 30-cu illərində Mir Cəlal müəllim yazdığı **“Dirilən adam”**, **“Bir gəncin manifesti”** əsərlərinə görə oxucularının sayı xeyli dərəcədə genişlənir. Sonradan yazdığı **“Müasirlər”**, **“Açıq kitab”**, **“Yeni şəhər”**, **“Sağlam yollarda”** adlı povest və romanlarında istedadlı yazıçı xalqının adət-ənənələrini, vərdişlərini, ailə mədəniyyətini əks etdirərək, ədiblər arasında öz dəsti xətti ilə seçilməyə başlamışdı. Dünya ədəbiyyatı korifeyləri sayılan Nizami Gəncəvinin, Məhəmməd Füzulinin əsərlərinin gözəl bilicisi olan Mir Cəlal onların şeirlərindən bir çox parçaları şifahi söyləməkdən böyük həzz alırdı. Mirzə Fətəli Axundzadənin, Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin, Səməd Vurğunun, Mehdi Hüseynin əsərləri haqqında Mir Cəlal müəllimin yazdığı nəzəri fikirlər, nəticələr həmişə maraqlı və vacib olubdur. Milli mədəniyyətin, tarixin adət və ənənələrin, tarixi kökünün bilicisi kimi o, bunları öz əsərlərində əks etdirərək, əhəmiyyətinin vacibliyini göstərmişdir.

***Dahi insanlar yüksəklərdə uçurlar və qartallar kimi əlyetməz ucalıqda yuva qurub tənha yaşayırlar.***

***Artur Şopenhauer***

## Ədibin özünüdərk məsələsi və həyatdakı mövqeyi

İxtiyar insanın öz əlindədir, çünki insanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı fəzilətlərinin şərafəti fikir, əql, şüur və iradə vasitəsi ilə təmin və idarə edilir.

Ətrafda olan insanların bütün sosial təbəqələrə mənsub olan insanlarla vəhdət yaratmaq kimi yüksək əxlaqi ideal Mir Cəlalın həyati rəmzi sayılırdı. Heç kəs təklikdə kamala çatmaz və bunun üçün bir-birinə kömək edən bütün insanları vahid bir bədən timsalında birləşdirən bir qrupun yaranması zəruriyyəti meydana çıxırdı. Allah-taala Mir Cəlal müəllimə elə bir qüdrət və istedad bəxş etmişdir ki, o, öz təbiəti etibarilə daim inkişafa meyl etmiş və bu inkişaf yalnız kamil insanların birləşməsi sayəsində daha yüksəklərə qalxmışdır.

Mir Cəlal müəllim özünün fiziki və kamillik vasitəsilə özündə həqiqəti intuisiyanın köməyi ilə bilavasitə dərk etmək qabiliyyətinə malik idi.

Görkəmli Azərbaycan ədibi hər hansı bir məsələylə bağlı fikirlərini söyləyəndə, ədəbiyyat sahəsində elmi məntiqi nəticəyə gələndə tələsməmiş, diqqətlə, səbrlə, geniş, elmi-bədii tədqiqatlara, mənbələrə əsaslanaraq, onlara bir-bir insanların gözü qarşısında müraciət etməklə, nəzəri təhlilini verməklə, müqayisələr aparmaqla, elə bir inandırıcı, həqiqi məntiqi fikirləri ümumiləşdirməklə fikrini yekunlaşdırırdı ki, onun elminə, yaradıcılığına, zəkasına, idrakına, zəngin elmi-nəzəri təcrübələrinə heyrət etməmək, heyran olmamaq olmur. Öz ifadələrində diqqətli olan Mir Cəlal müəllim hər hansı bir fikrin tam təhlilini verməmiş, nəticə çıxarmağa tələsməmişdir. O, sözün dəyərini bilən sənətkar kimi qarşısına qoyduğu ən ali məqsədlərə xidmət etmişdir. Ədibin yazıları o qədər mənalı, təsirlidir ki, kitaba qapanan oxucunun diqqəti tarıma

çəkilir, bütün fikirləri özündə cəmləşdirir, hərtərəfli olaraq özünə cəlb edir.

Ruh və şüur Allah tərəfindən insanın bədəninə yerləşdirilmiş əbədi və əzəli başlanğıcdır. O, ölən deyil. Şüur qeyri-maddi başlanğıc olan ruhun fəaliyyət təzahürüdür və əslindəki maddi aləmdəki şeylər və proseslər ondan asılıdır, törəmədir. Mir Cəlal müəllimin bildirdiyinə görə gerçəklikdə olmayan şey və hadisələrin obrazlarının təxəyyüldə yaradılması da ruhun və onun fəaliyyət təzahürü olan şüurun fəallığını təsdiqləyən cəhətdir. Hər bir adamın düşüncələri, duyğuları şüura aiddir.

Mir Cəlal müəllim yaradıcı bir insan kimi bütün ömrü boyu insanları anlamaqla, dünyanı dərk etməklə məşğul olmuşdur. O, idraksız yaşaya bilməmişdir.

Gələcək - insan üçün bir müəmmadır, ona görə də insan yalnız keçmişdə qazandığı biliklərlə məhdudlaşmalı olur. Keçmişdən ibrət götürməyən gələcəyə gedən yolu tapa bilməz. Mir Cəlal müəllim müəyyən sahələrdə fəaliyyət göstərməklə, bir yerdə dayanmağı xoşlamamış, əldə etdiyi nailiyyətlərlə kifayətlənməmiş yalnız tərəqqiyə əl atmışdır. Ədib zehni əməyə üstünlük verməklə yeni ideyalar yaratmış və həmin ideyaların həyata keçməsi üçün fiziki əməklə məşğul olan insanlara öz tapşırıqlarını verərdi.

Qərb mədəniyyətinin bir çox incəliklərini mənimsəyən və həmin mədəniyyətdə olan müəyyən sirlərə yiyələnən Mir Cəlal müəllim coğrafi bölgüsünə görə Şərq dünyasının sakini sayılırdı. Qəbul olunan ümumi prinsiplərə əsasən Şərq dünyasında göz açıb fəaliyyət göstərən ziyalı insanların təfəkkürünə görə insan hər şeydən əvvəl özündən baş çıxarmalı, özü ilə dünyanın dərin qarşılıqlı əlaqəsini

aydınlaşdırmalı, özünün mənəvi aləminin xarici aləmdən yüksək və mürəkkəb olduğunu dərk etməlidir. Şərq üçün yalnız insan həyatının daha da abadlaşması naminə dünyanı dəyişdirmək haqdakı fikrin özü belə qəbul edilməzdir. Mir Cəlal müəllimin dünyagörüşünə görə bu abadlığın özündə elə bir şey var ki, insanın təbiətinə ziddir, onun mahiyyətini dəyişdirə, bərpa olunmaz nəticələrə gətirib çıxara bilər. Bundan əlavə təbiətin dəyişdirilməsində nə qədər uzağa getməsini heç kim aydınlaşdıra bilməz. Müəyyən mənada bu yol qanunları bəşəriyyət tərəfindən hələ dərk edilməmiş bütün planetin tamamilə məhv olunmasına gətirib çıxarar. Ədibin fikrincə, əgər insan dünya ilə bu cür sıx bağlıdırsa və onun surətidirsə, idrak prosesini ilk növbədə insanın özünə yönəltməyə çalışmaq daha yaxşıdır. Şəxsiyyətin mənəvi və fiziki kamilliyi insanın mahiyyətində heç bir şeyi aydınlaşdırmayan maddi-texniki tərəqqidə deyil, mənəvi aləmin dərin təhlilində, insanın mənəviyyatının özündədir.

Bütün sahələrdə yaradıcı işlə məşğul olmaq olar. Amma Mir Cəlal müəllim əsasən mədəniyyət sahəsinə üstünlük verdiyindən Azərbaycan ədəbiyyatına bir ədib kimi daxil olmuş və təfəkkürünə arxalanaraq yeni əsərlər ərsəyə gətirmişdir. Onun fikrincə mədəniyyət sahəsində yenilik yaratmaq, bədii əsər yazmaq, şəkil çəkmək, rəngkarlıqda, baletdə, teatrda yeni istiqamətləri inkişaf etdirmək olar; yeni qanun kəşf etmək, dünyanı açıqlayan yeni nəzəriyyələr irəli sürmək, elmi metodların köməyi ilə tarixi keçmişimizdən nəyisə aşkarlamaq, gələcəkdən xəbər vermək mümkündür. Qısası, istənilən sahədə (maddi istehsal və mənəvi) yenilik yaratmaq olar. Mir Cəlal müəllim yaradıcı bir insan kimi adi işlərə də yeni gözlə baxmış, onları yaxşılaşdırmağa,

təkmilləşdirməyə çalışmışdır. O, hər bir işi yaradıcı kimi həyata keçirmiş, buna görə də işin xarakteri və keyfiyyəti onun özündən asılı olmuşdur.

Öz zəmanəsində hələ geriliyi xoşlamayan ədib nikbin əhval-ruhiyyə ilə gələcəyə doğru addımlamış və təfəkkür sahiblərini də öz arxası ilə aparmağa çalışmışdı. İnsanların birgə maddi istehsal praktikası özünün çoxəsrlik tarixində bəşəriyyəti yaşatmaq üçün zəruri olan xeyli iş növləri yaradıb. İslahata meylli olan Mir Cəlal müəllim təşəbbüskarlıq, yaradıcılıq üçün meydan açmış, elmdə yeni yollar açılmasını istəmişdi. O, bunu onunla izah edirdi ki, hərə öz qabiliyyətinə, xasiyyətinə, maraq dairəsinə uyğun peşə seçməlidir. Lakin bu həmişə belə olmurdu.

Mir Cəlal müəllim Allah-taala tərəfindən ona bəxş edilən həyatda düzgün istiqamət götürdüyündən, həmin istiqamət ona yaradıcılıq sevinci bəxş etmiş, o bu sahədə görkəmli pedaqoji mütəxəssis olmuş, yenilik kəşf etmiş, elmin, ədəbiyyatın, təhsilin yeni sahələrində inamlı addımlar atmışdır. Dünya praktikasında sübut olunub ki, iş adamın ürəyincə olmayanda, qabiliyyətinə uyğun gəlməyəndə hədərə çevrilir, onun boynunda ağır yük olur, hər an çalışır ki, ondan xilas olsun. Xilas ola bilməyəndə isə həyat mənasızlaşır, üzüntülər gətirir. Buna görə də həyat təcrübəsi olmayan cavanların peşə seçimi çox mühüm məsələ olduğundan Mir Cəlal müəllim dünya görmüş bir ziyalı kimi perspektivli cavanlara düzgün yol göstərməyə çalışmışdı. Bunun müqabilində həmin cavanlara düzgün seçilmiş peşə də dərhal sevinc gətirərdi və məhz düzgün seçimə görə də onlar ədəbiyyatşünas alimə öz minnətdarlıqlarını bildirərdilər. Sonrakı illərdə həmin praktikanı akademik Arif Paşayev Milli

Aviasiya Akademiyasında həyata keçirir və bu üsul çoxsaylı peşəkar kadrların üzə çıxmasına səbəb olur.

Öz sahəsinin mütəxəssisi olan Mir Cəlal müəllim ixtiyarında olan qəzet və rabitə xidmətlərinin vasitəsilə dünyada baş verən bütün yeniliklərdən xəbərdar olardı, daim ixtisas ədəbiyyatı ilə maraqlanmış, məşğul olduğu sahənin problemlərindən asanlıqla baş çıxara bilmişdir. Onun idrakı özünə düzgün seçim etməkdə yardım olmuş və cəmiyyət arasında ona şöhrət gətirmişdi.

Mir Cəlal müəllim öz yaradıcılığı ilə belə hesab edirdi ki, dünya real surətdə mövcuddur və ciddi qanunlara tabedir, bu qanunları isə öyrənmək və sonra insanın faydası üçün tətbiq etmək olar. Buna görə də ədib üçün "bilik-qüdrətdir". Məlumdur ki, insanın hiss orqanları vasitəsilə dünyanı dərketmə imkanlarını artıran xüsusi cihazların köməyi ilə alim-tədqiqatçı ilkin məlumatları toplayır, sonra onları öz təfəkkürü vasitəsilə nizamlayır və təsnif edir.

Təsnifat prosesində ədib bəzi təkrar olunan qanunauyğunluqları, oxşarlıqları, səciyyəvi xüsusiyyətləri qeyd etmiş və bu ona insan psixologiyasına aid qanunları kəşf etməyə imkan vermişdi. Ədib Mir Cəlal müəllimdən fərqli olaraq, alim Mir Cəlal özünün hər bir zənninin, hipotezasının düzgünlüyünü yoxlamalıdır. Elm sahibi kimi onun üçün də intuisiya, təxəyyül, fantaziya vacib olmuşdur.

Beləliklə, Mir Cəlal müəllim öz yaradıcılığında, hər şeydən əvvəl, təfəkkürdən, dəqiq məntiqi qanunlar əsasında fəaliyyət göstərən zəkadan çıxış etmişdir.

Məlumdur ki, kamil insan, yazıçı və alim kimi dünyanı yalnız izah etmir, onu həm də dəyişdirir, yenidən yaradır, təbiət aləmini, bəşər dünyasını - cəmiyyəti, insanların şüurunu,

təfəkkürünü kökündən dəyişdirir. Həm yazıçı, həm də alim olan Mir Cəlal müəllim bu iki üsuldan istifadə edib, ətrafdakı insanların müsbət dərəcədə dəyişməsinə böyük təsir göstərmişdi. Ondan öyrənir, ondan məsləhət alır, onunla hesablaşırdılar.

Elə xüsusi insan tipi vardır ki, o öz fəaliyyətində dünyanın kökündən dəyişdirilməsinə istiqamətlənmişdir. Belə adamları inqilabçı adlandırırlar. İnqilab elə bir hadisədir ki, onun nəticəsində adamların fikirləri, təsəvvürləri qəfil, qəti və kökündən dəyişikliyə uğrayır. Bu mənada inqilabçı yalnız cəmiyyəti dəyişdirənə deyil, həm də poeziyada, bədii yaradıcılıqda çevriliş edən alim və sənət adamına da demək olar. Müəyyən mənada Mir Cəlal müəllimi yaradıcı inqilabçı kimi qiymətləndirsək, fikrimizdə yanılmarıq. O, həqiqətən də bədii elmdə, bədii yaradıcılıqda çevriliş etməyə can atmış alim və sənətkar olmuşdu. Mir Cəlal müəllimin əsas ideyalarından bir - humanizm prinsiplərinin insan təfəkkürünə daxil olması maraqlandırdığı üçün adətən, onun böyük fəaliyyəti bu məqsədə çatmağa yönəlmişdir. O, özünün bütün, maraq, arzu, hiss və hərəkətlərini həmin ideyaya tabe etməyə qadir olan qüvvətli insan olmuşdur.

Ədib - hisslər, alim - zəka, inqilabçı - iradədir və bütün bu keyfiyyətlər Mir Cəlal müəllimə xas idi. Lakin adi adamlardan fərqli olaraq onda son dərəcə güclü olan həmin keyfiyyətlər yazıçının şəxsiyyətində əsas aparıcı qüvvə kimi mənliyinin mahiyyətini təşkil etmişdi. Bütün bu keyfiyyətlərin qüvvə kimi Mir Cəlal müəllimdə ifadə olunmasına, təcəssümünə və gerçəkləşməsinə Allah-taala yardımçı olubdur. Ədib, alim və pedaqoq kimi keyfiyyətlərin Mir Cəlal müəllimdə səmərəli tərzdə uzlaşdırılması ona

inkişafın birtərəfliyini, məhdudluğunu aradan qaldırmağa imkan vermişdi.

Mir Cəlal müəllim özü həm ədib, həm də tədqiqatçı olduğundan, onun özünün tədqiqata böyük ehtiyacı var. Görəsən, minlərlə tələbəyə dərs deyən, minlərlə oxucunu öz ətrafında birləşdirən həmin görkəmli şəxsiyyət bu dünyada nə axtarırdı? Onun haqqında, onun gördüyü işlər barəsində uzun-uzadı danışıb, çoxsaylı məqalələr, əsərlər yazmaq olar. Çünki ədibin yaradıcılıq həyatı hələ də kifayət qədər araşdırılaraq üzə çıxarılmayıbdır. Bu yönümdə hələ çox işlər görüləcək. Biz nə qədər keçmiş tariximiz ərzində Mir Cəlal müəllim kimi ədəbi şəxsiyyətlərimizin sönməz mövqeyini saf-çürük etsək, bir o qədər uğur qazanmış olarıq. Böyük insanlıq da böyük elmi şəxsiyyətin, ədəbi şəxsiyyətin mövqeyi ilə birgə doğulur. Böyük insanlıq cəhətləri də məhz belə insanlarda olur.

Uzaq keçmişdən bizə nəsillərin həyat təcrübəsində sınaqdan çıxmış bir davranış qaydası miras qalmışdır: “başqalarından necə rəftar görmək istəyirsənsə, özün də adamlarla elə rəftar et”.

Sosial mühitin, cəmiyyətin özü insan, şəxsiyyət yetişdirmək istəyirsə, onların özü insana, şəxsiyyətə layiq olmalıdır. Məhz insana layiq olan sosial mühit adamlara öz müsbət şəxsi keyfiyyətlərini könüllü surətdə ifadə etmək imkanı verən cəmiyyət deməkdir. Mir Cəlal müəllim azərbaycanlıları sivil normalarına üstünlük verən, əxlaq çərçivəsində hərəkət edən, yüksək mədəniyyəti ilə tanınan bir xalq kimi görmək istəmiş və məhz Azərbaycanın vətəndaşı olduğuna görə qürurla yaşamışdır.

Belə hesab edilir ki, insanın əsas vəzifələrindən biri yaşadığı aləmi öyrənməkdən, dərk etməkdən ibarətdir. Bu həqiqətən də belədir. Lakin bu da doğrudur ki, ətraf aləmi dərk etmək üçün Mir Cəlal müəllim həmin aləm haqqında bilikləri necə əldə etdiyini, ondakı müxtəlif proses, hadisələrə aid informasiyanı necə topladığını və əxlaq, gözəllik, hüquq baxımından necə qiymətləndirdiyini başa düşmək üçün kamilliyə can atmışdır.

***Dedilər ki, Cənnət bağçalarından keçərkən əyləşin. Soruşdular ki, Cənnət bağçaları haralardadır? Dedi ki, bilik məclislərində.***
***Məhəmməd Peyğəmbər (s.ə.)***

## Böyük bir məkanda Mir Cəlal müəllimin elmi-pedaqoji fəaliyyəti

Həmin dövrdə tələbə-müəllim münasibəti indiki dövrə nisbətən tam fərqli əsasda, sözün mütləq mənasında humanizmə, düzlük, doğruluq prinsipi əsasında qurulmuşdur. Mir Cəlal müəllimin bir pedaqoq kimi həyat amalı tələbələrə övlad münasibəti bəsləməklə dərin əsaslı bilik verməkdən ibarət idi. O, bir professor kimi auditoriyaya alicənab şəxsiyyət qismində daxil olmuş, öz zəkası ilə tələbələrin qəlbinə işıq saçırdı. Mir Cəlal müəllim dərslərini tələbələrə böyük məharətlə, həvəslə, peşəkarcasına, aludəliklə tədris etmişdir. Mənəvi yetkinliyi, daxildən gələn böyüklüyü, halallığı, saleh əməlləri, alicənab davranışı onu qısa bir müddət ərzində müdrikləşdirmiş və ali təhsil ocağında fəaliyyət göstərən bütün insanların gözündə ağsaqqallıq zirvəsinə qaldırmışdır.

Yazıçının Bakı Dövlət Universitetindəki elmi-pedaqoji fəaliyyəti ilə bağlı akademik Arif Paşayevin gözəl xatirəsi var:

- Mir Cəlal müəllim Bakı Dövlət Universitetini özünə müqəddəs elm ocağı sayırdı. Ömrünün böyük hissəsini, 40 ilə

yaxın müddət, universitetdə işləyib və universitet onun üçün doğrudan da bir yüksəliş, bir elm ocağı olub. Həmişə tələbələrlə təmasda olan Mir Cəlal müəllim, onlardan bəhrələnib, onların qarşısında çıxış edəndə, öz mühazirələrini oxuyanda onlardan da nə isə götürüb.

Atam mənə deyərdi: “Universitet, akademiya çox gözəl elm ocağıdır. Amma universitetdə sənin məhsulun hər il göz qabağında olur: tələbələr böyüyür, buraxılış olur. Beş il bundan qabaq gələn cavan tələbə böyüyür, püxtələşir, savad alır, onu sevinclə qarşılayır”. Mən deyə bilərəm, universitetdə Mir Cəlal müəllim, öz davranışı, biliyi, istedadı ilə böyük hörmət qazanmışdı, həm də universitetin birinci professorlarından idi.

Mir Cəlal müəllim filologiya kafedrasının müdiri idi. Sovet ədəbiyyatı kafedrasının müdiri olub və bu gün mən fərəhlə deyə bilərəm ki, həmin kafedradan çox böyük professorlar çıxıb. O kafedradan bir neçə adamın adını saya bilərəm ki, indi bizim görkəmli alimlərimizdəndirlər. O kafedrada Mir Cəlal müəllim aspirantlarla, tələbələrlə həmişə təmasda olub və Nəriman Həsənzadə onlardan biri olub.

O vaxt Nəriman Həsənzadə kasıb bir oğlan idi. Aspiranturada yer almaq, ya bir ştat açmaq çox çətin məsələ idi. Mir Cəlal müəllim Nəriman Həsənzadə üçün xüsusi ştat açdırdı.

Niyə bunu ancaq Mir Cəlal müəllimə verə biliblər? Çünki Mir Cəlal müəllim o vaxtkı rektorlar Cəfər Xəndan, Şəfayət Mehdiyev, Mehdi Əliyevlə işləyib. Həmin bu insanlar ona doğrudan da hörmətlə yanaşıblar.

Onun böyük insan, şəxsiyyət olduğuna görə maraqlı bir şey danışım.

Mir Cəlal müəllimin hörməti, qüdrəti, nüfuzu o qədər yüksək olub ki, o heç vaxt qəbul imtahanlarına qalmaq istəməzdi. Bir dəfə nə isə, ondan xahiş ediblər, qəbul imtahanlarına qalsın və yaxından iştirak etsin. Mir Cəlal müəllim ədəbiyyatdan imtahana gəlib. Bir qız - abituriyent başlayıb cavab verməyə. Qızın cavabı Mir Cəlal müəllimin xoşuna o qədər gəlib ki, o qıza deyib "Qızım, sən universitetə qəbul olundun. Get".

Bəli, Mir Cəlal müəllimin Azərbaycan qızlarına ayrı, xüsusi hörməti var idi. Həmişə bir qayğı ilə yanaşardı. Həmin qız da arxayın gedib. O birisi iki imtahana gəlməyib. Daha Mir Cəlal müəllim deyib ki, "universitetə qəbul olmusan".

O, belə hesab edib ki, bu qız ədəbiyyatı belə yaxşı bilirsə, o birisilərdən də keçəcək. Qız da arxayın olub, qalan iki imtahana gəlməyib. Dərslər başlayır, qızın da adı siyahıda yox. Haray düşüb, necə olub ki, qızın adı siyahıda yoxdur. Çağırıblar qızı ki, niyə o birisi imtahanlara gəlməmisən? Qız deyir ki, Mir Cəlal müəllim mənə ədəbiyyat imtahanında dedi ki, sən universitetə qəbul olunmusan. Mir Cəlal müəllimin hörmətinə, təzədən o iki imtahanı təşkil edirlər və qız universitetə qəbul olunur.

Mir Cəlal müəllimlə Səməd Vurğunun gəncliyi Gəncədə bir yerdə keçib. Onlar orada çox yaxın dost olublar. Bakıya gələndən sonra onlar hərdənbir görüşürdülər. Bu haqda Bəxtiyar Vahabzadə kitabda, öz xatirələrində, çox gözəl yazıb. Mir Cəlal müəllim Səməd Vurğundan soruşub ki, "niyə biz belə gec-gec görüşürük?" Cavabında Səməd Vurğun deyib ki, "sən slişkom poryadoçnu adamsan". O, bununla nə demək istəyirmiş? Mir Cəlal müəllim yığıncaqlara gedən adam deyildi, içki içməzdi. Ümumiyyətlə, hay-küyə qoşulan adam

deyildi. Belə məclislərə, yığıncaqlara lazım olan hallarda gedirdi. Səməd Vurğun bu mənada deyirdi. Mir Cəlal müəllim ona cavabında dedi ki, Səməd Vurğun yazılarında səmimi olduğu kimi danışıqda da səmimidir. O nə düşünür, onu da deyir.

O vaxt Renessans dövrü idi, ədəbiyyatda, incəsənətdə, mədəniyyətdə. Mən deyərdim ki, hər şey yüksəliş yolunda idi. Tez-tez yığıncaqlar olurdu. Bir gün Mir Cəlalgildə, bir gün Cəfər Xəndangildə, bir gün Həmid Araslıgildə, bir gün Sabit Rəhmangildə. Bu həmişə davam edərdi. Biz cavanlar da orada bir-birimizlə tanış olurduq. Mənim yadıma gəlir Azərbaycan Dövlət Dram Teatrına premyeraya getmək, ritual halına çevrilmişdi. Lojalarda oturmaq, baxmaq və s. Yəni tez-tez, həftədə bir dəfə belə görüşlər keçirilərdi. Söhbət ədəbiyyat, incəsənət, mədəniyyətdən gedirdi.

Mir Cəlal müəllimin ən yaxın dostlarından biri akademik Həsən Əliyev idi. Onu görəndə, onunla görüşəndə onların arasında qəribə hörmət və ehtiram hissi olurdu. Onlar bir-birini görəndə sevinirdilər. Bir-biri ilə danışmaqdan ləzzət alardılar. Həsən Əliyev çox əsilli-nəcabətli insan olub.

Akademik Arif Paşayevin dediyi kimi professor Mir Cəlal müəllim həqiqətən də teatra böyük maraq göstərmiş və yaradıcılığının ilk vaxtlarında incəsənətin bu sahəsini nəzarət altında saxlamışdı. O, səhnə əsərlərinin ictimai-tərbiyəvi roluna böyük əhəmiyyət vermiş, ona nöqsanların ifşası və islahı üçün bir vasitə kimi baxardı. Şübhə yox ki, həmin səhnə əsərlərindən əhalinin bütün təbəqələri bəhrələnirdi.

İnsanlarla səmimi olmağa üstünlük vermiş Mir Cəlal müəllim kiminlə olursa-olsun söhbət edərkən, həmin adama elə ilk baxışdan çox gözəl təsir bağışlayardı. Fransız yazıçısı

və tənqidçisi Marsel Sesironun - *"dahi insanlarda xüsusi cazibədarlıq olduğu üçün insanlar elə ilk baxışdan onları sevməyə başlayırlar"* - ifadəsi, sanki bütünlüklə Mir Cəlal müəllimin adına ünvanlanmışdır. Çünki onda cəzbetmə qüvvəsi geniş diapazonda cərəyan edirdi.

Mir Cəlal müəllim çoxşaxəli insan olduğundan incəsənətlə də dərindən maraqlanmış onun incəliklərini də özündə saf-çürük etmək üçün teatr sənətinə ayrıca meyl göstərərdi. Məhz mütəmadi olaraq o, ailəsi ilə birlikdə bir çox tamaşaların premyeralarına getmiş və tamaşalar nəticəsində yaranan təəssüratlarını yaxınları ilə bölüşdürməyi xoşlayardı. Teatrda nümayiş etdirilən pyeslərin insanların əxlaqında və xarakterində yaratdığı müsbət təsiri görən ədib həmin ocağa insan həyatının aynası kimi baxardı.

Universitet həyatında nəinki tələbələr, hətta pedaqoqların bir çoxu onun sözü ilə oturub dururdular, mədəniyyətini və davranış qaydalarını özlərinin normaları, şəxsi sərvətləri kimi qəbul etmiş, yüksək qiymətləndirdiyi keyfiyyətləri özlərində tərbiyə etməyə çalışmışlar.

İnsanlar mahiyyətcə iki qrupa bölünürlər - əqli və fiziki keyfiyyətlərinə görə. Mir Cəlal müəllim çox yaxşı bilirdi ki, əqli keyfiyyətlərə malik olan bir şəxs ancaq fiziki keyfiyyətləri yüksək qiymətləndirilən bir qrupa düşəndə, onun əqli keyfiyyətləri kölgədə qalır, layiqincə qiymətləndirilmir, hətta daxilində olan istedad it-bat olur. Sadəcə olaraq onun ağlını, əqli keyfiyyətlərini görmürlər, hətta bəzən onun ağıllı bir sözünə rişxəndlə yanaşılmış və ələ salıb gülürlər. Əslində bunun taleyüklü məsələ olmasını, insan üçün həyati əhəmiyyətə malik olduğunu dərk edən Mir Cəlal müəllim hər kəsənə ağlına və bacarığına görə düzgün

istiqamət götürməyə kömək etmişdir. Şəxsiyyət fəal olduğundan ağıllı, prinsipial mövqe tutmalı, özünün yerini, vəzifələrini sosial-hüquqi ölçülərlə qiymətləndirməlidir. Mir Cəlal müəllimin göstərdiyi istiqamət bundan ibarət idi. O, çoxlu hadisə və xüsusiyyətlər içərisindən, ilk baxışda dərhal, ani surətdə özünə lazım olanı seçə bilib asanlıqla düzgün nəticə çıxara bilirdi.

İstər orta məktəbdə, istərsə də ali təhsil ocağında oxusun, Mir Cəlal müəllim sinif və auditoriya yoldaşlarına nisbətən həddindən artıq çox oxuyub öyrənərdi. Müəllimlərinin təhsil üslubu müxtəlif idi. Əlaçı olmaq üçün hər şey Mir Cəlal müəllimin istedadından, qavrama bacarığından, dərketmə surətindən, inadkarlığından, zəkasından, idrak sürətindən, zehin aydınlığından, hafizəsindən, ağıl gözəlliyindən, təmkinliyindən, dözümündən, vüqarından asılı idi. Onun müəllimlərinə olan münasibəti eyni olmamışdı, çünki o, müəllimlərinin dünyagörüşlərini də eyni cürə qəbul etmirdi. Hər şeyə marağı olan, xüsusən də ədəbiyyatla dərindən maraqlanan Mir Cəlal müəllim təkcə verilən dərslikləri oxumamış, əlavələrə əl atmış, hər deyilənlə kifayətlənməmiş, yeni mənbələr axtarmış, günlərini kitabxanalarda keçirərmiş. Onun fantaziyası o qədər güclü olmuşdu ki, kitab müəlliflərinin cürət edib demədikləri fikirlərini də oxumağı bacarırmış. İstirahət bilməyən Mir Cəlal müəllim elm axtarmaqla öz axtarışlarının əsiri olurdu.

İnstitut dövründə onun ətrafında olan ağıllı həmfikirlərinin də sayı az olmamışdır. Lakin etiraf etmək lazımdır ki, ona həsəd aparanlar, hətta paxıllıq edənlər də vardı. Həmin paxıl adamların acı nəzərləri, bəzən açıq, bəzən də gizli nifrətləri Mir Cəlal müəllimi çaşdırmamış, bunları

soyuqqanlıqla, təmkinlə qarşılamışdır. O, həmin xəbis insanlara əhəmiyyət versəydi, onda öz fəaliyyətində boşluq yaradardı. İstedadlı tələbəyə isə oxumaq, bilik əldə etmək lazım idi.

Mir Cəlal müəllimin öz müəllimləri ilə ədəbiyyat sahəsində mübahisələri çox olurdu, bəzən elə olurdu ki, o deyilənlərlə razılaşmayırdı, çünki müzakirə olunan məsələ ilə bağlı onda böyük ziddiyyətlər yaranırdı. Müəllimləri onun biliyinə, xüsusən də fenomenal yaddaşına heyran olardılar. Mir Cəlal müəllim tədris vaxtı heç kimin gözünə görünməyən həyəcanlar keçirərdi. O, bugünkü günüylə yaşamamış, sabahı aydın görməyə çalışarmış.

Mir Cəlal müəllim iş fəaliyyətini pedaqoq kimi respublikanın rayonlarında başlamış sonradan isə ömrünün sonuna qədər Azərbaycan Dövlət Universitetində kafedra müdiri işləmişdir. Onu yaxından tanıyanlar çox yaxşı bilirdilər ki, havanın necə olmasından asılı olmayaraq, həmişə etika və estetikaya riayət edən yazıçı dərs deməyə gedəndə kostyumla, qalstuk geyinərdi. Mir Cəlal müəllim belə bir səliqəni, abadlığı ətrafdakılarından da tələb edir və auditoriya süpürülməsə, heç vaxt içəri daxil olmazdı.

Azərbaycanın ən böyük təhsil ocağında ədəbiyyatdan dərs demiş Mir Cəlal müəllim peşəkar pedaqoq kimi milli kadrların yetişdirilməsində demək olar ki, fədakarlıq göstərərmiş. Professor Mir Cəlal müəllim Bakı Dövlət Universitetində dərs verdiyi zaman tələbələrin elmi hazırlıqlarının təşkili prosesi üçün xüsusi elmi konsepsiya hazırlamış və həmin konsepsiya ilə həmkarlarını da tanış etmişdir.

O, tədrisə başlayarkən ədəbiyyatda elə bir istiqamət götürürdü ki, tələbənin beyni yorulmasın, zehni korlanmasın, tez maarifləndirməyə həvəs oyatsın. Sonra başqa istiqamət götürərək, fantaziya ilə əqli qanunların bir-birinə kömək etməsinə, qondarma və toqquşdurmalara yol verilməməsinə, həm zəkanın düzgün zövqə gəlməsinə, həm də lazımlı həqiqətlər dərk edilməsinə rəvac verərdi. Bundan sonra Mir Cəlal müəllim obyektiv varlıqların təliminə, onların mahiyyət və xüsusiyyətlərinin təhlilinə başlayardı. İnsan psixologiyasına yaxından bələd olan professor ilk növbədə hissi kateqoriyalardan başlayıb, sonra maddi varlıqların əsaslarını öyrətməklə həmin bəhsə yekun vurardı. Tələbənin hansı fənni öyrənmək və həmin sahədə ixtisas sahibi olmaq istəyirdisə, nəzərdə tutulan fənn ilə əlaqəsi olan bütün elmlərlə, sənətlərlə tanış olmaq üçün həvəs göstərilməsində Mir Cəlal müəllim öz tövsiyələrini verərdi. Bütün bunlarla yanaşı ömrünü elmə həsr etmək qərarına gələn tələbələrin ədəbi və humanitar elmlərdən, həm də başqa əlaqədar fənlərdən baş çıxarmalı, imkan olduqda, yerdə qalanları öyrənməkdən də imtina etməməli idi; çünki bilik öyrənməkdə laqeydlik ən çirkin və ən təhlükəli xasiyyətdir.

Görkəmli pedaqoq bu konsepsiyanı təkcə ali təhsil ocağında yox, həm də orta məktəbdə təhsil alan övladlarının tədrisinə tətbiq etmiş və sonradan əlavə etməli olmuşdu ki, “yuxarıda sadalanan prinsiplə fəaliyyətə başlayarkən böyük diqqət, səbr, əmək, iradə və ardıcıllıq tələb olunur. Burada özünü aqil insan hesab edib, bir çox şeyləri öyrənməmiş, o birisini başlamaq olmaz. Hər fənnin öyrənilməsində fitri istedadı inkişaf etdirən, səhhətə zərər verməyən, zehni

itilədən, zəkanı parıldadan, hafizəni genişləndirən, zövqü artıran üsullardan istifadə olunmalıdır".

Bütün bu təlimlərə ciddi riayət edən Mir Cəlal müəllimin övladları maariflənmə sahəsində böyüklərinin ümidlərini doğruldaraq, orta məktəb illərində özlərini ali təhsil ocağının tələbəsi kimi göstərmişdilər.

Bu günlərdə professor Mir Cəlal müəllimin yetirmələri, tələbələri, aspirantlar, professorlar onun xatirəsini yalnız xoş sözlərlə yad edir və onun ən ağır vəziyyətlərdə, çətin məqamlarda yaxın insanların köməyinə necə gəldiyini xüsusilə vurğulayırlar. Mədəniyyət, ədəbiyyat, pedaqoqika sahəsində göstərdiyi xidmətlərinə görə o, bir çox orden və medallarla təltif edilmiş və Vətən qarşısındakı xidmətlərinə görə onun adı paytaxtın əsas küçələrindən birinə verilmişdir.

***Mütaliə insanı kamilləşdirir, düşünmək qabiliyyətini artırır, yazmaq isə insana dəqiqliyi öyrədir.***

***Frensis Bekon***

# Mir Cəlal şəxsiyyəti

Mir Cəlal müəllimin müasirləri arasında qazandığı böyük nüfuz ədəbi mühitlə məhdudlaşmamış, ölkəmizin ictimai-siyasi həyatında göstərdiyi fəaliyyət, ictimai proseslərdə fəal və intensiv iştirakı geniş əks-səda doğurmuşdur. Böyük ideallarıın təsdiqində fəallıq göstərmək, müasir ictimai-siyasi proseslərin hadisə və meyllərin dərin təhlilini vermək, xalqın, xüsusən də bilik verdiyi tələbələrin rifahı naminə mücadilə etmək Mir Cəlal müəllimin ictimai fəaliyyətinin mərkəzində dayanmışdır. Ali təhsil auditoriyalarında görkəmli pedaqoqun ciddi problemlər qaldıran çıxışları yüksək və mükəmməl ictimai təfəkkürə söykənmişdir. Dərin bilik, insan psixologiyasını duymaq, kövrələn insan qəlbini almağı bacaran, zəngin dünyagörüşü, geniş məlumat dairəsi və fəal həyat mövqeyindən qaynaqlanan nəzəri düşüncələri Mir Cəlal müəllimin ictimai xadim obrazını parlaq və yaddaqalan cizgilərlə zənginləşdirir, bütövləşdirir.

Nəzəri ümumiləşdirmədə ortaya çıxan bəzi materialların dəqiqləşdirməsinə göstərdiyi maraq zəhmətkeş alimi, ədəbi prosesdəki bədii sistematik xüsusiyyətlərin mədəniyyət,

ədəbiyyat, pedaqoqikanın ümumi sistemləri içərisindəki yerinin daha aydın müəyyənləşdirməsinə sövq edirdi. Ədəbi əlaqələrin dünya ədəbi prosesində özünü göstərən və ayrı-ayrı xalqların mənəvi və sosial həyatında meydana çıxan fəal və ardıcıl təsir vasitələri də bunu deməyə əsas verir ki, qarşılıqlı faydalanma, təsirlənmə yolu ilə ədəbiyyatların zənginləşmə prosesi ümumi, dünyəvi mədəni prosesin ayrılmaz xüsusiyyəti kimi təzahür edir. SSRİ-də ədəbi-mədəni əlaqələrin öyrənilməsi ədibin qarşısında daha yeni tədqiqatlara meyl göstərmiş və onun qarşısında böyük yaradıcılıq üfüqləri açmışdı.

Birmənalı şəkildə bildirmək lazımdır ki, vaxtilə ədəbiyyat sahəsində öz sözünü demiş, həm dost-tanışları, həm də opponentləri arasında böyük hörmət qazanmış, Azərbaycan Dövlət Universitetindəki kolleqaları arasında nüfuz sahibi olmuş Mir Cəlal müəllim kimi dahi şəxsiyyətlərə hər bir dövrdə ziyalı elitanın və yüksək intellektual potensiala malik olan yaradıcı insanların ehtiyacı var. Ədəbi yaradıcılığı bədii şəxsiyyətini tamamlayan bu cür ədiblər hər bir dövrdə xalqın ağrılı problemlərinə məlhəm olur. Bir çoxlarından fərqli olaraq özünəməxsus xarakter üstünlüyü də ondadır ki, mərhum Mir Cəlal müəllim məxsus olduğu xalqın mənəvi ağrılarını olduğu kimi duyurdu və əsərlərində də müəyyən qədər əks etdirməyə çalışmışdır.

Mir Cəlal müəllim pedaqoqika sahəsində fəaliyyət göstərən zaman ideyanın yoxlanılması üzrə iki konsepsiyadan istifadə edirdi: birincisi, ideyanın gerçəkləşdirilməsi, həyata keçirilməsi imkanı, ikincisi, bu gerçəkləşdirilmiş ideyanın insanların həyatını necə dəyişdirəcəyinin qiymətləndirilməsi istiqamətində bütün əqli enerjisini səfərbər etmişdi. Ədibin

qələmə aldığı əsərlərindən və yazı üslubundan onun realist olmasını sezmək mümkün idi. Mir Cəlal müəllim zaman, məkan şəraitinə uyğun olaraq, təbiət, cəmiyyət və təfəkkür qanunlarını bilməklə iş görən, davranan və ya müəyyən fikir söyləyən bir insan olmuşdur. ədibin gerçək fəaliyyəti və davranışı həqiqi, həyati, mövcud olan və ya dünyanın qanunları əsasında gerçəkləşə bilən iş prinsipinə uyğunlaşmışdı.

Yazıçı-tədqiqatçının fikrincə, mahiyyətinə görə insan özünün bu ideyalarını yalnız bədii yaradıcılıq vasitəsilə ifadə etməklə kifayətlənməyərək onları həyata keçirməyə çalışır. Müəyyən qərara gəlmək və nəyisə seçmək üçün insan ətrafda baş verən hadisələri anlamalı, yaşadığı dünyanı, insanı və onların əməllərini dərk etməli, nəhayət, o özünü başa düşməlidir. Bax, onda, toplanmış bilik və təcrübədən, hiss və təəssüratlardan, insanın mənəvi zənginliyini təşkil edən bütün şeylərdən çıxış edərək müəyyən qərara gəlmək, seçmək olar. Belə təcrübəsi olmayan insana həyatın yalnız bir tərəfi məlumdur. Dünya onun üçün ya qara, ya da ağdır. Deməli, belə insanlar bütün həyatı boyu yalnız yarımçıq ömür sürür. O öz mənəvi, ruhi həyat potensialının yalnız bir hissəsindən istifadə edir, lakin bu hissəni də heç bir şeylə müqayisə etmək mümkün olmadığından, o hər şeyi itirir. Mir Cəlal müəllim isə istedadlı şəxslərə, təfəkkür sahiblərinə həmin potensialdan düzgün istifadə etmək yollarını göstərmiş, mənəvi sərvətin inkişaf edib zənginləşməsi üçün yardımçı olmuşdur.

Şəxsiyyətinə, xasiyyətinin xüsusiyyətlərinə görə hər bir insan cəmiyyətdə mühüm rol oynayır, davranış xəttini seçir. Burada iki əks mövqe mövcuddur: eqoizm - xudbinlik, ancaq özünü sevmək, öz şəxsi maraqlarını başqa adamların;

bütövlükdə cəmiyyətin mənafeyindən üstün tutmaq, ikinci mövqedəki alturizmdir - öz şəxsi mənafeyini unudub, başqalarının qeydinə qalmağa, öz maraqlarını bütövlükdə cəmiyyətin mənafeyinə tabe etməyə hazır olmaq. Əlbəttə, bunlar ifrat xudbin və ifrat alturist xasiyyətlər haqqında təsəvvür yaradır. Mir Cəlal müəllim xasiyyət etibarilə ifrat alturist sayılır və onun bu nadir xasiyyəti övladlarına, övladlarından isə nəvələrinə keçmişdir. Paşayevlər nəsli öz şəxsi mənafelərini unudub, başqalarının qeydinə qalmağa, öz maraqlarını isə bütövlükdə cəmiyyətin mənafeyinə tabe etdikləri bizim hamımıza agahdır. Mir Cəlal müəllim istər məişətdə, istərsə də öz iş yerində olanda ətrafda olan insanların qayğılı problemlərinə biganə qala bilmirdi. Sadəcə olaraq o, bütün bunlara göz yuma bilmədiyindən özünü dağa-daşa vurur və çətin alınan işləri yoluna qoyandan sonra rahat nəfəs alardı. Məhz bu kübar xasiyyətinə görə müasirləri ədibə humanist adam kimi baxırdılar.

Çağdaş dünyada gedən qloballaşma prosesi qarşılıqlı əlaqə və zənginləşmə bir çox sahələrdə olduğu kimi, ədəbiyyatda da mühüm məsələlərin müəyyənləşməsinə kömək edir. Müasir qloballaşma prosesində bir xalqın mənəvi sərvətlərinin başqa xalqa dövr edilməsi kulturoloji hadisə olmaqla yanaşı, həm də siyasi və etno-sosial faktora çevrilir və həyatın gerçək tələbatı kimi təzahür edir. Bu tələbatın yerinə yetirilməsində yeni informasiya texnologiyaları nə qədər güclü və ciddi amil kimi ortaya çıxsa da, bu işdə ayrı-ayrı yaradıcı insanların aparıcı rolunu heç nə əvəz edə bilmir. Mir Cəlal müəllim axirət dünyasına köçsə də, onun yaratdığı elmi-bədii incilər və ədəbiyyatşünaslıqla bağlı olan tədqiqat işləri hələ də geniş məkanda yayımlanaraq, xalqlara mənəvi

qida verir. O, bizim sıralarımızda olmasa da, onun fəaliyyəti öz elmi, tərbiyəvi əhəmiyyətini itirməyib, insanlara xidmət edir. Ədəbi-mədəni inteqrasiya prosesində Mir Cəlal müəllimin və başqa alim və yazıçıların iştirakının böyük bəhrələr verməsi danılmaz bir gerçəklikdir.

Mir Cəlal müəllimin bircə amalı vardı, hansı işi görmək üçün qarşısına məqsəd qoyurdusa, onu humanizm prinsipləri əsasında görürdü. Humanizm - adamlar arasında bərabərlik, ədalət, insanlıq prinsiplərinə, insana məhəbbətə, onun ləyaqətinə hörmətə əsaslanan dünyagörüşüdür.

Ədib özünü humanizm prinsipləri ilə məhdudlaşdıran, eqoizmə üstünlük verən, alturistlərə dırnaq arası baxan ünsürlərə qarşı mübarizə apararaq, onları düzgün yola dəvət edirdi.

Həyatda ideal şəxs tapmaq, müəyyən mənada ona oxşamaq hər bir insanın arzusu ola bilər. Adama elə gələ bilər ki, həmişə realizm mövqeyindən çıxış etmək və ya həyata keçirmək üçün yalnız bütün qanunları bilmək kifayətdir. Lakin hamıya bəllidir ki, real həyatda hər şey başqa cürdür. İnsanda daha çox gerçəkləşməz ideyalar, həyata keçməz planlar, qeyri-real fantaziyalar yaranır. Bunun səbəbləri aydındır, çünki hər bir insan bütün qanunlara bələd ola bilməz. Bəşəriyyətə məlum olan insan kodeksinə daxil olan qanunlar Mir Cəlal müəllimə bəlli olduğundan o, öz bilgisini ünsiyyətdə olduğu hər bir kəsə xərcləməyi özünə müqəddəs borc bilirdi.

İslam teoloqları və dahi filosoflar bildirirlər ki, *“əgər insan aləmdəki bütün qanunları bilsəydi və həmişə də onlarla müvafiq surətdə davransaydı, onda həyata marağını itirərdi, insanların həqiqət, yeni biliklər, mənəvi sərvətlər axtarışları,*

*bütün yaradıcılığı mənasızlaşardı. Bu sadəcə olaraq qeyri-bəşəri aləm olardı".* Xoşbəxtlikdən, hər şey başqa cürdür, insanın mənəvi aləmi daim həqiqət axtarışlarındadır, adamların yaradıcılıq və quruculuq tələbatı var, şəxsiyyətin təxəyyül və fantaziyası ömrü boyu gözəl xəyali aləmlər yaradır. Elə Mir Cəlal müəllimin da konsepsiyası bundan ibarət idi. O, insanları daim mənəviyyat axtarışlarına sövq etmişdi.

Mir Cəlal müəllimin ədəbiyyatşünaslıqda gördüyü işləri nəzərə alanda onun vücudunda, həmin sahə ilə bağlı nəhəng bir adamın varlığı olduğunu dərk etmək çətin deyil. O, bir alim kimi bildirirdi ki, elm sahiblərini elmlərin çoxluğu ilə deyil, əməllərin faydalılığı, əxlaqların saflığı və özlərinin xeyirxahlığı ilə sınaqdan keçirmək lazımdır. Bu keyfiyyətlər elmi kamillik yüksəkliyinə çatmış alimlərdə olur. Mir Cəlal müəllim elmi kamillik dərəcəsinə çatanları elə adamları hesab edirdi ki, onların elmi potensialı elm öyrənməyə, maarifə yiyələnməyə yönəlsin, bu, şövq və həvəsin nəticəsində varlıqların dərəcələrini müəyyənləşdirə bilsin, həqiqətlərin mahiyyətinə nüfuz etməyi mümkün olduğunu hesab edərdi.

Onu da demək lazımdır ki, adamlar bir çox hallarda, xüsusilə şəxsiyyətlərinin formalaşdığı dövrdə, öz şəxsiyyət xüsusiyyətlərini düzgün qiymətləndirə bilmirlər. Bu dövrdə onlar öz qüsur və ya məziyyətlərini həddən çox kiçiltməyə, yaxud böyütməyə meyl göstərir, özləri üçün nümunə seçdikləri adamlara pərəstiş etməyə çalışırlar. Mir Cəlal müəllim Azərbaycan adət-ənənələrini özündə birləşdirən gözəl nəsihətlər əhatəsində tərbiyə almasında Azərbaycan mədəniyyətini özü üçün mənəviyyat məkanı saymış və xasiyyət etibarilə hərtərəfli olaraq, həmin dövrdə yaşayış-

yaratmış millətimizin görkəmli elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinə oxşamağa çalışmışdır. Ümumiyyətlə, ideal şəxsiyyət elə şəxsiyyət tipidir ki, insan, əgər ona özünün qüsurları və sosial əhatə şəraiti mane olmazsa, o cür şəxs olmaq və başqalarına da bu cür görünmək istəyir.

Göründüyü kimi, insanın mahiyyətinin, onun cəmiyyətdəki rolu və yerinin dərk edilməsində şəxsiyyət anlayışı mühüm yer tutur. Mir Cəlal müəllimin özünü alicənab, nəcib, qayğıkeş, təvazökar bir insan kimi aparması, vücudunda əsl insana xas olan nümunəvi xarakterik xüsusiyyətlərinin üstünlük təşkil etməsi, onun ideal şəxsiyyətə çevrilməsinə böyük təkan vermişdir. Mir Cəlal müəllimin ideal şəxsiyyət kimi qeyri-adiliyi, müstənaslığı ilk növbədə onun iradə qüvvəsi, təfəkkür tərzi, dünyagörüşünün genişliyi, əxlaqi ideallarının sarsılmazlığı, estetik prinsiplərinin orijinallığı, bir sözlə yaradıcı şəxsiyyəti səciyyələndirən bütün keyfiyyətlərlə şərtlənmişdir.

Sovet ideologiyasının bütün sahələrdə hökmran olduğu bir dövrdə Mir Cəlal müəllim yaxın adamları və dostları arasında istədiyi mövzu ilə əlaqədar söhbət aparardı. Xüsusən də onun bəlağət elminə dərindən vaqif olması ədibə bu sahədə geniş imkanlar yaradırdı. Mir Cəlal müəllimin nitq qabiliyyəti həm auditoriyadakı tələbələri, həm iclas zallarındakı pedaqoq heyətini, həm də ədəbi gecələrdə toplaşan qələm dostlarının marağına səbəb olurdu.

***Yazıçı təbiəti rahatlıq bilməyən, dinclik tanımayan təbiətdir.***
***Süleyman Rəhimov***

## Xalqa bağışlanan ölməz əsərlər

Azərbaycan ədəbiyyatında Mir Cəlal müəllimin yaratdığı roman və hekayələr həyati əsərlər olsa da, sənətkarlıq baxımından yüksək səviyyədə duran orijinal, yetkin əsərlərdir. Süjet xəttini təbii inkişaf etdirməkdə, hadisələrin bir-birilə qırılmaz bağlılığı və kulminasiya nöqtəsinə çatdırılmasında, gözlənilməz final səhnələrinin yaradılmasında o, parlaq istedadını nümayiş etdirmişdir.

Millət üçün faydalı və oxucuların zövqləri üçün rəğbətli əsər dram və roman olduğundan Mir Cəlal müəllim həmin janrlara xüsusi diqqət yetirərdi. Onun əsərləri özünün bədii təfəkkürünün məhsulu olub həyat hadisələrində insanın tutduğu mövqenin ədalətə, xeyirxahlığa, cəmiyyətin bəlalardan mühafizə etməyə çağırış olduğunu təlqin edir.

Mir Cəlal müəllimin yazdığı **"Dirilən adam"**, **"Bir gəncin manifesti"**, **"Açıq kitab"**, **"Yaşıdlarım"**, **"Təzə şəhər"**, **"Yolumuz hayanadır"** romanları, bir çox oçerklərin toplandığı **"Sağlam yollarda"**, **"Yeni kəndin adamları"**, **"Gözün aydın"** adlı kitabları, **"Boy"** adlı hekayələr toplusu hər bir oxucunun şüurunda dərin izlər buraxmışdır. Onun

qələmə aldığı **“Qaymaq”, “Ayaz”, “Şəxsi məsələ”, “Qonaqpərəst”, “Müalicə”, “Dost görüşü”, “Vicdan əzabı”, “Tamaşa”, “Nənənin hünəri”, “Badamın ləzzəti”, “Gözün aydın”, “Hikmətdən xəbər”, “Oğul”, “Əsgər oğlu”, “Nazik mətləb”, İnsanlıq fəlsəfəsi, “Kəmtərovlar ailəsi”, “Elçilər qayıtdı”, “İki hakim”, “Şəxsi məsələ”, “Sara”, “Subaylıq fəlsəfəsi”, ”Pərzad”, “Dəzgaz qızı”** hekayələrində olan hadisələr ətraflı olaraq zəmanəmizlə səslənir.

Mir Cəlal müəllimin sosialist kəndi və şəhərinin yüksəlişinə, yaşadığı ölkənin adamlarının məişət və şüurundakı yeni əlamətlərə bir sıra maraqlı oçerki oxucular arasında geniş təşəkkül tapmışdır. O, oçerk janrının tələb və xüsusiyyətlərini nəzərə almaqla bədii ümumiləşdirməni və ümumən bədiilik məsələsini həmişə diqqət mərkəzində saxlamışdır. Bu oçerklərdə xalqımızın misilsiz nailiyyətlərini, yeni həyat tərzini işıqlandıran ehtiraslı bir pafos vardır.

Ədibin roman və hekayələrini vərəqlədikcə onun güclü məntiqinin, bənzərsiz mühakiməsinin şahidi olursan və belə qənaətə gəlirsən ki, ədəbi-ictimai, bədii yaradıcılığının ən mühüm nəzəri və əməli məsələlərinə həssas münasibət, ictimai həyatda göstərdiyi alicənablıq onun müstəsna həyati təcrübəsindən bəhrələnmiş, müxtəlif məsələlər ətrafında ciddi, prinsipial mübahisələrdəki obyektiv mövqeyi isə dərin, aludəli, ictimai təhlil vermək bacarığından irəli gəlir. Digər tərəfdən o da aydın şəkildə özünü büruzə verir ki, pedaqoji fəaliyyəti ilk əvvəl Mir Cəlal müəllimin humanist potensialını, mənəvi dəyərlərini, siyasi əqidəsini üzə çıxarır, bu məziyyətlər yüksək əxlaqi dəyərlər kimi açıqlanır. Ən nəhayət həmin fəaliyyət ədəbi elmi-filoloji, bədii yaradıcılığı,

çoxşaxəli ictimai-siyasi fəaliyyəti ilə həmahəng səslənir. Həm elmi yaradıcılığı, həm bədii qələm təcrübəsi, həm dəyərli əsərləri, həm satira nümunələri, həm ədəbi tənqidi qeydləri, həm kəsərli çıxışları, həm də pedaqoji fəaliyyəti kontekstində onun dolğun obrazının, parlaq şəxsiyyətinin məzmunu bütün cizgiləri ilə, zənginlikləri ilə canlanır. Vətənə, xalqa, elmə, ədəbiyyata, mədəniyyətə, incəsənətə, təhsilə təmənnasız və səmərəli xidmət nümunəsi kimi insanda xoş əhval-ruhiyyə, yaradıcı enerji xüsusi impuls yaradır. Yuxarıda göstərilən fəaliyyət sahələrini Mir Cəlal müəllim sözün əsl mənasında şərafət, ləyaqət səviyyəsində, kamala çatmış bir insan kimi təmsil etmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişaf etdirilib təbliğ olunmasında ümummilli liderimiz Heydər Əliyevin ümdə vəzifəsi sayılmış və bu istiqamətdə titanik zəhmət çəkmişdir. Bu, yerdə mən ümummilli liderimiz Heydər Əliyevin qayğılı sözlərini oxuculara çatdırmaq istəyirəm: ***“1969-cu ildən tale mənim üzərimə böyük bir vəzifə, böyük bir məsuliyyət qoymuşdur. Mən o, məsuliyyəti dərk edərək, o vəzifəni layiqincə yerinə yetirməyə çalışaraq, həmişə hesab etmişəm, bu gün də hesab edirəm ki, ədəbiyyata, mədəniyyətə diqqət yetirmək, qayğı göstərmək lazımdır, ədəbiyyatdan, mədəniyyətdən həyatın başqa sahələrindən işin müvəffəqiyyətlə həyata keçirilməsi üçün istifadə etmək lazımdır. Bunu mən çox yaxşı dərk edir və istedadlara hərtərəfli yardım əlimi uzadıram”.***

İllər ötdükcə Mir Cəlal müəllimin yaradıcılığı bir çox ədiblərin, tənqidçilərin, tədqiqatçıların müzakirə obyektinə çevrilməkdədir. Ədəbiyyat elminin korifeylərinin, görkəmli elm xadimlərinin Mir Cəlal müəllimin təfəkküründən süzülüb

gələn dəyərli elmi və ədəbi fikirlərə yetirdikləri diqqət, onun əsərlərinin intellektual səviyyəsinin, peşəkarlıq siqlətinin güclü analitik zəkalı mütəxəssislərdə oyatdığı təəssüratlar öz parlaq əksini tapmışdır. Ədibin çoxsaylı əsərlərinə dair mütəxəssislər prinsipial mövqedən çıxış edərək, obyektiv şəkildə araşdırmalar aparmışdılar. Onlar Mir Cəlal müəllimin ədəbi və elmi mühitdə, ziyalılar arasında təsir dairəsini, nüfuzunu, alim sanbalını nümayiş etdirən real fakt kimi dəyərləndiriblər.

Bədii yaradıcılığını elmi-pedaqoji fəaliyyətilə sıx bağlayan Mir Cəlal müəllim Azərbaycan ədəbiyyatında özünəməxsus ədəbi nəfəsi olan yazıçılarımızdan idi. Real gerçəkliyə fəal sənətkar müdaxiləsi, həyati yaşantılar, daxili duyğu və düşüncələrin obrazlı ifadəsi, ədəbi üslubun bədii çalarları onun əsərlərinin əsas cizgilərini şərtləndirir.

Ədibin klassik rus yazıçı və şairlərinin əsərlərini Azərbaycan dilinə tərcümə etməsi, Azərbaycan oxucularını rus ədəbiyyatı ilə tanış etmək məqsədi güdürdü. Mir Cəlal müəllimin bədii yaradıcılıqla məşğul olması, pedaqoji və yazıçılıq qabiliyyəti başqa bir dilin obrazlı ifadələrini, bədii dil xüsusiyyətlərini və üslub keyfiyyətlərini dərindən mənimsəməyə imkan vermişdi. Bu, ədəbi əlaqələrdə fərqli dillərin üslub oxşarlığının, ədəbi təfəkkürdə ümumi və fərqli xüsusiyyətlərin müəyyənləşdirilməsi imkanlarını ortaya çıxarırdı və tədqiqatçı ədəbi təsirlənmə və zənginləşmə prosesində bu cür cəhətlərin nə qədər əhəmiyyət kəsb etdiyini konkret bədii materiallar əsasında araşdırırdı. Məhz ona görə də o zamankı və sonrakı elmi araşdırmalardakı müşahidələri alimə apardığı müqayisəli təhlillərində mətnlərə dünya ədəbi

prosesinin mühüm amillərindən biri kimi yanaşmağa imkan verirdi.

Oxucu rəylərində səciyyəvi cəhət odur ki, bu rəylər ədibin əsərlərinin təsir qüvvəsini və əhatə dairəsini, dövrün tələbləri ilə səsləşdiyini, onun yaxşı bir müşahidəçi olduğunu, milli həyat tərzini diqqətlə öyrəndiyini və ümumittifaq oxucusunun da ürəyinə yol tapdığını göstərir.

Lakin yazıçının yaradıcılığına dərin səmimiyyəti, minnətdarlığı ifadə edən belə oxucu qeydlərinin çoxusu ancaq adi təəssürat səviyyəsində qalır, onun əsərlərinin ideya və bədii xüsusiyyətləri haqqında aydın və geniş təsəvvür vermir.

Böyük Vətən müharibəsinin başlanmasından bir il əvvəl Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü ümumən ədəbiyyatımızın, xüsusən onun ayrı-ayrı görkəmli nümayəndələrinin əsl qiymətini verdi, ədəbiyyat və incəsənətimizə dövlət qayğısını parlaq şəkildə nümayiş etdirdi. O zaman Mir Cəlal müəllimin hekayələri haqqında yazılan rəylərin birində göstərilirdi ki, *“Mir Cəlalın ictimai-məişət novellaları özünün canlılığı, məzmunluğu və aktuallığı ilə sovet ədəbiyyatında xüsusi mövqe tutur. Bu satirik hekayələrin tərbiyəvi rolu böyükdür”.*

1940-cı ildə Mir Cəlal müəllimin hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Bu tərcümə ümumittifaq oxucusuna ədibin yaradıcılığı ilə tanış olmaq imkanını verdi. Onun hekayələri Sovetlər ölkəsinin Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev, Minsk, Kuybışev (indiki Samara), Qazan, Novosibirsk, Vladivostok və digər şəhərlərdə yayılaraq, oxucu kontingentinin sayı xeyli dərəcədə çoxalmışdı. Yazıçının adı Səməd Vurğun, Süleyman

Rüstəm, Mirzə İbrahimov və başqa ədiblərimiz kimi sovet oxucuları arasında dillər əzbəri olub, onun yaradıcılığını diqqət mərkəzində saxlayırdılar.

Ədibin hekayələrində xalqla, zəhmətkeş kütlə ilə mövcud olan ictimai quruluşda təmsil olunan müxtəlif təbəqənin insanları və onların bəd əməlləri, çürük dayaqları arasında barışmaz ziddiyyətdən doğan münaqişədir. Daha dəqiqi, ölkənin idarə üsulunda çalışan bürokratlarla geniş xalq kütləsi, gözəl ideyalar və arzularla çirkin varlıq, eybəcər münasibət arasında gedən münaqişədir.

Mir Cəlal müəllim əsas əsərlərini həyatının ən gərgin, ən acılı və ağrılı günlərində ərsəyə gətirmişdi. Çünki ölkəni haqlayan Böyük Vətən müharibəsi milyonlarla günahsız insanların həyatına son qoymuş və həmin müharibədə ədibin bir çox yaxın dostları, tanışları həlak olmuş, ailələri isə taleyin ümidinə buraxılmışdı. Ağır mənəvi sarsıntılar, iztirablar içərisində yazıb-yaratmaq hər bir yaradıcı insan üçün ağırdır.

Ətrafda baş verən bütün proseslərə həssaslıqla yanaşmış Mir Cəlal müəllim vətənpərvər ziyalı kimi müharibə və bəşəriyyətin taleyi barədə düşünən mütərəqqi romantik sənətkarlar sırasında olmuş və ədalətsiz müharibələrin, nahaq qan tökülməyin əleyhinə idi. Onun yaradıcılığında işğalçı müharibələrin tənqidi daha kəskin və ardıcıldır. Ədib müharibənin törətdiyi fəlakət və təxribatdan fəryad etmiş, müharibəni törətmiş “başbilən siyasətçilərə” dərin nifrətini bildirmişdir. Mir Cəlal müəllim öz əsərlərində öz doğma vətənindən çox-çox uzaqlarda, müharibə alovları içərisində olan vaxtlarda, belə Vətənin taleyini yaddan çıxartmayan

fədailəri tərənnüm edərək, onları sözün əsl mənasında ölkənin qəhrəmanları adlandırmışdır.

Hüseyn Cavid yaradıcılığı ilə dərindən maraqlanmış və onun ziyalı təfəkkürünə daim hörmətlə yanaşmış Mir Cəlal müəllim yaxşı bilirdi ki, gələcəkdə repressiya maşınının qurbanı olacaq şair üçün imperialist müharibələrinin tənqidi səciyyəvi idi. Humanist şair bir sıra məqalə və şeirlərini, həmçinin ədalətsiz, işğalçı müharibələrin çirkin mahiyyətini ifşa edən **"İblis"** faciəsini bu mövzuya həsr etmişdir. Bilavasitə müharibə mövzusuna həsr olunmuş **"Hərb və fəlakət"**, **"Qüruba qarşı"**, **"Hərb İlahi qarşısında"** şeirlərində Hüseyn Cavid humanist şair-vətəndaş kimi bəşəriyyətin taleyini düşünmüş, müharibələrə kəskin etirazını bildirmişdir.

Qarabağ müharibəsinin üstündən bir neçə il keçməsinə baxmayaraq, XX əsrin son illərində (1991-1994) Azərbaycanda gedən Vətən müharibəsini işıqlandıran əsərlər həddindən artıq azlıq təşkil edir. Bu məsələdə damarlarında azərbaycanlı qanı axan bəzi nasirlərimiz passivlik göstərirlər. Bu da ki, indiki gənclərimizin vətənpərvərlik ruhunda böyüməsinə nəzərə çarpacaq dərəcədə maneçilik törədir.

Böyük Vətən müharibəsi 1941-1945 - ci illəri əhatə etdiyindən həmin dövrdə yaşayan ədiblər öz əsərlərini yalnız müharibə mövzusu ətrafında yaradırdılar.

Mir Cəlal müəllimin cəbhə mövzusunda yazdığı hekayə və oçerklərində döyüş ruhu yüksək, əzmkarlıq qüvvətli, düşmənə qarşı mübarizə hissi güclüdür. Elə həmin dövrdə o, yaradıcılığında mehriban dostluq, sülh şəraitində yaşayan bir çox millətlərin mədəniyyətinə, mənəvi sərvətlərinə hörmətlə yanaşmışdır. Əsərlərinin mövzusu rəngarəng olmuş, ədibin öz

fikir və duyğuları öz bədii ifadəsini tapmışdır. Mir Cəlal müəllimin əsərlərindəki obrazlar müxtəlifdir, insanların dünyagörüşünü, fikirlərini dərindən duyub, sənətində yaşatmağa çalışmışdır. Bu obrazlar vətənini, Azərbaycanın müstəqilliyini, faşizm üzərində qələbəsini istəyən igid Vətən oğul-qızları, qəhrəman Azərbaycan döyüşçüləri, vahid bir ailə kimi tanıdığımız SSRİ xalqlarının nümayəndələri olmaqla yanaşı, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə gördüyü insanlar arasında tanıdığı şəxsiyyətlərdir. Əlbəttə ki, onlar da öz millətinin övladları kimi vətənini, xalqını, azadlığını istəyir.

Müharibədən sonra, xüsusən də ədibin anadan olmasının 50 illiyi münasibəti ilə yazılan məqalələrdə yazıçının əsərlərindəki realizmə, yeniliyin köhnəlik üzərində qələbəsinə və müəllif dilinin gözəlliyinə daha çox diqqət yetirilmişdir.

Vaxtilə ədəbi tənqid bu dövrdə yazılan əsərlərin ətraflı bədii təhlilini vermiş, bəzi qüsurlarını qeyd etməklə yanaşı, ədibin həmin dövr hekayələrini əsasən yüksək qiymətləndirmişdir. M. Arifin **“Qəzəbli hekayələr”,** H. Orucəlinin **“Mir Cəlalın Böyük Vətən müharibəsi dövründə yaradıcılığı”,** Əziz Mirəhmədovun **“Mir Cəlalın yeni hekayələri”,** Mirzə İbrahimovun **“Müharibə və ədəbiyyat”,** Əkbər Ağayev və başqa tənqidçi və yazıçıların qiymətli məqalələri həmin mövzuya həsr olunmuşdur. Xeyirxah niyyətlə yazılmış bu məqalələrdə müharibə dövrünün özünəməxsus çətinlikləri, ədəbiyyatın qarşısında duran bir sıra zəruri məsələlərin şərhi ilə əlaqədar olaraq Mir Cəlal müəllimin hekayələri də təhlil olunmuşdur. Məqalələrdə sadə adamların həyatına yazıçının dərin məhəbbəti və onun üslubundakı qəzəb, çağırış, səfərbərlik motivləri əsas keyfiyyətlər kimi göstərilmişdir.

Mir Cəlal müəllimin hekayələrinin mövzusu rəngarəng, əhatə dairəsi genişdir. Yazıçı kiçik hekayəni öz yaradıcılığında ancaq müəyyən zamanla bağlı, təsadüfi bir janr hesab etməmiş, bəlkə onunla uzun zaman, müntəzəm şəkildə məşğul olmuşdur. Bu cəhətdən o, özünün müasiri olan hekayəçilərdən seçilmişdir. Görkəmli yazar klassik Azərbaycan nəsrinin ən gözəl ənənələrini davam etdirmiş, onun inkişafına və yeni keyfiyyətlərlə zənginləşməsinə çalışmış, ədəbi-tənqidi məqalələrində bu ənənələri təbliğ etmişdir.

Ədib təsvir etdiyi həyatın müxtəlif sahələrini müşahidə etməyi, aşkara çıxarmağı, eyni bir mövzuya yenidən, həm də yeni bir münasibətlə dönə-dönə qayıtmağı, onun "açılmamış sirlərini" kəşf etməyi sevən, başqa sözlə, leytmotivləri öz yaradıcılığında bir ənənə şəkilinə salmağa çalışan yazıçılardan idi. Bu xüsusiyyət təkcə hekayələrin mövzularında deyil, həmçinin dil, üslub, yazı manerasında da ardıcıl surətdə davam etdirmişdi.

***Ədəbiyyat vur-tut fraqmentlər fraqmentidir, olmuş hadisələrin və deyilmiş sözlərin yalnız cüzi hissəsi qələmə alınır, qələmə alınanların da cüzi hissəsi qorunub saxlanır.***

***İohann Volfqanq Höte***

## Əsərləri ilə oxucuları heyran edən ədib

Mir Cəlal müəllim müasirləri arasında ən çox oxunan müəlliflərdən biri idi. Onun yaradıcılığında - hekayələrində, povestlərində, romanlarında bədii söz qüdrətindən yaranan sənət əsərinin ruhu vardır. Yazıçı hər şeyi canlı göstərməyə çalışmışdır. Mir Cəlal müəllim əsərlərində oxucu üçün tərbiyəvi əhəmiyyət kəsb edən, onu düşündürən, naqis hərəkətləri ifşa etmiş, nəcibliyi yüksəklərə qaldırmış, keçmişə və gələcəyə aparan xəyallar dünyası yaradırdı - insanın reallığı çirkin məqsədlər naminə təhrif etməsindən, insan qəlbində başqasına olan mənfi hisslərin silinib getməməsindən, əksinə, daha da güclənməsindən, insanın digərlərinin uğurlarını heç cür qəbul edə bilməməsindən və belə hallarda daim daxili narahatlıqda olmasından. Bütün bu naqislikləri satira vasitəsi ilə üzə çıxaran ədib, insanın yalan niyyətləri, kin və paxıllıq hisslərinin birləşib, ədavət adlanan mənfi psixoloji keyfiyyətin yarandığını qeyd edir. Mir Cəlal müəllimin təbirincə, əgər bir insanda ədavət varsa, demək onda yalan, kin və paxıllıq olması mütləqdir.

Bundan əlavə o, öz əsərlərində qəlbində qorxu olan insanın qorxduğu obyektin gücünü şişirtməsindən, insanın vəcdə gəlməsini güclü affektlə - hissi halla, həyəcanla müşayiət olunmasından, insanın əlacsızlığa düçar olması, çıxış yolu tapa bilməməsi və nəticədə, boyun əyməsi, tabe olmasından yazaraq, heyrət, dəhşət, naəlaclıq hisslərinin insanı nicatdan uzaqlaşdırdığını dəfələrlə vurğulamışdır.

Keçən əsrin ortalarında ictimai ziddiyyətləri, sinfi bərabərsizliyi ifşa etməkdə bir çox söz ustadları dram sənətinə də xüsusi üstünlük verirdilər. Sənətin həm dram, həm də roman növündə xüsusi məharət və vətəndaşlıq qeyrəti nümayiş etdirmiş Mir Cəlal müəllim hər iki sahədə uzun müddət Azərbaycan ədəbiyyatında öz mövqeyini möhkəmlətmişdir.

Mir Cəlal müəllimin **"Təzə şəhər"** romanın sosial-fəlsəfi yükünün, gücünün böyük olması göz qabağındadır. Həmin dövrün sənətkarı bu romanda sosial-fəlsəfi vüsətə necə nail olduğunu və estetik bütövlük yarada bilmişdi. **"Təzə şəhər"** romanında yazıçı uğuru həm də bədii dilin estetik mükəmməlliyinə söykənmişdi. Metaforikləşmə Mir Cəlal müəllimin roman dilinin mükəmməlliyini şərtləndirən əsas cəhət olmaqla, həm də klassik romanın dil səriştəliyini özündə əks etdirir. Görkəmli ədib yazdığı romanı xalq təfəkküründən kənarda təsəvvür etmək fikrində olmamışdır. Ona görə ki, xalq bədii təfəkkürünün "məhsulları" hiss olunmadan yazılı ədəbiyyatın, xüsusən bədii nəsrin poetikasına güclü nüfuz edirdi. "Bu, təfəkkürün miqyas genişliyi, zamansızlıq və məkansızlıq keyfiyyəti nasirləri heyrətdə qoymaqla bərabər, onları özünün "cazibə dairəsi"nə salır". Romandakı qəhrəmanların daxili və səssiz düşüncələri,

fikri-xəyali dialoqlar, xəyalın irəli, geriyə uçuşu süjetin dinamikasını təşkil edir.

Azərbaycan ədəbiyyatında lirik-romantik, bədii-tarixi, dram əsərləri nəsrin mühüm xətlərindən biri sayılırdı. Mir Cəlal müəllim və onun bəzi dostları öz yaradıcılıqlarında təmsil olunan mütərəqqi romantik və dramatik nəsr orijinal xüsusiyyətləri ilə, həm mövzu, ideya və surətlər aləmi, həm də əlvan bədii boyaları, forma, janr, bədii dil və üslub, təsvir və ifadə vasitələri baxımından seçilirdi. Düzdür, mövzu və ideya məzmunu baxımından janrlar arasında kəskin sədd çəkmək olmaz. Lakin həmin ideyaların bədii ifadə tərzi, təsvir və təqdim üsulları başqa-başqadır.

XX əsr Azərbaycan romantizmi, onun tarixi kökləri, ideya-bədii qaynaqlarından tutmuş milli romantik fikrin Şərq, rus, Avropa romantizmi ilə əlaqələrinə, Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid, Abdulla Şaiq kimi romantik sənətkarların həyat və yaradıcılığı ədəbiyyatşünaslıq elmimizin diqqət mərkəzinə çevrilmişdir.

Mir Cəlal müəllimin **"Bir gəncin manifesti"** romanı haqqında məhəbbətlə söz açan, onun sənətkarlıq səmimiyyətini yüksək qiymətləndirən Yak Rıkaçevin bir qeydi xüsusilə qiymətlidir. O, yazır: *"Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir; kitabı oxuyub örtdükdən sonra adama belə gəlir ki, özünün dünənki həyatının həyəcan və sevinclərini sənə nağıl edən qızğın və həyəcanlı bir adamla bir neçə saat maraqlı söhbət etmisən".*

Bu yerdə mən yenə də akademik Arif Paşayevin xatirəsindən istifadə etməli olacağam. O, deyir:

- Mir Cəlal müəllimi bir yazıçı kimi, bir ədib kimi xarakterizə etmək üçün bu başdan deyim, onun həyatı çox qəribə olub. O, bir insan yox, üç insanın həyatını yaşayıb. Mən deyərdim ki, Mir Cəlal müəllimdə eyni səviyyədə həm ədəbi-yaradıcılıq, romanist, həm də novellist kimi bu bədii yaradıcılığı keçib. Bu, bir tərəfi. İkinci tərəfdən - böyük ədəbiyyatşünas alim olub. Onun əsərlərində, bizim böyük klassiklərimizə dair tənqidləri, təhlilləri var. Üçüncüsü də, böyük bir pedaqoq, müdrik bir müəllim olub. Bu üç həyatı, bu insan yaşayıb. Onun fəaliyyətində bu üç həyat bir-birini elə tamamlayırdı ki, bir-birinə elə bağlı idi ki, vahid bir Mir Cəlal obrazı yaranırdı. Mir Cəlal müəllim ona görə seçilirdi ki, o bir neçə roman yazıb. Birinci romanı **"Dirilən adam"**, sonra isə **"Bir gəncin manifesti", "Yaşıdlarım", "Təzə şəhər"** (bu roman Sumqayıta həsr olunub), **"Yolumuz hayanadır".**

***"Qızıl qələm"*** Cəmiyyətində görün kimlərlə tanış olub: Səməd Vurğun, Əhməd Cəlil, Cəfər Xəndan, Həmid Araslı. Hətta, mənim yadıma düşür, o vaxtlar, o, deyirdi ki, hörmətli akademikimiz Yusif Məmmədəliyev də öz sənətinə ədəbiyyatdan başlayıb. Mir Cəlal müəllim də belə mühitdə formalaşıb. Birinci 10 il ərzində sürətlə məhsuldar, talantlı bir yazıçı kimi ədəbiyyatımıza daxil olmuşdur. Onun ən məşhur əsəri **"Bir gəncin manifesti"** əsəridir. Orada vətənpərvər hisslər, Baharın acınacaqlı taleyi, Mərdanın inqilaba qoşulması və s. zamanın tələbi idi. İctimai sifariş idi. Uyğunlaşanda böyük əks-səda yaradır. Qeyd edim ki, kitab gürcü dilində nəşriyyatda yığılarkən, gürcü qız deyirdi ki, "**"Bir gəncin manifesti"** əsərini yığarkən, kitabın təsirindən o qədər ağlamışam". Mənə elə gəlir ki, elə yazıçının xoşbəxtliyi bundadır. Milliyyətindən asılı olmayaraq səni başa düşsünlər,

sənin insanların qəlbinə, hisslərinə əsərlərin vasitəsilə təsirin olsun.

Bir şeyi də deyim ki, onun bütün müasirləri onun haqqında xatirələrini 1990-cı ildə buraxılmış kitabda əks etdirib. Kitab Mir Cəlal müəllim haqqındadır. Bu kitabda belə maraqlı yazılar çoxdur.

Onu da deyim ki, Mir Cəlal müəllimin büllur Azərbaycan dilini xüsusi qeyd edirlər. Səməd Vurğun Gəncədə yaşayıb, onlar bir yerdə böyüyüb, bir yerdə çalışıblar. Mir Cəlal müəllim sonra aspiranturaya Qazan universitetinə gedib. İki il orada oxuyub, işləyib və belə bir şəraitdə böyüyüb. Öz dəsti-xətti ilə ədəbiyyata gəlib.

**"Bir gəncin manifesti"** əsərinə görə Mir Cəlal müəllimə ***"Komsomol laureatı"*** mükafatı verilmişdir. Hətta o vaxt, bu əsəri rus yazıçısı Nikolay Ostrovskinin **"Polad necə bərkidi"** əsəri ilə müqayisə ediblər. Bir çox tanınmış yazıçıların və ədəbiyyatşünasların səmimiyyəti ədibin kiçik həcmli hekayələrində də əsas yaradıcılıq məziyyətlərindən biri kimi nəzəri cəlb edir.

Humanist nasirin yaradıcılığında insanların sosial-ictimai, əxlaqi-fəlsəfi problemləri elə kiçik həcmli hekayələrində geniş və əhatəli tərzdə, son dərəcə orijinal üslubda təhlil edilmişdir.

Müxtəlif vaxtlarda yazıçının yaradıcılığı haqqında əsasən obyektiv və xeyirxah, bəzən də bir-birinə zidd mülahizələr irəli sürülmüşdür. Bunların bir qismi oxucu rəyləridir. Mir Cəlal müəllimin ümumən bədii nəsri, xüsusən hekayələri ədəbi ictimaiyyətimizin, geniş oxucu kütləsinin nəzərini cəlb etmişdir.

Mir Cəlal müəllimin yaradıcılığı haqqında yazan müəlliflərin rəyləri içərisində ədəbiyyatşünas İ. Satsın ***"Mir Cəlal yaradıcılığı haqqında"*** məqaləsi həm özünün həcmi, həm də mülahizələrinin əsasən dürüstlüyü cəhətdən mühüm yer tutur.

Müəllifin hekayədəki ənənəvi motivləri, təhkiyədəki əyləncəli, maraqlı maneraları, süjetin sadəliyi və ictimai məqsədə üstünlük verilməsi yaxşı keyfiyyətlər hesab olunur. Məqalədə nəzəri cəlb edən ən gözəl cəhət odur ki, İ. Sats ədibin yaradıcılığını məhəbbətlə təhlil edir. Tədqiqatçı, Mir Cəlal müəllimin klassik ədəbiyyatla üzvi əlaqəsini belə mənalandırır: *"Mir Cəlalda, heç şübhəsiz, əyləncəli hekayə yazmaq qabiliyyəti vardır. Hər hansı bir şəkildə təzahür edən bu qabiliyyət həmişə böyük bir ənənənin inkişafı ilə bağlıdır. Xüsusi tədqiqat, şübhəsiz Mir Cəlalın klassik Azərbaycan ədəbiyyatı və onun xalq mənbələri ilə əlaqəsini göstərə bilərdi. Bu onun sənətinin güclü cəhətidir"*. İ. Sats ayrı-ayrı satirik hekayələri təhlil edərkən ədibin həyatdakı mənfilikləri "müxtəlif dərəcə və incəliklərini" yaxşı bildiyini, fənalıqları məhz həyata, insanlara müsbət, xeyirxah münasibət cəbhəsindən - humanizm cəbhəsindən tənqid etdiyini səciyyəvi bir xüsusiyyət kimi göstərir.

Cəsarətlə demək olar ki, Mir Cəlal müəllim ədəbi mühitdə və mənsub olduğu ədəbi nəslin içərisində məhsuldar sənətkar sayılmış və çox asanlıqla oxucuların qəlblərinə daxil olub onların məhəbbətini qazana bilmişdir. Onun bədii dünyasına bələd olanlar yaxşı bilirlər ki, o, sözə çox məsuliyyətlə yanaşmış, əsərlərindəki fəlsəfi fikrin tutumunun, məna yükünün dərinliyi və eyni zamanda genişliyi sözə

həssas münasibətdən, sidq ilə ona bağlanmaq ehtirasından irəli gəlirdi.

Adəti üzrə əksər bədii əsərlərdəki obrazlar müəllif tərəfindən məhz həyatdan götürülür və orada cərəyan edən proseslərin özü həyatdakı hadisələrin aynası sayılır. Onu da qeyd etmək lazımdır ki, bədii əsər haqqında fikir söyləmək, doğru-dürüst mühakimə yürütmək elə də asan məsələ deyil. Çünki həqiqət zəka ilə qəbul edilib qəlblərdə tərəddüdə məruz qalır, əksər hallarda iradənin məngənəsinə düşüb, cəmiyyətin mühakiməsindən kənar qalır. Həqiqətin əks olunduğu sözü duymaq, onu təhlil etmək, ədəbi-estetik dəyərlərini qiymətləndirmək ona görə də çətin olur. Mir Cəlal müəllim isə heç kimdən, heç nədən çəkinmədən həqiqəti söyləməyə özündə cəsarət tapmış, cəmiyyətdə baş verən eybəcərlikləri isə satirik əsərlərində ifşa etmişdir. Həmkarları onun bu mətnliyinə həsəd aparmış, tələbələri isə məftun olmuşdular.

Həyatdan götürülən obrazlarla yaradılan hər bir əsər özünəməxsus fəlsəfədir və həmin əsəri qələmə alan ədib də özünəməxsus filosof, söz rəssamı sayılır. Öz əsərləri ilə minlərlə oxucunu öz ətrafında toplamış Mir Cəlal müəllim bu qəbildən olan nasir idi. Onun düşüncəsini, marağını, ilhamını, təsəvvürünü hökmlə hərəkətə gətirmək, yönəltmək, idarə etmək çətin idi. Ümumiyyətlə, ədib və şairlər harada və hansı millətə mənsub olurlarsa-olsunlar, əyilməz əqidəli, möhkəm iradəli, dönməz düşüncəli, "çətin" adamlardır. Hər adam onların fəaliyyət göstərdikləri dünyanı başa düşə bilmir. Bunun üçün mütləq kamil səviyyəyə qalxmaq lazımdır.

Bir çox elmlərə yaxından bələd olmuş, diplomatiya sahəsində ən ağır düyünləri məharətlə açmış, sonsuz dolanbacı xatırladan şəxsi intriqaları və ambisioz niyyətləri öz

idrakı ilə alt-üst etmiş, gözlənilməz siyasi hücumlara asanlıqla sinə gərmiş, keçid dövrü zamanı asan olmayan siyasi fəaliyyətini davam etdirə-etdirə böhran vəziyyətində olan Azərbaycanın bütün ağrılı-acılı problemlərinin açarını ürəyinin başında gəzdirmiş, həm keçmiş SSRİ respublikaları, həm də inkişaf etmiş dünya ölkələri arasında öz siyasəti ilə böyük hüsn-rəğbətə malik olmuş, nüfuzlu, zəhmli, qətiyyətli, rəşadətli, dəyanətli, qüdrətli, diqqətli, səriştəli, ciddi, peşəkar siyasi, ictimai və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkədəki yaradıcı insanlara böyük dayaq olmuş və özünün bənzərsiz dünyagörüşü ilə ədəbiyyat nümunələrinin yaranıb ictimaiyyət arasında yayılmasında ən əlverişli şərait yaratmışdır. Həqiqi mənada qələm ustalarına öz köməyini əsirgəməyən mərhum dövlət başçısı deyirdi:

***"Bizim xalqımız ən qədim zamanlardan ədəbiyyatla, ədəbiyyat nümunələri ilə tanınıbdır. Hətta Qərb ölkələrinin, inkişaf etmiş digər ölkələrin tarixini vərəqləyərkən görürük ki, xalqımızın yaratdığı ədəbi əsərlər onlardan xeyli əvvəl yaranıbdır. Beləliklə də, bir daha aydın olur ki, xalqımızın tarixində ədəbiyyat qədim dövrlərdən öz yerini tutub və xalqımızın inkişafında çox böyük rol oynayıbdır.***

***Doğrudur, tariximizin cürbəcür mərhələlərində ədəbiyyatın çox güclü inkişaf, dövrü də, süqut dövrü də olubdur. Biz enişli-yoxuşlu bir tarix keçmişik, ancaq ədəbiyyatımız yaşayıbdır. Əgər indi biz "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyini qeyd ediriksə və bunu bütün dünyaya bəyan ediriksə, demək, bədii sözümüzün 1300 illik tarixi göz qabağındadır. Ədəbiyyatı, şeiri, bədii sözü yaradan insanlar, şübhəsiz ki, fitri istedada malik***

***olublar. Onlar xalqına, millətinə, dilinə, milli ənənələrinə sadiq insanlar olublar, yazıblar, yaradıblar. Ona görə də bizim ədəbiyyatımız daim yaşayacaqdır. Ayrı-ayrı dövrün çətinlikləri ədəbiyyatı heç vaxt nə söndürə, nə öldürə, nə də onu zəiflədə bilər...***

***Ən qədim dövrlərdən bizə gəlib çatmış, indi fəxr etdiyimiz ədəbiyyat əsərlərinin - Nizaminin, Nəsiminin, Füzulinin, Vaqifin, Mirzə Fətəli Axundovun, yaxud digərlərinin əsərlərinin heç birisi asanlıqla yaranmayıb. Heç də hamı bilmir ki, bu əsərlərin yaranması üçün onlar nə qədər zəhmət, əziyyət çəkiblər, nə qədər fədakarlıq göstəriblər".***

Mir Cəlal müəllimin bir çox əsərlərindəki qəhrəmanlarının ürəkdə danışıqları, daxili düşüncələri adətən oxucunu min-bir xəyallara aparır. Ümumiyyətlə, həmin dövrün roman dili bədii təfəkkürünün imkanlarını gerçəkləşdirmək gücünə malik olması ilə uğurlu sayılırdı.

Azərbaycan ədəbiyyatının regional çərçivələrinin miqyas və məzmun baxımdan genişlənməsi və dünyaya yayılması, bu yayılmanın elmi-nəzəri baxımdan tənzimləməsi kimi məsuliyyətli bir vəzifə, daha çox, bu sahəni tədqiq etmiş Mir Cəlal müəllim kimi alimlərin üzərinə düşmüşdü. XX yüzilliyin ikinci yarısından sonra bu sahədə böyük canlanma yaranmış və meydana çıxan problemlərin nəzəri və təcrübi məsələlərini diqqətlə izləyən, təkmilləşdirən və tədqiq edən alimlər zümrəsi meydana gəlmişdir.

Ədibin qələmindən çıxmış ədəbiyyat nümunələri aşkar nümayiş etdirir ki, yurd sevgisini, vətən müqəddəsliyini bədii dilə çevirmək, xalqın həyatının tale yüklü məsələlərini, xalq mənəviyyatının zənginliklərini tarixi-siyasi hadisələr fonunda

canlandırmaq baxımından onun yaradıcılığını yüksək dəyərlərlə qiymətləndirməyə layiqdir. Mir Cəlal müəllimin bədii-nəsr yaradıcılığında Vətən və xalqla bağlı bütün problemlərə tələbkar, həyəcanlı və qayğılı vətəndaş münasibəti əsas bədii forma üsuludur. Tariximizin qədimliyi, xalqımızın zəngin təkrarolunmaz mənəvi dünyası Mir Cəlal müəllimin əsas ilham mənbəyi, onu həyəcanlandıran, düşündürən bədii qayənin qaynağıdır.

**“Dirilən adam”, “Təzə şəhər”, “Yaşıdlarım”, “Yolumuz hayanadır”** romanlarının adları müstəqim məna daşımasa da, bu ifadələrin hər biri metaforik məna yükünə malikdir və müəllif mövqeyinin estetik təcəssümündə əhəmiyyətli rol oynayır. Məlumdur ki, ad əsərin məzmunun əhatə dairəsinin müəyyənləşməsinə, az da olsa təsir göstərir. Digər tərəfdən sənətkarcasına seçilmiş ad, xüsusən də bu ad metaforik məna yükünə malik olanda əsərin ideya-bədii keyfiyyətlərinin düzgün açılmasına bir işarə olur. Əslində metaforik səciyyə daşıyan ad əsərin bədii məzmununun ünvanıdır və bu mənada onun uğurlu seçilməsi ciddi əhəmiyyət daşıyır. Əlbəttə, adla məzmunun bir-birini tamamlaması, estetik bütövlük yaratması da vacibdir. Sərlövhəyə çıxarılan metafora üsluba da təsirsiz qalmır və inikasın xarakterinə ciddi təsir göstərir. Obrazların adında və xarakterində, həmçinin müəllifin və surətlərin dilində metaforikləşmə üslub xüsusiyyətinə çevrilir. **“Təzə şəhər”** romanı birbaşa yeni salınmış Sumqayıt şəhəri ilə bağlıdır və orada cərəyan edən bütün hadisələr şəhərin salnaməsi, Sumqayıtda aparılan quruculuq işləri, orada yeni həyatın yaradılması ilə və xüsusən də insanların çətin şəraitdə fəaliyyət göstərərək, bilavasitə fədakarlığından bəhs edir.

Tanınmış tənqidçi və ədəbiyyatşünas Əhəd Hüseynov Mir Cəlal müəllim haqqında yazır: *“- Mir Cəlalın ədəbi və ictimai fəaliyyəti geniş, çoxcəhətlidir; o, Azərbaycan sovet ədəbiyyatının banilərindən biridir, mahir ədəbiyyatşünasdır, qocaman pedaqoqdur. Elə yazıçı kimi də o, hansısa bir ədəbi janra müraciətlə məhdudlaşdırmırdı; lirik miniatürlərdən tutmuş irihəcmli romanlaracan müxtəlif formalarda yazıb-yaratmışdı. Odur ki, onun haqqında ədib, alim və müəllim kimi hərarətlə danışmaq mümkündür”.*

Görkəmli ədib Mir Cəlal müəllim də yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. O, Azərbaycan sovet ədəbiyyatı tarixində gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərlərinin müəllifi kimi tanınmışdır. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Yazıçı-tədqiqatçı Mir Cəlal müəllim Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Əbdürrəhman bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Səməd Vurğun kimi ədəbiyyatımızın görkəmli nümayəndələri ilə yanaşı Lev Tolstoy, Maksim Qorkiy, Mixail Şoloxov, Anton Çexov kimi böyük söz ustadları haqqında da qiymətli elmi əsərlər, məqalələr yazmışdır.

Böyük yazıçının ölməz əsərlərinin nəşri indi də davam edir. Bu, bir tərəfdən klassik irsə maraqdan irəli gəlirsə, digər tərəfdən müasir oxucuların Mir Cəlal müəllimin sənətinə mənəvi ehtiyacından doğur. Çünki Mir Cəlal müəllim bütün

nəsillər üçün təzə və təravətlidir. O hər bir dövrdə insanların mənəvi saflığına kömək etmiş, milli və mədəni tərəqqiyə mane olan nə varsa, onun aradan qaldırılmasında, silinib kənara atılmasında müəyyən dərəcə köməklik göstərmişdir.

***Elmi ədəbiyyat insanları nadanlıqdan,***
***bədii ədəbiyyat isə kobudluq və***
***bayağılıqdan xilas edir.***

***Deni Didro***

# Mir Cəlal müəllimin Füzuli yaradıcılığı

Mir Cəlal müəllim Azərbaycanın bir neçə görkəmli ədibin yaradıcılığına dair tədqiqat işi apararaq, Azərbaycan ictimai-fəlsəfi fikrinin SSRİ miqyasında elmi səviyyəyə qaldırılmasında ciddi işlər görmüşdü. Onun ədəbiyyatşünaslıqla bağlı olan araşdırmaları, fəlsəfi axtarışlarının, fəlsəfi-ictimai düşüncənin əsaslarına dair fikirlərinin bir qismi SSRİ kimi nəhəng məkanın elm mərkəzlərində, habelə bir neçə əcnəbi ölkələrin elmi nəşrlərində çap olunmuşdur.

Tanınmış yazıçı dahi Füzulinin bədii irsinin traktovkasını, yazdığı **"Füzuli sənətkarlığı"** adlı elmi əsərində vermişdir.

Mir Cəlal müəllimin, klassik Azərbaycan ədəbiyyatının, xüsusən də bənzərsiz poeziyasının görkəmli xadimlərindən biri Məhəmməd Füzulinin poeziyasını araşdırıb tədqiq etməsi, onun tərəfindən atılan ən cəsarətli addım sayılırdı. Çünki Füzuli şeirinə, Azərbaycan poeziyasına hər bir mənada əvəzsiz incilər bəxş edən sənətkardır. Əsrarəngiz çalarlarla bol olan böyük sənətkarın şeirini üzdən oxuyub aludə olmaq və ya dərk etmək heç də asan iş sayılmır.

Şübhə yox ki, elm və mədəniyyət vəhdət təşkil etməli və bu vəhdət bir istiqamətə - humanizmə xidmət etməlidir. Mir Cəlal müəllimin humanistliyi bütün ətrafdakılara bəlli idi və o, bu prinsip ilə həm məişətdə, həm də ictimai həyatda yaşayırdı. Cürbəcür janrlara müraciət edərək bədii yaradıcılıqla məşğul olan bir kəs istər-istəməz həmin sahənin bir çox sirlərinə yiyələnmək üçün elmi-tədqiqata əl atır. Bəli, Mir Cəlal müəllim məhsuldar bir insan olduğundan yaradıcılığın elmi ilə məşğul olaraq özünü həm pedaqoq, həm ədib, həm də alim kimi göstərmişdi. O, bir çox aktual problemlərin həll olunmasında yaxından iştirak etmiş və sosial-siyasi hadisələrə fəal müdaxilə etməyi bacarmış, parlaq analitik təfəkkürü, zəngin bədii və elmi dünyagörüşü ilə bir çox həmkarlarından fərqlənmişdi.

Məlumdur ki, Mir Cəlal müəllimin elmi və bədii yaradıcılığı geniş diapazona malikdir və o, müraciət etdiyi sahələrdə tamamilə yeni məntiqi, orijinal və inandırıcı baxışları olan böyük dilçi alimdir. Onun kimi sənətkar üçün mövzu problemi yox idi və onlarla əsərinə maraqlı, aktual mövzular tapan müəllif həyatdan götürülmüş hər hansı maraqlı situasiyanı, hadisəni bədiiləşdirmə qüdrətinə malik idi.

Mir Cəlal müəllim geniş diapazonlu elm və mədəniyyət xadimi olduğundan o, Füzuli yaradıcılığının tədqiqatına başlamamışdan əvvəl orta əsrlər ədəbiyyat ustasının bioqrafik tərcümeyi-halını, onun düşdüyü mühiti, həmin dövrdə cərəyan edən siyasi prosesləri və yaradıcılığa təsir etmiş fars, türk, ərəb mədəniyyətini öyrənmişdi. Məlumdur ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Süleyman oğlu Füzuli (1494-1556) İraqın Kərbəla şəhərində anadan olmuş və

orada yaşayıb yaratmışdır. Füzuli yaradıcılığını tədqiq etmək ona görə məsuliyyətli iş sayılırdı ki, o, Azərbaycan, fars və ərəb dillərində qəzəl, qəsidə, tərkibbənd, tərcibənd, rübai, qitə, mürəbbe və s. yazmışdır. **“Yeddi cam”**, **“Ənisül-qəlb”**, **“Səhhət və Mərəz”** əsərləri fəlsəfi məna kəsb etdiyindən, onun yaradıcılığını araşdıran tədqiqatçı ilk növbədə filosof olmalıdır. Füzulinin **“Leyli və Məcnun”** poeması isə dünya poeziyasının nadir incilərindəndir.

Mir Cəlal müəllimin tədqiqatlarında dahi şairin Azərbaycan dilində lirik şeirin ən gözəl nümunələrinin yazılmasına aydınlıq gətirilir. Füzuli humanist sənətkar kimi insan qəlbinin ən təbii, incə, ülvi hiss və həyəcanlarını yüksək bədii, obrazlı bir dil ilə ifadə etmişdir. O, alleqorik əsərlər də yazmışdır. Dahi şairin **“Şikayətnamə”** adlanan məktubu bədii nəsrin ilk uğurlu əsərlərindəndir. Füzulinin qədim yunan və Şərq fəlsəfəsi ilə tanış olması onun kamil insan olmasından xəbər verirdi.

Füzuli yaradıcılığına Azərbaycanın bir sıra elm xadimləri müraciət etmişdir. Lakin Mir Cəlal müəllimin sözün həqiqi mənasında fitri alim təfəkkürü, ədəbi faktlara, müasir estetik normativlərə tamam yeni, orijinal, məntiqi, inandırıcı baxışları olan, elmi fikir meydanlarında həqiqi biliyi, onun Füzulinin ədəbi portretini əsl ədəbiyyatşünas alim mövqeyi ilə peşəkar bir şəkildə hərtərəfli təsvir etmişdi. Füzuli yaradıcılığına müraciət etmək çox cəsarətli, həm də məsuliyyətli bir işdir və bu sahədə hər bir sənətkar həm tənqid, həm də alqış atəşinə tutula bilərdi. Mir Cəlal müəllim həqiqətən də həmin yolda tənqiddən çəkinməyərək cəsarətli addım atmışdı və o, **“Füzuli sənətkarlığı”** adlı kitabında estetik fikirləri empirik biliyə çevirmiş, bu fikirləri böyük

auditoriyaya çıxarmış, bununla da Füzuli fəlsəfəsinin bir çox sirlərinin açılmasına təkan vermişdi. Həmin dövrdə çoxsaylı söz sərrafları vardı ki, Füzulinin ədəbi-fəlsəfi, ədəbi-ictimai fütuhatına daxil olub tədqiqat işi aparsınlar. Mir Cəlal müəllim bu məsələdə yaranan fikirlərin mübahisə doğuracağından, öz konsepsiyalarına qarşı opponent tapacağından çəkinmir, çünki istənilən opponentə onun tutarlı arqumentləri, dialektik məntiqə əsaslanan elmi dəlil və sübutları hazır idi.

Ermənilərin kök saldığı bolşevik hakimiyyəti dövründə qədim tarixi-mədəni kökə malik olan İslam mədəniyyətinə hər zaman ləkə salmağa çalışan üzdəniraq sovet ölkəsində 450 il əvvəl yaşamış hansısa bir Azərbaycan şairi ətrafında dünya müstəvisinə qədər yüksələn tədqiqat işi aparmaq və Füzuli yaradıcılığını zirvələrə qaldırmaq Mir Cəlal müəllimin özünü təhlükə altına atmaq kimi bir şey sayılırdı. Amma o, Azərbaycanın ləyaqətli oğlu kimi Füzuli ədəbi dünyasını kölgədə qoyub susmaq fikrində olmamış, araşdırdığı tədqiqat işində həqiqəti sovet rejimi dövründə təkcə Azərbaycana və ya sovetlər ölkəsinə yox, bütövlükdə dünya xalqlarına çatdırmağı özünə mənəvi borc bilmişdir. Mir Cəlal müəllim Füzulinin ədəbi-ictimai portretindəki əsl həqiqəti açıqlamaqla öz xalqının cəfakeşi olduğunun və Azərbaycanın yaradıcı istedadlar ölkəsi olduğunu hamıya bəyan etmişdi.

Böyük bir mənəviyyat xəzinəsini xatırladan klassik Azərbaycan ədəbiyyatını və xüsusən də Füzuli poetikasını tədqiq, təhlil və tədris etmək peşəkar səviyyədə söz qüdrətinə malik olan aqil insanın şərafətli işi sayılır. Füzulinin fəlsəfi-yaradıcılığından bəhs edən Mir Cəlal müəllim təkcə Füzulinin

şairliyindən yox, həm də onun fəlsəfə ustadı olmasından xəbər verirdi.

Mir Cəlal müəllim dahi Füzuli bədii səviyyəsinin poetik kamilliyini əvvəldən axıradək mükəmməl surətdə qorunmasına çalışmışdır. O, heç bir halda bədii səviyyəni unudub, poetik natamamlığa, yarımçılığa, poetik strukturun hər hansı səviyyəsinin naqisliyinə yol verməmişdir. Öz işində məsuliyyətli, özünə qarşı tələbkar olan, yaradıcılığında qüsur buraxmaq istəməyən Mir Cəlal müəllim böyük istedad olduğunu əsərləri ilə sübuta yetirmişdi və araşdırdığı tədqiqat işində hər hansı bir süjetin bədii tamlığını qorumaq onun üçün çətin iş deyildi.

Mir Cəlal müəllimin Füzuli fenomeninə münasibəti birmənalı olmuşdur. Azərbaycanlıların milli iftixarı olan, məhəbbət dastanının və fəlsəfi-poetik düşüncənin böyük ustadı kimi dünya poeziyasının korifeylərindən biri sayılan dahi Füzulinin cisminə Allah vergisi verilmişdi. Allahın ona bəxş etdiyi poetik düha, bədii istedad nəticəsində o, poeziyanın apogeyinə çatmışdı**. "Füzuli sənətkarlığı"** kitabın probleminə gəldikdə o, kifayət qədər mürəkkəb məsələni əhatə edir və Mir Cəlal müəllim bu işdə bizə böyük yardımçı olur.

"Füzuli zirvəsindən bəhs edən ədəbiyyatşünas mövqeyində ədib, təkcə Azərbaycan ədəbiyyatının Füzuli problemindən söz açmır. Bədii ədəbiyyatın bir sıra sənətkarlıq problemlərindən, eyni zamanda, bədii-estetik mövqeyindən xeyli araşdırmalar üzə çıxarır. Füzuli yaradıcılığını ümumdünya ədəbiyyatı mövqeyindən izah edən ədib qələmə aldığı mövzunu hərtərəfli süzgəcdən keçirir. Bu əsərdə biz Şərq ədəbi düşüncəsinin, həm də müasir Qərb ədəbi fikrinin

qarşılıqlı metodoloji prinsiplərinin məntiqə uyğun təsvirinə rast gəlirik.

Biz burada Füzuli ədəbi sənətkarlığı mövqeyindən təhlil etdiyi bədii fikirlərində əsl bir ədəbiyyatşünas alimin məsləhətlərinin şahidi oluruq. Doğrudan da, Mir Cəlal müəllim kimi ədiblərin söz çeşməsi heç bir zaman öz mövqeyini itirmir, dövrdən-dövrə keçdikcə ekstaz səviyyəsini daha da artırır, uğur qazanır".

***Bilikli adamlar yer üzünün işıqlarıdır, peyğəmbərlərin xələfləridir, mənim varislərimdir, peyğəmbərin varisidir.***
***Məhəmməd Peyğəmbər (s. ə.)***

# Mir Cəlal müəllim bir psixoloq kimi

Mir Cəlal Paşayev filologiya elmi ilə dərindən məşğul olmasına baxmayaraq, paralel olaraq psixologiya elminə də yiyələnməyə can atmışdı ki, insanların, xüsusən də məzlum insanların xarakterinə bələd olsun. Məhz bunun sayəsində o, da çox yaxşı anlayırdı ki, insanın fiziki simasının elementləri çox olduğundan burada ehtiyatlı olmaq lazımdır. Qarşısındakı bəndənin hissiyyatına toxunmamaqdan ötrü ürəyi kövrək ədib onlarla daha səmimi olur və davranışında, ünsiyyətində nəcabətliyə üstünlük vermişdir. Başqa adamı qavrayanda Mir Cəlal müəllimi təkcə onun zahiri görkəmi deyil, bəlkə də ilk növbədə, daxili aləmi, mənəvi keyfiyyətləri daha çox maraqlandırmışdır.

Görkəmli pedaqoq vəzifəsi ilə bağlı olaraq öz peşəkar borcunu yerinə yetirməklə kifayətlənməmiş, həm də təmiz, aludəli, qabiliyyətli, mərifətli, dərrakəli hərəkətləri ilə təhsilin qayda-qanunlarını, maarifin prinsiplərini Azərbaycanın ən nüfuzlu təhsil ocağında tətbiq edərək, həm həmkarları, həm də tələbələri arasında böyük hüsn-rəğbətə malik olmuşdur.

Müqəddəs vəzifəyə şüurlu vətəndaş münasibəti, təhsilə olan qayğısı Mir Cəlal müəllimin bu nəcib, alicənab, əsl ziyalı keyfiyyəti Paşayev nəslinin ümumi təlim-tərbiyəsi ilə bağlıdır. Tələbələrin müstəqil yaradıcılıq qabiliyyəti, kitabla həyat təcrübəsinin əlaqəsi, məktəbə, tədrisə, maarifə, elmə məhəbbət onun həyatında mühüm yer tutmuşdur. Bunlardan əlavə Mir Cəlal müəllim tələbələrin xarici aləm haqqında təsəvvür və məlumatını genişləndirməyi, sənətə, peşəyə, ixtisasa dərin rəğbət oyatmağı qarşısına bir məqsəd qoymuşdur.

İnsan xarakteri təzadlardan ibarət olduğundan bir növ onları ilk baxışdan oxumaq mürəkkəb bir prosesdir. Mir Cəlal müəllim bütün təbəqələrə mənsub olan, cürbəcür sahələrdə xidmət göstərən insanlarla mütəmadi olaraq ünsiyyət yaratmış və o, uzunmüddətli rabitə əlaqəsi yaratmaq üçün öz xarakterinə uyğun insanlar seçmişdir.

Mir Cəlal müəllim öz nəslinə mənsub olan ən gözəl xüsusiyyətlərdən birini öz xarakterində cəmləşdirərək, insanlar arasında yaranan dialoq nəticəsində liberal prinsiplərə üstünlük vermişdir. Əlbəttə, ünsiyyət insanların bir-birini qavramasından başlanır. Mir Cəlal müəllim insanlarla söhbət edərkən ilk növbədə həmsöhbətini səmimi olmağa çağırır və hər hansı bir mövzunun aktual olmasını xoşlayırdı. Adəti üzrə o, inandığı, etibar etdiyi adamdan heç nə gizlətməmiş, özündə olan düşündürücü fikirləri, xüsusən də sirlərini ona açıqlayardı. Səmimiyyət ürəkaçıqlığın, xeyirxahlığın açarıdır. Lakin bir çox insanlar çox vaxt bu məqamda bir-birini düzgün qavramır, özlərinin davranış motivlərini birtərəfli anlayır, əsaslı bir səbəb olmadan yadlaşır, bir-birindən ayrı düşür, incik gəzir, aylarla-illərlə küsürlər və

sairə. Mir Cəlal müəllim isə insan xarakterində olan bütün bu təzadlara baxmayaraq, liberal insan olduğundan hamı ilə kompromisə getmiş və humanistliyi ilə hamını sakitliyə, loyal yola dəvət etmişdir. Hətta ətrafında olan dost-tanışlarından kimsə küsəndə, o həmin adamları barışdırmağa çalışarmış. O, adamların bir-birilərini qavrayanda ən çox hansı xüsusiyyətlərə daha çox diqqət yetirdiyini aydınca sezirmiş.

Fiziki cisimlərdən fərqli olaraq insanın qavranılması mürəkkəb xüsusiyyətlərlə səciyyələnir. Zahiri görünüşə baxıb, insanın daxili aləmini dərk etməkdə çətinlik çəkməyən Mir Cəlal müəllim sanki bir psixoloq kimi ünsiyyətdə olduğu insanın xarakterinə bələd olmuş, həyatda düzgün istiqamət götürməkdə həmin şəxsə kömək əlini uzatmışdır. Burada o, ağıllı məsləhətlərindən qayğıkeş nəvazişindən istifadə etmişdir.

Zəngin ünsiyyət təcrübəsi olan Mir Cəlal müəllim həqiqətən də çox vaxt rastlaşdığı adamlara praktik psixoloq kimi həssaslıqla yanaşmış, onların müsbət və mənfi keyfiyyətlərini nisbətən asanlıqla sezirmiş. Bundan başqa o, müntəzəm surətdə bədii ədəbiyyat mütaliə etdiyi üçün başqa adamları daha yaxşı başa düşürmüş. Bu baxımdan psixoloji biliklərin əhəmiyyətini də ayrıca qeyd etmək lazımdır.

Mir Cəlal müəllim psixoloji biliklərə ətraflı yiyələndiyindən müxtəlif həyat şəraitində rastlaşdığı adamları daha yaxşı tanımış, onları düzgün anlaya bilmişdir. Bir psixoloq kimi o, hər hansı bir insanın zahiri xüsusiyyətlərinə görə (əsasən necə geyinib-keçinməsindən, özünü necə aparmasından) onun içüzünü, daxili aləmini bir növ oxumağa çalışmışı. Rastlaşdığı adamın vəfalı olub-olmadığını, səmimi, yoxsa yalançı, sədaqətli, yoxsa sədaqətsiz, etibarlı, yoxsa

etibarsız, olduğunu müəyyən etmək onun üçün mürəkkəb iş sayılmırmış. Çünki o, qavradığı, ünsiyyət bağladığı adamı düzgün anlamağı və dərk etməyi bacarırmış. Ümumən səxavətli insanlar, xüsusən də xeyirxahlıq hissi onlarda irsi gen daşıdığından, kin-küdurətdən uzaq olur, daim başqaları ilə xoş rəftar etməyi özlərinə borc bilirlər. Elə Mir Cəlal müəllim də insanlara yalnız yaxşılıq etməyi, ahıl insanları sevindirməyi, kimsəsizlərə əl tutmağı özünün müqəddəs amalı hesab edirmiş.

Mir Cəlal müəllim səmimi insan olduğundan ünsiyyət zamanı həmsöhbəti ilə səmimi söhbət apardı ki, arada qaranlıq məqamlar yaranmasın. Alman yazıçısı və tərcüməçisi Fridrix Bodenştedt yaxşı deyibdir: *"Hamı yaxşı bilir ki, bir saatlıq səmimi ünsiyyət insanları onillik adi münasibətlərdən daha çox yaxınlaşdırır"*. Elə bu təvazökar və səxavətli Azərbaycan ziyalısı da həqiqəti aşılamaqdan ötrü həmin prinsipə üstünlük verir.

Müstəqil inkişaf yoluna qədəm qoymuş hər bir ölkənin xalqı başa düşməlidir ki, hər bir cəmiyyət yalnız özünün mənəviyyatı əsasında inkişaf edə bilər. Bu heç də o demək deyildir ki, insan dar millətçilik və bəşəriyyətin digər mədəni nailiyyətlərinin inkarı çərçivəsində tərbiyə edilməlidir. Mir Cəlal müəllim öz xalqını, öz Vətənini sevsə də bu məsələyə millətçilik mövqeyindən yanaşmamışdır. Gözəl erudisiyaya malik olan bu xeyirxah insan millətçilikdən çox tolerantlığa arxalanmış və aludəliklə dərk etmişdir ki, bəşəriyyətin xilası xalqlar arasında yaranmış inzibati sərhədlər yox, onların bir məkanda vahid şəkildə birləşməsindədir. Dillər, mədəniyyətlər, adət-ənənələr ayrı olsa da, bütün insanlar emansipasiya (bərabərlik) yaradaraq, cahan adlı bir tavan

altında yaşamalıdırlar. Belə olan təqdirdə bütün naqisliklər ortadan çıxıb yox olacaq, bəşəriyyət isə əsrlər boyu itirdiyi səadəti əldə edəcək.

Professor Mir Cəlal müəllim kamil insan kimi fəzilətinə arxayınlaşaraq yaratmaqla məşğul olmuşdur. O, cahil insanların bəd əməllərinə qarşı özünün saleh əməlləri ilə baryer çəkmiş və onların sönük həyatlarının mənasız olduğunu sübuta yetirmişdir.

Neqativ halların aradan qaldırılması, nadanları düz yola gətirmək üçün Mir Cəlal müəllim özünün parlaq zəkasından istifadə etmişdir. Məhz belə üsyankar hərəkətlərdən sonra meydana belə bir sual çıxır: “Dünyada zəka qalib gələcəkmi?” Əlbəttə ki, özlüyündə zəka məhdud ola bilər. Ümumilikdə zəka heç kimə və heç nəyə qalib gəlməli deyil, o, sadəcə olaraq vahid nəzərlə mədəniyyətləri də, dünyanı da, insanın özünü də əhatə etməlidir. Mir Cəlal müəllimin əməllərinə görə zəka bəşəriləşməli, mənəviyyat, əxlaq, Yerdə həyatın hər bir təzahürünün əvəzsiz sərvət olması ideyasını dərk etməlidir. Dünyada hər hansı bir haqsızlığa qarşı qalib gəlmək təkcə öz həyatını qoruyub saxlamaq demək deyildir.

Təbiətində yaranan humanizmə görə Mir Cəlal müəllim özü haqda yaranan fikirlərlə məhdudlaşmamış, təbiəti, insanın dünyadakı yerini, insan dünya arasında itirilmiş harmoniyanı bərpa etməyə yönəlmiş yeni dünyagörüşünü qəbul etməyə çalışmışdır. Onun fikrincə “qalib gəlməyə” can atan zəkanın vəzifəsi insanın yalnız özünə bel bağlamalı olduğunu anlatmaqdır. Çünki bu planetdə yeganə zəkalı, şüurlu məxluq yalnız insanın özüdür. Mir Cəlal müəllimin sağlığında ikən cismani rahatlığı, aləmdə gəzən ruhunun istirahəti özünün gün ərzində təmasda olduğu insanlarla xoş rəftardan sonra baş

vermiş və təbii olaraq başqalarının gözü qarşısında səxavət etalonuna çevrilmişdir.

Orta əsrlərdə İslamın hökm sürdüyü müsəlman ölkələrində bütöv bir fəlsəfi dünyagörüşü səciyyəli sufizm cərəyanı yaranmışdır. Məlumdur ki, onun nümayəndələri Azərbaycan ərazisində də fəaliyyət göstərmişdilər. Sufizmə görə insan yalnız ilk səbəb olan, həqiqəti ürəkdən yox, zəkadan gizlədən Allaha qovuşmaqla aləmi dərk edə, onun hüdudlarından kənara çıxa bilər. Buna görə də insan elmi, rasional idraka çox da ümid bəsləməməlidir, çünki ali həqiqətlər maddi aləmin pərdəsi altında gizlənmiş və mənəvi xarakter daşıyır.

Ateizmin hökm sürdüyü bir ölkədə yaşamasına baxmayaraq Mir Cəlal müəllim İslam dünyasının sakini kimi gizli olsa da, fəaliyyəti zamanı İslam meyarlarına üstünlük vermiş, Dördüncü İmam Zeynalabdinin nəslinin nümayəndəsi olaraq, Allahın varlığını qəbul etməklə və Allahın sonsuz vücuduna daxil olmaqla aləmi dərk etmişdir, lakin onun hüdudlarından kənara çıxa bilməmişdir. Hər şeyin müsbət həll olunması üçün o, özünün zəkasından maksimum dərəcədə istifadə etmiş və bu müqəddəs yola başqalarını da dəvət etmişdir. Əlbəttə bunun üçün insan mütləq kamil səviyyədə olmalıdır. Mir Cəlal müəllimin cismində hökm sürən yumşaq xarakterinə görə o, insanlarla gözəl davranmış, xoş ünsiyyət yaratmış, mülayim rəftar etmiş, gülərüzlə görüşlər keçirmişdir. O, xudbin insanlarla dialoq yaratmaqdan çəkinməmiş, əksinə özü həmin adamlarla dialoq yaradaraq onlara həyatın mənasını izah etmişdir.

Bir sıra alimlər "iradə, öyrətmə, aşılama, tərbiyəetmə, inandırma, məcburetmə, siyasət, şəriət, təlqin, təhsin kimi

qüvvələri inkar edir, insan növünün tərbiyə qəbuletmə, öyrənmə qabiliyyətinə inanmırlar". Guya hər kəs öz təbiətinin hökmü tələb etdiyi kimi davranır, sövq-təbii olaraq öz növünün inkişafını, nəslin davamını təmin edib işləri nizama salır, maneələri aradan qaldırır. Bu hökmün nə qədər yanlış və puç olduğu çox aydın görünür.

Əlbəttə ki, xasiyyət fitri ola bilməz. Hər insanın, xüsusən gənclərin, öz məcazına uyğun həyalılıq, sırtıqlıq, əliaçıqlıq, xəsislik, rəhmdillik və s. hallarda təzahür edir. Ona görə də bəziləri xeyirxah, bəziləri isə bədxah olur. Davranış əxlaqın göstəricisidir. Heç bir surət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət başqa xasiyyətə oxşamaz. Ona görə tərbiyə və təlimdə ehmallıq göstərilsə, hər kəsin cilovu öz təbiətinin ixtiyarına verilsə, o, bütün ömrü boyu hansı xasiyyətdə doğulmuşdusa, elə də qalar. Paşayevlər ailəsində doğulan insanların tam əksəriyyəti xasiyyət baxımdan eynidir. Valideyn qismində olan tərbiyəçilər təmiz əqidəli, vətənpərvər ruhlu, düzgün fikirli olduğundan övladlar onlardan hikmət öyrənib tədricən kamillik dərəcəsinə yiyələnirlər. Buna bariz nümunə Mir Cəlal müəllimin və Püstə xanımın övladlarının aldıqları ziyalı tərbiyəsidir.

***Öz sənətinə hörmətlə yanaşan yazıçı hadisələri gördüyü kimi qələmə almalı, öz subyektiv hisslərini bir kənara ataraq, həqiqəti yazmalıdır.***
***Qustav Flober***

## Ədibin əsərlərindəki vətənpərvərlik ideyası

Mir Cəlal müəllim kimi taleyini elmə, bədii nəsrə bağlayan adamların müqəddəs bir yolun yolçusu olduğunu tarix sübut etmişdir. Bəşəriyyətə, xalqa gərək olan elmi araşdırmalar insanın özünə də şərəf və şöhrət gətirir. Xalqın tarixini, klassik və müasir ədəbiyyatını öyrənmək və onun başqa xalqlarla əlaqəsini tədqiq etmək də xalqın özünü və görkəmli simalarını dünyaya tanıdır, onun şöhrətini daha da artırır.

Çar II Nikolay hakimiyyətdən devriləndən sonra, həmin olaylar zamanı yaranan mübarizə yaradıcı insanları hərarətlə qarşıladıqları mühüm siyasi hadisələrdən idi. Sovetlər ölkəsi elan olunandan sonra milli ədəbi-bədii fikri məşğul edən, istər realist, istərsə romantik ədəbiyyatda geniş əksini tapan mövzulardan olmuşdur. Həmin inqilabın yüksəliş mərhələsinə dair silsilə əsərlər həsr edilmişdir. Yazılan əsərlərin ideya məzmununda iki cəhət - həm döyüşə, mübarizəyə çağırış pafosu, fədailərin mərdlik və qəhrəmanlığının vəsfi, həm də hakim təbəqələrin tənqidi əsas yer tutur.

Ulu Tanrı tərəfindən yaradılan təbii gözəlliyə məftun olan, həmin gözəllikdən bəhrələnən insanların əməli hərəkə-

tinə heyran qalan, xeyirlə şər arasında gedən mübarizədə qalib çıxan fədakar qəhrəmanlara həsəd aparan, öz çirkin əməlləri ilə ədaləti tapdalayan, sosial tarazlığı pozan ünsürlərə qarşı nifrətini gizlətməyən, xalqımızın tarixin lay-lay qatından çıxarıb yüzilliklər boyu gətirdiyi adət-ənənənin vurğunu olan Mir Cəlal müəllim bütün bu əlvanlığı əsərlərində həkk etdirərək, indiki nəslə ərməğan edibdir.

**“Azad qız”** (1930), **“Almas gəldi”** (1931), **“İşıqlı yollarda”** (1932), **“Marksın dostu”** (1932), **“Analar yarışı”** (1933) kimi oçerklərdəki qəhrəmanlar inqilabdan sonrakı dövrdə yeni həyatı quran insanlar idi. Ədib gündəlik həyatın verdiyi materiallar əsasında yazdığı bədii oçerklərində ailə məsələsi ilə bağlı olaraq qadın azadlığı probleminə də toxunmuşdur. O, **“Sara”, “Dəzgah qızı”, “Hikmətdən xəbər”, “Badamın ləzzəti”** kimi hekayələrində yeniliyin, sosializm cəmiyyətinin insan psixologiyasına tərbiyəvi təsirini göstərmişdir. Tədqiqatçıların təbirincə desək, həmin hekayələrdə Azərbaycan qadınlarının inqilabdan əvvəlki hüquqsuz vəziyyəti geniş təsvir olunmuşdur.

Tədqiqatçı Əhəd Hüseynov yazır: ”Cəmiyyət üçün xeyirli vətəndaş olmaq məsələsini Mir Cəlal ailə və məktəbin qarşılıqlı əlaqəsinə həsr etdiyi hekayələrdə də əsas mövzu kimi işləmişdir. Yazıçının qənaətinə görə, gəncliyin həyatda müstəqil, səmərəli və qüsursuz fəaliyyət göstərməsi üçün ailənin mənəvi nüfuzu, istiqamətverici rolu əsasdır və təlim-tərbiyə ocaqları qədər o da məsuliyyət daşıyır”.

**“Oğul”** (1945), **“Əsgər oğlu”** (1953), **“Nazik mətləb”** (1958) hekayələrində təsvir olunan ziyalılar sağlam ailə tərbiyəsi gördüklərindən bütün istedad və qabiliyyətlərini cəmiyyət üçün səfərbərliyə almağa hazırdırlar. İşgüzar həkimi

də **("Oğul"),** təmiz məslək eşqilə kəndə gələn müəllimi də **("Nazik mətləb"),** elmə həvəskar tələbəni də **("Əsgər oğlu")** düşündürən, birinci növbədə ictimai borcdur. Həkim ata kölgəsində sığınmamağa, müstəqil hərəkət etməyə çalışır, gənc müəllim kəndə "odlu bir həvəslə" gəlir. İstedadlı tələbə də elmin əsaslarına yiyələnmək əzmindədir. Onların hər üçü öz ixtisaslarını sevir, elmə, maarifə, sonsuz həvəs göstərir, işə can yandırırlar. Xalqın etimadı onları həvəsləndirən əsas amildir.

Cəmiyyətdə baş verən prosesləri zərgər dəqiqliyi ilə, təbəqələr arasındakı yaranan qayda-qanun, sosial-məişət zəmində yaranan təzadlar Mir Cəlal müəllimin ərsəyə gətirdiyi hekayələrdə öz əksini tapıbdır. O, müəllim adının fəxrlə, iftixarla, qürurla daşıyan insanların **"Tamaşa"** və **"İftixar"** (1948), bunun əksi olaraq müəllimin ümumən öz ixtisasına və xüsusən şagirdlərin təliminə münasibətinin tənqidi, məktəb direktorunun öz peşəsinə qeyri-ciddi yanaşması, yoxsulların istedadlı olduğunu inkar edən burjua təliminə əsaslanan, yoxsullara həqarətlə yanaşarkən, hər kəndli balasının ən səmimi hərəkətində belə bir fənalıq axtararkən öz sinfi təbiətini büruzə verən müəllimləri **"Yanlış barmaqlar", "Mirzə" və "Qəmbərqulu",** cəmiyyət üçün əsl vətəndaş olmaq, xalqın gündən-günə artan mədəni tələblərini ödəmək, yaradıcı xəyallar bəsləmək kimi məsələlər **"Ömrün mənası", "Ləyaqət", "Qəbul imtahanı", "Naxış", "Təsadüf və zərurət",** mədəniyyətdən uzaq olan , milli adət-ənənələrə biganə qalan valideynlərin xoşagəlməyən, qüsurlu, zərərli rəftarından bəhs edən **"Letun"** (1933), **"Ulduz"** (1954) və **"Plovdan sonra"** (1955) hekayələrini oxuculara təqdim etmişdir.

Mir Cəlal müəllimin əsərlərinin yaradıcılıq problemlərini təkcə bu deyilən cəhətlərlə məhdudlaşdırmaq olmazdı. Maarif və məktəbin təbliği, gənc nəslin təlim-tərbiyəsi, qadın əsarətinə qarşı mübarizə, təmiz insani hisslərin, saf məhəbbətin tərənnümü də həmin əsərlərdə əlvan lirik-estetik boyalarla dönə-dönə işlənən, təsvir-tərənnüm, yaxud tənqid olunan ideya motivlərindəndir.

Rusiyadakı 1917-ci il sosialist inqilabi nəticəsində yeni yaradılan dövlət fəhlə və kəndlilərin hakim olduğu dövlət sayılır və gələcəyin nurlu olmasına hamıda böyük inam var idi. Çarizmin törətdiyi fəsadlar milli respublikalarda daha qabarıq şəkildə özünü büruzə verirdi. Xalqlar və millətlər çarizm despotundan qurtulmuşdur. Həmin inqilab nəinki tənqidi realistlərin, romantiklərin də yaradıcılıq təkamülündə dönüş nöqtəsi yaratdı. Bu vaxtdan etibarən romantik nəsrin lirik qəhrəmanı öz taleyini bütünlüklə mənsub olduğu xalqın, doğma vətənin taleyi ilə bağladı. Vətən məhəbbətinin, milli-azadlıq mübarizəsinin tərənnümü, ictimai-milli zülmün, müstəmləkə əsarətinin tənqidi, parlaq gələcək arzusu, beynəlmiləlçilik, millətlərin qardaşlığı ideyalarının tərənnümü, tərəqqiyə çağırış, elm və maarifin təbliği Mir Cəlal müəllimin və digər romantiklərin tərənnüm etdikləri əsas ideya motivləri oldu.

Lirik-romantik nəsrin və poeziyanın da mövzu dairəsi genişdir. Mir Cəlal müəllim və onun bəzi qələm dostları bu mövzunun sosial-fəlsəfi, əxlaqi-tərbiyəvi və lirik aşiqanə cəhətlərini ön plana çəkmişdilər. Humanizm və vətənpərvərlik, azadlıq, bərabərlik və millətlərin qardaşlığı ideyaları ilə bərabər, maarifpərvərlik qayəsi, aşiqanə-

məhəbbət motivləri də Mir Cəlal müəllimin yaradıcılığında mühüm yer tutur.

Vətənə məhəbbət ideyası romantik əsərin ruhunu, canını təşkil edir. Doğma Vətəni sevməyi, ona əsl övlad məhəbbəti ilə xidmət etməyi romantik əsərin lirik qəhrəmanı özünün yüksək idealı, müqəddəs borcu hesab edir.

Vətənə məhəbbət pafosu ilə aşılanmış lirik-epik roman, povest və hekayələr Azərbaycan romantiklərinin yaradıcılığında ayrıca silsilə təşkil edirdi. Vətənin tarixi keçmişi, müstəmləkə şəraitindəki ağır, dözülməz vəziyyəti, onun işıqlı sabahına inam, vətən övladının ətalət və cəhaləti lirik qəhrəmanın zehnini məşğul edən problemlərdir.

Vətən sevgisi romantik sənətkar olan Mir Cəlal müəllimin ərsəyə gətirdiyi **"Bir gəncin manifesti"** romanında və müharibə mövzusu ilə bağlı olan hekayələrində özünəməxsus səciyyəvi, təbii və rəngarəng boyalarla vəsf edildiyindən, onun bədii təsvir və tərənnüm üsulları da bir-birindən seçilir. Vətən məhəbbəti ideyasının onun hekayələrindəki ifadə şəkillərinin timsalında bu əlvanlığı, rəngarəngliyi aydın görmək olur. İncəlik, gözəllik, zəriflik vurğunu olan Mir Cəlal müəllim ana yurdun zəngin təbiətini, gözəl adət-ənənələrini, əxlaq nümunələrini vəsf edəndə, oxucunun nəzərində doğma diyarı odlu məhəbbətlə sevən, xalqın mənəviyyatına səcdə edən, əxlaq davranışına və insanlardakı estetik gözəlliyə heyran olan, saf, səmimi, Vətən məhəbbətini tərənnüm edən əməlpərvər, sülhpərvər, vətənpərvər nasir kimi canlanır.

Romantik əsərin lirik qəhrəmanın nəzərində Vətən ən müqəddəs anlayışdır - anadır. Ana məhəbbəti ilə Vətən sevgisi bir-birindən ayrılmazdır. Lirik və epik qəhrəmanın

vətəni Azərbaycan isə dünyanın gözəl, torpağı münbit, sərvəti bol, təbiətcə zəngin ölkələrindən biridir. Mir Cəlal müəllim söz sənətkarı kimi bütün bu gözəllikləri qəhrəmanlarının vasitəsilə öz əsərlərində tərənnüm etmiş və oxucuda elə təəssürat yaranır ki, Azərbaycan təbiətinə görə dünyanın ən məftunedici guşələri sırasındadır. Romantik sənətkar doğma yurdun zəngin təbii sərvətlərini, insanı riqqətə gətirən sıldırım qayalarını, keçilməz meşələrini, heyranedici düzənliklərini, gen tarlalarını, şəfaverici sərin bulaqlarını, bağlı-bəhərli məskənlərini coşqun ilhamla təsvir və tərənnüm edir.

Mir Cəlal müəllimin yaratdığı müxtəlif əsərlərdəki romantik qəhrəman Vətənin müqəddəsliyini uca tutan, ədalət və şəxsi azadlığı uğrunda mübariz, bərabərliyə və sosial tarazlığa üstünlük verən, Vətən yolunda, xalq yolunda canından keçməyə hazır olan fəal ziyalı, vətəndaşdır, öz məsləkində, yolunda möhkəm və mətanətlidir.

Elə ali təhsil ocağında elm öyrənərkən, Mir Cəlal müəllim auditoriyaya toplaşan tələbələrə izah edərdi ki, Vətən yolunda çalışmaq hər bir vətəndaşın müqəddəs borcudur. Azərbaycanın isə zəngin təbii ehtiyatları ilə birlikdə ən varlı, abad ölkələr sırasında olacağına hamıda böyük inam yaranmalıdır.

XX əsr Azərbaycan romantikləri “peyzaj lirikasının yaradıcıları” hesab edilirlər. Erkən yazılarına görə Mir Cəlal müəllimi də həmin ədiblər sırasına daxil etmək olar. Romantik ədib üçün təbiət təsviri özlüyündə bəlkə də məqsəd deyildi, müəyyən sosial-siyasi problemin, konkret ədəbi-estetik vəzifənin həllinə xidmət edən vasitələrdən biri idi. Mir Cəlal müəllim Azərbaycan təbiətinin gözəlliyinə aşiq idi və bu məhəbbət onun həmin möhtəşəm gözəlliyi vizual

seyrindən və cürbəcür ədəbiyyatların, o cümlədən valehedici şeirlərin oxunuşundan sonra yaranmışdır.

Abbas Səhhət Azərbaycan təbiətinin ilhamlı tərənnümçüsü, bədii sözün qüdrəti ilə unudulmaz poetik lövhələr çəkən şair kimi məşhurdur. Mühüm sosial-siyasi ideyaları, estetik-əxlaqi fikirləri təbiətin təsviri fonunda əks etdirmək Abbas Səhhətin romantik şeir üslubunda nəzərə çarpan xüsusiyyətlərdəndir. Elə Mir Cəlal müəllim də təbii gözəlliyin vurğunu kimi həmin şeirlərdən qidalanaraq ilhama gəlmişdir.

Sovetlər ölkəsində milli respublikalarda yazıb yaratmış görkəmli ədiblərin, o cümlədən klassik korifeylərin əsərləri başqa dillərə tərcümə edilərək, xalqlar arasında mənəviyyat körpüsünü yaratmışdır. Mir Cəlal müəllimin bir neçə əsərləri rus və başqa dillərə tərcümə edilmiş və onunla qiyabi tanışlıq baş vermişdir. Ədəbi əlaqələrin inkişafı yalnız milli-etnik düşüncənin nailiyyətlərinin deyil, həm də dünyəvi-tarixi mədəni inteqrasiyaların ardıcıl bir proses olduğunu göstərir.

Ədəbi əlaqələrimizin layiqli və nüfuzlu tədqiqatçılarından biri kimi professor Mir Cəlal müəllimin da bu sahədəki xidmətləri çox böyük və əvəzsizdir. Tələbəlik və gənclik illərindən ədəbi prosesin belə mühüm sahəsinə maraq göstərməsi sonradan onu konkret elmi araşdırmalara sövq etmişdir. Elmi yaradıcılığının ilk illərində Azərbaycan ədəbiyyatının rus, belorus, ukrayna əlaqələrinə diqqət göstərməsi maraqlı və aktual məsələləri ortaya çıxarmışdı.

Mir Cəlal müəllim bir yazıçı kimi o dövrdə buraxılan **“Literaturnıy Azerbaydjan”** jurnalının redaksiya kollegiyasına daxil idi. Hər ay redaksiyadan ona, rəy üçün gənc yazıçıların əsərləri göndərilərdi. Maraqlı cəhət odur ki,

ədəbiyyata böyük maraq göstərən Arif Paşayev atasına göndərilən şeirləri, povestləri, hekayələri oxuyur və öz təəssüratlarını Mir Cəlal müəllim ilə bölüşdürürdü. İş ondadır ki, tanınmış yazıçı ona göndərilən əsərlər üçün resenziya yazarkən oğlunun qeydləri ilə hesablaşardı. Mir Cəlal müəllim ailəsi ilə birlikdə teatra gedib hər hansısa bir tamaşaya baxarkən, oğlu Arif ilə həmin tamaşaya dair mütəxəssis kimi fikir mübadiləsi apararaq, çatışan və çatışmayan cəhətləri üzə çıxarardı. Yazıçı-professorun mədəniyyət, incəsənət, ədəbiyyat barəsində bilərəkdən açdığı söhbətlər sayəsində, övladlarının həmin sahələrə dair maraqlarının artırılmasına böyük səy göstərməyə çalışmışdı.

Mir Cəlal müəllimin klassik Azərbaycan ədəbiyyatına bağlığı, tariximizi, ədəbiyyat və dilimizi sevən, folklorumuzu bütün kuluarlarda təbliğ edən, incəsənətimizin vurğunu olan vətənpərvər ziyalı idi. Sovetlər məkanında qələm sahiblərinin məfkurəsi sayılan **"Literaturnıy Azerbaydjan"** kimi son dərəcə ciddi, məsuliyyətli, ziyalı kontingenti tərəfindən mikroskop nəzarəti altında saxlanılan jurnalda kollegiya üzvü kimi işləməsi, respublikanın görkəmli elm xadimlərini, pedaqoq-alimlərini, öz fənninin mahir bilicilərini, yazıçı və şairlərini həmin orqanda birləşdirmiş və onların arasında körpü rolunu oynamışdır. Məhz onun sayəsində həmin jurnalın yerləşdiyi redaksiyanın qapıları kimliyindən asılı olmayaraq, hər bir yaradıcı insanın üzünə açıq olmuşdu.

***Ağıllı və ədalətli satira həmişə və hər yerdə qanundan güclüdür.***
***Bernard Şou***

## Mir Cəlal müəllim satira ilə

Görkəmli sənətkarın satirik janrda yazdığı əsərlərdə yaratdığı rəngarəng obrazlarının əksəriyyəti oxucuları sadəcə güldürmək istəmir, lakin oradakı ironiya, istehza, giley-güzar, obrazların təbii davranışları mənalı, ibrətamiz, intibah xarakterli gülüşlə müşayiət olunur. Cəmiyyət arasında cücərən nöqsanlara biganə qalmaq istəməyən Mir Cəlal müəllim öz satiralarında yalnız Azərbaycan xalqının əxlaqı, məişəti, həyat tərzi və düşüncələri öz bədii inikasını tapmamış, bəlkə də ölməz əsərlərdə qonşu xalqların əxlaqında, məişətində, sosial-siyasi həyatındakı bir sıra müştərək cəhətlərin real əksi və xalq kütlələrinin azadlığına və tərəqqisinə mənfi təsir göstərən ictimai-siyasi qüsurların kəskin tənqidi əsas yer tutur.

Mir Cəlal müəllim müxtəlif janrlarda yazsa da, o, satiraya ciddi yanaşırdı. O, həyatdakı nöqsanlara gülmək, onları qəzəb və nifrət hədəfinə çevirmək istəmişdi. Yazılan komediyalardakı yaranan bayağı gülüş, boş hırıltı əlbəttə ədibi düşündürürdü. Komediya ciddi tərbiyəvi əhəmiyyətə malik olduğundan, Mir Cəlal müəllim çalışardı ki, onun

yaratdığı gülüş ağıllara, qəlblərə təsir etsin, ictimai yaralara qarşı göz yaşları oyatsın. Kiçik hekayələri ilə satirada ciddi mövqe tutan ədib daha geniş oxucu auditoriyasını öz ətrafında birləşdirməyə başladı. Mir Cəlal müəllimin əsərlərinə yaxından bələd olanlar onun istedadına qarşı biganə deyil, onu ya heyranlıqla sevir, ya da ki, onun yaradıcılığına həsəd aparırdılar.

Satira ədəbi hadisə olmaqdan daha çox ictimai-siyasi hadisədir, onu həzm etmək, təsirindən silkələnib oyanmaq üçün ictimai zəmin, birinci növbədə oyanmış vətəndaşlıq hissi və qeyrəti tələb olunur. Mir Cəlal müəllimdən əvvəl də Azərbaycan ədəbiyyatında satirik yazıçı və satirik ədəbi nümunələr vardı. XIX əsrdə Qasım bəy Zakir, Seyid Əzim Şirvani və başqaları qüdrətli satirik qələmə malik olsalar da və çox böyük sənət nümunələri yaratsalar da, XX əsrdə Mirzə Ələkbər Sabirin ümumi ədəbi məktəbini yarada bilmədilər. Çünki M. Ə. Sabir dövrünün oyanmış vətəndaşı əvvəlkilərə bənzəmirdi.

XX əsrin əvvəllərində və sosialist inqilabından sonrakı dövrdə də yeni qurulan cəmiyyətin kifayət qədər nöqsanları olurdu ki, satiriklər həmin ünsürləri və quruluşda baş verən naqislikləri, iyrənc hərəkətləri tənqid atəşinə tuturdular.

Həqiqətən də cəmiyyətdə baş verən bütün eybəcərlikləri üzə çıxarıb ifşa etmək, məhz satiraya üstünlük verən Mir Cəlal müəllim kimi yazıçıların boynuna düşürdü. Azərbaycan ədəbiyyatında bu iyrəncliyi qabarıq şəkildə ilk dəfə M. Ə. Sabir öldürücü satira atəşinə tutmuşdu. Bir növ, dahi satirikin yaradıcılığı ilə dərindən maraqlanan və onun yazıları ilə mənəvi cəhətdən qidalanan Mir Cəlal müəllim bütün başqa satirik yazıçılar kimi, ilk addımlarından başı sığallanan və

sevinc çələnginə bürünən yazıçı olmamışdır. Hər satirik yazıdan sonra onun özü müəyyən fəsadlarla üzləşirdi. Nadanlar onun verdiyi ibrət dərsini başa düşmək istəmirdilər.

Mir Cəlal müəllimi başa düşmək problemi uzun müddət davam edə bilmədi. Onun hər əsəri həyatın bütün guşələrinə nüfuz edir, çətinlikləri, ictimai və milli eybəcərlikləri üzə çıxarıb tənqid və ifşa hədəfinə çevirir, milli və qeyri-milli mühiti lərzəyə salırdı. Ədibin nüfuzu və təsir dairəsi onu başqa tanınmış ədiblərin yanında populyarlaşmasına gətirib çıxarmışdır.

Milli uşaq poeziyası nümunələri, məktəblilər və gənclər üçün yazılan və daha çox əxlaqi-tərbiyəvi mahiyyət daşıyan şeirlər, mənzum hekayələr təmsillər nəzərə alınmazsa, keçən əsrin əvvəllərində Azərbaycan poeziyası və bədii nəsri kifayət qədər inkişaf etmiş və geniş miqyasda yayılmışdır. Onlardan biri xalq şairi M. Ə. Sabir tərəfindən əsaslandırılmış inqilabi-satirik şeir məktəbi idi ki, bu məktəbin əhatə və təsir dairəsi az zamanda doğma vətənin hüdudlarını aşmış, inqilabi-demokratik mətbuatımızın parlaq nümunəsi olan məşhur **"Molla Nəsrəddin"** jurnalı vasitəsilə Yaxın və Orta Şərqin bir sıra ölkələrində də güclü əks-səda doğurmuşdur. Sabir ədəbi məktəbinin təkcə Azərbaycanda onlarca davamçısı yetişmişdir ki, onların sırasında Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz və başqaları kimi görkəmli poetik söz ustaları vardı. Yaradıcı pafosu etibarilə əsasən həyati əsərlər yazmış Mir Cəlal müəllim müəyyən mənada Sabir yaradıcılığının ecazkar təsir orbitinə düşmüş, lirik-romantik əsərlərlə yanaşı, satirik hekayələr də qələmə almışdır. Görkəmli ədib evdə olan vaxtı çox zaman Sabirin şeirlərini öz ailəsinin əhatəsində oxumağı xoşlayırmış.

XX əsr Azərbaycan satirik nəsrinin mövzu dairəsi çox geniş, tiplər silsiləsi əlvan, ideya məzmunu inqilabi-demokratik, sosial-məişət mahiyyətlidir. Keçən əsrin ortalarına qədər xalqın həyat və məişətində, inqilabi-siyasi və beynəlxalq aləmdə baş vermiş elə mühüm hadisə yox idi ki, satirik şeirdə və satirik nəsrdə bədii boyalarla əks olunmasın. Bu mənada dövrün satirik ədəbiyyatını, mənsub olduğu xalqın dünyagörüşünü, əxlaqi-mənəvi simasını, həyat və mübarizəsini bütün tipik cəhətləri ilə əks etdirən güzgüyə bənzətmək olar.

Həmin dövrün ab-havası, xüsusən də sosialist inqilabının zəfər çalmasının üstündən 20-25 il keçdiyi bir zamanda tənqidin və satiranın işə düşməsinə gözəl zəmin yaradırdı. Burjua-mülkədar quruluşunun tənqidi, sosialist ədalətsizliyə, mənəvi və cismani irticaya, hüquqsuzluğa, zülm və istibdada qarşı mübarizə; demokratizm və azadlıq, xalqlar dostluğu və beynəlmiləlçilik ideyalarının tərənnümü; fəhlə və məmur, kəndli və mülkədar, mütərəqqi və mürtəce ziyalı münasibətlərinin dolğun realist lövhələrdə inikası; mütərəqqi ictimai fikir və mətbuatın, milli mədəniyyət və ədəbiyyatın qabağına sədd çəkən, qabaqcıl ziyalılara divan tutan müstəbid ictimai quruluşa qarşı mübarizə; burjua əxlaqı və mənəviyyatının, yaranmış rüşvətxor qrupu və pul münasibətlərinin doğurduğu düşkünlük, miskinlik kimi mənəvi eybəcərliklərin ifşası; milli-azadlıq hərəkatının təsvir və tərənnümü; din, mövhumat və cəhalətin, gerilik və ətalətin, köhnə zehniyyət və ruhaniliyin, vaxtı keçmiş mürtəce adətlərin, sxolastik təlim-tərbiyə sistemini tənqidi fonunda qabaqcıl maarif, elm və məktəbin, mütərəqqi təlim üsullarının təbliği, xalqı tərəqqiyə, mübarizəyə çağırış; rayonlarda qadın

əsarətinə qarşı mübarizə, qeyri-rəsmi olsa da çoxarvadlılığın, azyaşlı qızların qoca kişilərə ərə verilməsi kimi eybəcər halların tənqidi; realist ədəbiyyatın, demokratik mətbuatın tərəqqisi, ana dilinin təmizliyi uğrunda mübarizə - XX əsr Azərbaycan satiriklərinin, o cümlədən Mir Cəlal müəllim yaradıcılığında ən çox işlənən mövzuların, dolğun realist planda ifadəsini tapan sosial-siyasi, ədəbi və əxlaqi-estetik problemlərin tam olmayan siyahısı belədir.

Klassik ədəbiyyatın gözəl bilicisi olan, xüsusən də onun satira janrında öz bacarığını sınayan Mir Cəlal müəllim yaxşı bilirdi ki, XX əsrə on-on beş il çatmamış yazılı və şifahi poeziyada satira ünsürləri, tənqid notları var idi. Zəngin xalq yaradıcılığı və aşıq şeiri nümunələrində də, Məhəmməd Füzuli yaradıcılığında da, aşiqanə qoşmalar müəllifi olmuş Molla Pənah Vaqif şeirində də satirik və yumoristik motivlər tapmaq mümkündür. Klassik poeziyadakı satira ünsürləri Q. Zakir və S. Ə. Şirvani tərəfindən müstəqil ədəbi cərəyana - tənqidi-satirik şeir cərəyanına çevrilmişdir.

Mir Cəlal müəllimin satirik kimi yetişməsində, onun mütərəqqi dünyagörüşü və bədii üslubunun formalaşmasında **“Molla Nəsrəddin”** jurnalı müəyyən rol oynamışdır. Ədibin bütün sonrakı satira yaradıcılığı üçün səciyyəvi olan ideya sənətkarlıq xüsusiyyətləri öz başlanğıcını məhz ictimai-məişət zəmində baş verən əxlaq boşluğundan götürmüşdür. Mir Cəlal müəllimin bu mövzuya həsr etdiyi kəskin satiraları müasirlərinin fikri-bədii inkişafında mühüm rol oynamış, onlarca əsərin yaranması üçün mövzu və material vermişdir.

Onun ictimai satiralarında yaranan realizm, demokratizm kimi dəyərli keyfiyyətlər, dil sadəliyi, fikir aydınlığı nəzəri cəlb edir. Bunlarda mövhumat, cəhalət,

rüşvətxorluq, müftəxorluq, biganəlik, zülm, əsarət tənqid olunur. Mir Cəlal müəllim cəmiyyətdə olan bütün əyri-əskiklikləri kəskin qələmlə damğalayır, fəhlə, kəndli hüququnun müdafiəçisi kimi çıxış etmişdir. Satirik cavab, tənqidlər, ifşalar onun ədəbi əlaqələrində mühüm rol oynamışdır.

Mir Cəlal müəllim ədəbiyyat qatarının sərnişini olmamışdan əvvəl həvəskar tədqiqatçı kimi çarizmin, inqilaba qədər on-on beş il qabaq Azərbaycanda hansı proseslərin cərəyan etdiyini və zülmə düçar olan xalqın hansı problemlərlə üzləşdiyini araşdırmış və sonrakı dövrdə başqa şair və yazıçılar kimi həmin eybəcərlikləri əsərləri ilə tənqid hədəfinə tutmuşdur.

Mir Cəlal müəllimin yaradıcılığını tədqiq etmiş tədqiqatçı Əhəd Hüseynovun ədibin hekayələrinə olan münasibətində göstərilir ki: "Elmi həyat təcrübəsi ilə bağlayanların, çətinliklərə, şərəfli əməyə bir sınaq məktəbi kimi baxan gənclərin **("Müdafiə vəkili")** həyata, xalq yaradıcılığına sabitləşmiş, qəlib şəklini almış üsullarla deyil, yaradıcı münasibət bəsləyən gənclərin **("Düşünmək istəyirəm")** təmiz duyğuları, işıqlı fikirləri, xeyirli işləri yazıçı tərəfindən (Mir Cəlal müəllim - R.D.) böyük məhəbbət və iftixar hissilə tərənnüm olunmuşdur. Təmiz, nəcib əxlaqi keyfiyyətlər, mənəvi gözəllik təbliğ edən bu hekayələrin əsas qəhrəmanları müəllimlər və ali məktəb tələbələridir. Onlar öz rəftarı, davranışı, düşüncə tərzi və münasibətləri ilə cəmiyyətin, kollektivin dərin məhəbbətini və etimadını qazanmışlar.

Mir Cəlal müəllim özünün **"Gülbəsləyən qız"**, **"Ərik ağacı"** kimi lirik hekayələrində də insan əməyinin gözəlliyini,

əməyin insana şöhrət gətirməsini, onu yüksəltməsini lirik-emosional səhnələrdə canlandıra bilmişdir".

Ədib, demək olar ki, köhnəliyi təmsil edən tiplərin bir-birini təkrar etməyən nümayəndələrini, müxtəlif həyat tərzinə, ixtisas və peşəyə, həyati təcrübəyə, mənəvi səviyyə və zövqə malik olan, cəmiyyətə, ailəyə, əməyə müxtəlif nöqteyi-nəzərdən yanaşan, müasir hadisələr haqqında xüsusi baxışı, qənaəti olan adamların əhval-ruhiyyəsini, əxlaq və davranışını təsvir etmişdir.

Vətəndaşlıq borcunu dərk edə bilməyən tənbəl həkim **"Həkim Cinayətov",** həyatın ictimaiyyətin gündəlik tələblərindən geri qalmış modabaz aktyor **("Mərkəz adam"),** imzasız məktublar yazaraq namuslu işçiləri ləkələməyə cəhd edən materialbaz **("Mərdimazar"),** şəxsi mənfəətini güdən məsləksiz tənqidçi **("Həpəndovun məqaləsi"),** istedadlı gənclərdən, yenilikdən qorxan, adamları işinə görə deyil, ancaq ictimai keçmişinə görə qiymətləndirən direktor **("Qəmbərqulu"),** işlədiyi yeri ancaq gəlir mənbəyinə çevirən mağaza müdiri **("Təzə toyun nəzakət qaydaları"),** bir-birinin bostanına oğurluğa gedən qardaşlar **("Bostan oğrusu")** və başqa yeniliyə, inkişafa və yüksəlişə əngəl törədən adamlar bu hekayələrdə mənalı, təsirli gülüşə hədəf olmuşlar.

Bəzən müəllif müəyyən mənəvi eybəcərliyin tənqidinə ancaq bir əsər həsr etmiş, bəzən də eyni mətləbə dönə-dönə qayıtmağı məqsədəuyğun saymışdır. Məsələn, ədib imzasız məktublar yazmaq yolu ilə idarə işçilərinin səmərəli vaxtını alan iftiraçının fəaliyyətinə ancaq bir hekayə **("Mərdimazar")** həsr etdiyi halda, idarələrdəki süründürməçiliyin, bürokratizmin zərərini beş hekayədə

**("Həkim Cinayətov", "Matişkə", "Kağızlar aləmi", "Anket Anketov" və "İclas qurusu")** ümumiləşdirməyə çalışmışdır. Mir Cəlal müəllimin **"Boy"** adlı hekayələr kitabı başqa əsərlərlə yanaşı böyük təsir gücünə malik idi. Lakin bu kitab öz yumor koloriti ilə xüsusilə seçilirdi. Azərbaycan satirik ədəbiyyatının incilərindən hesab olunan **"Boy"** hekayələr kitabı müftəxorları, müştəbeh və əhli-kef adamları tənqid edərək, o zamankı ictimai quruluşun çürüklüyünü üzə çıxarmışdı. Mir Cəlal müəllim iti tənqidi ilə idarələrdə və başqa inzibati binalarda bürokrat aparatı yaradan vəzifə düşkünlərini zırrama, mənəvi və əqli cəhətdən naqis, sarsaq və miskin bir varlıq kimi biabır etmişdi. O, həyatın ictimai qüsurlarını və insanlar arasında yaranan bərabərsizliyin acılarını elə tünd boyalar və böyük sənətkar məharəti ilə verirdi ki, hətta həmkarları üçün həmin yazılar dəhşətli görünürdü. Mir Cəlal müəllim əsərlərini işləyən zaman hələ son nöqtəsini qoymamış, həmin hekayələri ədəbi məclislərdə bədii söz sənətkarlarının ixtiyarına buraxardı. Belə satirik yazıların hələ çap olunmadan hansısa bir məclisdə onun varlığı barəsində bəyan etmək üçün insanda cəsarət lazım gərək idi.

Bürokrat sistemi yaradan fırıldaqçılar, hoqqabazlar, dələduzlar yarımdəli, rəzil, ağıldan kəm, meşşan ünsürlər, ədib tərəfindən müştəbeh və əhlikef insan obrazlarını meydana çıxarılırdı. Əlbəttə, bunlar insanı yox, insanabənzər məxluqu xatırladırdılar. Həmin obrazlar adicə normal düşüncə, rəftar, danışıq sahibi də deyildilər. Mir Cəlal müəllim həmin mənfi surətləri yaratmaqla onları məhvə sürükləmiş və Vətən üçün yeni parlaq günəşin doğacağına, yeni cəmiyyətin yaranacağına ümid bəsləmişdi.

Yazıçının **"Boy"** adlı hekayələr kitabı haqqında ilk rəyi **"Nəsrimiz yüksəliş yollarında**" kitabının müəllifi Hidayət Əfəndiyev söyləmişdir. Mir Cəlal müəllimin yumorunun keyfiyyəti haqqında dürüst və aydın fikir söyləyən müəllif, hekayələrin süjet və kompozisiyasını, yazıçının həyat hadisələrinə münasibətini belə müəyyənləşdirmişdir: *"... hekayələrin hər birində yığcam süjet qurmaq, dilə maksimum qənaət etmək, az şeylə çox şey deyə bilmək bacarığı özünü aydın göstərir. Bu hekayələrdə xüsusi baxış, faktlara qarşı kəskin duyğu, əsası ikinci dərəcəlidən ayırmaq, bunu dərk etmək, bunu bədii cəhətdən düzgün mənalandırmaq, bunu oxucunun şüuruna çatdırmaq bacarığı özünü göstərir".*

Ədəbi tənqid, ədəbi ictimaiyyət yazıçının müvəffəqiyyətli hekayələrini yüksək qiymətləndirdiyi kimi, həyatımızdakı ayrı-ayrı mənfi halları birtərəfli, yanlış göstərən hekayələrini də tənqid etmişdir.

Tənqidçi Orucəli Həsənov **"Boy"** əsərinə həsr olunan məqaləsində Mir Cəlal müəllimin üslubunun orijinallığından bəhs edir. O, yazıçının əsərlərindəki komizmin təbii olduğunu, portretləri təsvir etmək, obrazları qarşı-qarşıya qoymaq yolu ilə gülüş doğurmaq kimi keyfiyyətləri dürüst müəyyənləşdirir. O. Həsənov onun dil və yazı manerasının dinamikliyini diqqətəlayiq bir məziyyət kimi qiymətləndirir.

Ədibin satiraya müraciəti cəmiyyətdəki eybəcərlikləri, nöqsanları, naqislikləri üzə çıxardıb ifşa etmək məqsədi güdürdü. Əlbəttə ki, həmin mənfi xüsusiyyətlər oxucular tərəfindən oxunub nəticə çıxarmaq üçün əlverişli imkan yaradırdı ki, gələcəkdə həmin qüsurlar bir daha təkrarlanmasın. Çox hallarda Mir Cəlal müəllim burjua mədəniyyətinin təsiri nəticəsində yaranmış adət-ənənələri,

ətaləti, nadanlığı, cəhaləti gülə-gülə komik vəziyyət yaratmaqla, acı gülüşlə insanları düşündürməyə vadar edirdi.

Komediyaların mövzusunu o, əsasən öz xalqının məişətindən götürmüş, əlbəttə ki, onlarda cərəyan edən həmin hadisələr də Azərbaycanda davam edir. Biz bir-birinin ardınca yaranmış satirik əsərləri oxuduqca mütəfəkkir ədibin satira atəşini nə kimi hədəflərə yönəltdiyini açıqca görür və onun məqsədyönlü yaradıcılığının şahidi oluruq. Cəhalət, onun zəmində yaranmış fanatizm, yüngül yolla varlanmaq həvəsi, hər şeyə biganə yanaşılan nadanlıq, quldurluq və yol kəsməklə ad çıxarmaq, kiməsə şər atıb tutdurmaq, başqasının malına göz dikib vəzifəsindən uzaqlaşdırmaq üçün donos aparmaq, anonim yazmaq o vaxtkı təzadlarla dolu olan cəmiyyətin əsas xəstəlikləri idi. Şübhə yox ki, bunları nəsihət yolu ilə islah etmək mümkün deyildi.

***Alimlərin sərf etdiyi mürəkkəb şəhidlərin qanı ilə tutuşduruldu, alimlərin mürəkkəbi çəkidə ağır gəldi.***

***Məhəmməd Peyğəmbər (s.ə.)***

## Öz elmi qüdrəti ilə həmkarlarını heyran etmiş ədib

Heç bir insan dünyaya alim gəlmir. Bəzən deyirlər ki, bəxt və təsadüfün də rolu az olmur. Bəs, alimlik istedadı və onun sirri nədədir? Hər halda bu məsələdə cavab qətidir; alimlik iradəsinin, təhsilin, inamın, imkanın, şəraitin və əhvalların düzgün fəaliyyətinin ahəngidir.

Professor Mir Cəlal müəllim ədəbiyyatşünaslıq elminə yiyələnmək üçün öz zəkasının qüdrətini səfərbər etmiş və bu yolda demək olar ki, əsl fədakarlıq göstəribdir. Öyrənmə, mənimsəmə, möhkəmləndirmə, təlim və tərbiyə, gərgin əmək, əql, iradə, məqsədə çatmaqda iradə və nikbinlik, daxili inam onu yüksək alimlik dərəcəsinə qaldırıbdır. Bu yola qədəm qoyanların heç də hamısı bütün bunlara tab gətirib, axıra qədər öz məqsədlərini çatdıra bilməyibdir. Mir Cəlal müəllimin elmin ən yüksək rütbələrindən birinə - professor olmasında onda olan iradə və əzm mühüm rol oynayıbdır. O, hələ ali təhsil ocağında elm öyrənərkən dəqiq bilirdi ki, alimlik yüngül həyat yolu deyil, qüdrətli və möhtəşəm inadkarlığın nəticəsidir. Bu təcrübəni Mir Cəlal müəllim

korifey ədəbiyyat ustalarının atası həyat yaradıcılığında görmüşdür.

Görkəmli Azərbaycan ədibində olan zəka, dərk surəti, zehin aydınlığı, öyrənmə asanlığı, ağıl qüdrəti, hafizə, hazırcavablıq, ona elmin keşməkeşli yolunda bütün maneələri addımlamağa köməklik göstəribdir. Elmdə qələbələrin və ya uğursuzluqların səbəblərini alim özü öyrənib dərk etmişdir. O, fəzilət yollarında böyük çətinlikləri və maneələri aradan qaldırmağa çalışmış və bu yolda həqiqəti əldə etmək istədikdə isə həmin maneələr daha da ağırlaşırdı. Bütün bu maneələri dəf etmək üçün Mir Cəlal müəllim özündə böyük inam yaradırdı.

Elmi fəaliyyətin məhsuldarlığı cəmiyyətin ənənələri və mədəniyyəti ilə bağlıdır. Bu elmi fəaliyyət öz növbəsində cəmiyyətin ənənələrini və mədəniyyətini zənginləşdirməlidir. Mir Cəlal müəllim fizika elmində meydana çıxan ziddiyyətləri həll etmək üçün qarşılıqlı güzəşt üsulundan istifadə etməyin zəruriliyini elmin  inkişafı yollarında atılan müsbət hal hesab etmişdir. Əlbəttə o, bu yolda dözümlülük göstərmişdir. İlk növbədə isə görkəmli pedaqoq xalqın mənafeyini və öz xeyrini nəzərə almışdır.

Görkəmli alimin elm yolunda açılan əlverişli perspektiv qəlbindəki səxavətə görə olubdur. O, elmi fikirləri ilə həmkarları ilə bölüşür, məsləhətlər verər və məsləhətlər alar, daxilində olan sirləri məxfi saxlamayaraq əyan edərmiş. Elələri isə olurdu ki, hər şeyə ehtiyatla yanaşır, qorxu xofu ilə yaşayır, başqalarına rəqib kimi baxırdı. Elmdə eqoizm elmin inkişafına mane olan ən təhlükəli amildir. Bu eqoizm ilk növbədə elmdə və onun adamları arasında hökm sürən paxıllıqdan yaranır. Paxıl ən şər adamdır və o, həmişə qəmli

olar, çünki xalqın xeyrin görəndə daim kədərlənər, həmkarının nailiyyətlərini görəndə isə heyifslənib həsəd aparar. Mir Cəlal müəllim gözü tox, ürəyi açıq, xeyirxah insan olduğundan ədəbiyyatşünaslıq elmində ən yüksək nailiyyətlər əldə etməyə müvəffəq olmuşdur.

Sosial-ictimai və elmi-tərəqqi proseslərə diqqət yetirmək onların ziyalılığından, alicənablığından, arifliyindən, kamilliyindən, yüksək intellektliliyindən, xeyirxahlığından xəbər verir və istərdim ki, bütün xeyriyyəçilər bu ailə kimi elmə, ədəbiyyata, incəsənətə, maarifə yönəldilən öz səxavətlərini əsirgəməsinlər.

Görkəmli alim, elm, təhsil fədaisi təhsilimizi SSRİ-nin digər respublikalarının təhsil sisteminə inteqrasiya olunmasında var qüvvəsini əsirgəməmişdir.

Təbiətən əsl sədaqətli, etibarlı insanların sayı çox ola bilməz. Şərafətli və qiymətli şeylər ümumiyyətlə, nadir tapılır və azlıq təşkil edir. Bu yerdə açıq bildirmək olar ki, həqiqi dost da çox ola bilməz. Lakin çox insanlarda maraqlar ümumi, qarşılıqlı fayda çox olduqda münasibət yaratmaq mümkündür, bəzən maddi mənafe olmadıqda, çox adamla fəzilət xatirinə də dostluq yaratmaq vacibdir.

Mir Cəlal müəllim kimi ziyalı, xeyirxah, fazil alim, adil insanlar öz həmkarları, məsləkdaşları ilə məqsəd və amal ümumiliyi üzündən hamıdan daha çox vəfalı, daha çox sədaqətli dost ola bilirlər.

Elm tiranların, despotların, diktatorların, avtoritar insanların əlində alətə yox, hikmət sahibləri olan kamil insanların əlində tükənməz, dibi görünməyən xəzinəyə çevrilməlidir. Elmi ixtiralar insanın əsrlər boyu məhkum olduğu şübhə zəncirlərini qırmalı və insanlara fəaliyyət

azadlığı gətirməli idi. Həmin ixtiralar çox ağır və mürəkkəb proseslər olmasına baxmayaraq, bəndə öz qüdrətinə, inadkarlığına, istedadına, zəkasına, idrakına arxalanıb bunun öhdəsindən gəlir.

Professor Mir Cəlal müəllim humanitar sahəni əhatə edən elm yolunda yorulmaz fəaliyyət göstərmiş və özündən sonra bu dünyada gözəl xatirə qoyub getmişdir.

Məhz bu sahə ilə bağlı heç kimdən söz götürməyi xoşlamayan, dialoq qarşısında üzüqara olmağı öyrəşməyən, idrak və zəka qabiliyyətinə görə heç kimin qarşısında aciz qalmaq istəməyən, ədəbi və elmi mübadilə zamanı dəqiq arqumentlərə söykənən, faktlara üstünlük verən professor Mir Cəlal müəllim öz liberal təbiətində gözəl bir şüar yaratmışdır: “Biz azərbaycanlılar əcnəbi adamlarla, xüsusən də elm sahəsində nüfuzlu çəkisi olan şəxslərlə aktual mövzulu söhbətlər apararkən elə elmi əsaslara israr etməliyik ki, bizim müdrikliyimiz, arifliyimiz və aqilliyimizin aynası olan intellektual səviyyəmiz onların intellektual səviyyəsindən ən azı bir pillə yuxarı olsun”.

Mir Cəlal müəllim vətəninə bağlı olan bir insan kimi, elmi konfranslarla bağlı keçmiş SSRİ məkanının hansı bölgələrində olursa-olsun, həmişə Azərbaycan dilinin gözəlliyini, Azərbaycan mədəniyyətini, ədəbiyyatını, incəsənətini və azərbaycanlılığı təbliğ etmiş və azərbaycanlılar tərəfindən əldə edilən hər hansı bir nailiyyəti “reklam” etməkdə canfəşanlıq göstərmişdir.

Fəzilət sahibi olmuş Mir Cəlal müəllimdə bir çox diqqətəlayiq, onu yaşadan xassələr vardı. Bunların arasında ən əsasları zəka, dərk sürəti, öyrənmə asanlığı, ağıl gözəlliyi, hafizə və hazırcavablıq böyük üstünlük təşkil etmişdi. O,

Azərbaycan Milli Elmlər Akademiyasının fəal elmi əməkdaşı və Bakı Dövlət Universitetinin peşəkar pedaqoqu kimi anlayırdı ki, alim kamillik dərəcəsinə yaxınlaşdıqca hikmət məsələlərini daha diqqətlə mütaliəyə başlamalıdır. İnsan özü-öz üzərində işləsə, onda çox şeylərə, hətta ən qəribə görünən şeylərə də nail ola bilər.

Görkəmli ədəbiyyatşünas alim öz sahəsinin gözəl bilicisi olduğundan həmin sahədə opponentlərini dürüst mühakimələrlə çıxılmaz vəziyyətdə qoyurdu. Ədəbiyyatın vurğunu olan Mir Cəlal müəllim yaxşı bilirdi ki, elmdə yanlış istiqamətdə hərəkət edən, həqiqi elmləri öyrənmək, hər şeyi olduğu kimi dərk etmək əvəzinə, hikmət aləmində elə adamlar olur ki, elmi məsələləri toplayıb əzbərləyər, danışıq, söhbət, mübahisə və münaqişə zamanı başqalarından eşitdikləri, tutuquşu kimi əzbərlədikləri incə həqiqətlərin hər birini elə tərzdə izah edərlər ki, qulaq asanların ağzı açıq qalar və belə adamların həqiqətən ağıl dəryası, elm sahibi olduqlarını təsdiq edərlər, lakin əslində isə onların daxilində bu deyilən şeydən heç bir əsər əlamət olmaz, onların yürütdüyü mühakimə, verdikləri məlumatlar şübhəli və etibarsız olar.

Tələbəlik illərində ədibin əlindən həm bədii, həm də elmi kitablar düşmürdü. Mir Cəlal müəllim elmə mükəmməl yiyələnmək üçün çoxlu elmi kitablar oxumağı özünə bir məqsəd qoymuşdur. Fransız yazıçısı Andre Bertenin elmlə bağlı yaxşı kəlamı var: *“Elm öz mənbəyi etibarilə əbədidir, fəaliyyətində nə zamanla, nə də məkanla məhdudlaşmayıb, həcminə görə ölçüsüz, vəzifəsinə görə sonsuzdur”.*

Düzgün ədəb qaydalarına əvvəlcə Məhəmməd Peyğəmbər - səlallahu əleyhissəlam - sonra onun sələfləri

daim riayət edibdir. Çünki müsəlman dedikdə ilk öncə onun elmli və əxlaqlı olması bir keyfiyyət kimi təsəvvürümüzdə canlanır. Alim, ziyalı olan kəs bu keyfiyyətlərsiz təsəvvür edilməzdir. Xarakterində olan bir çox müsbət keyfiyyətləri öz daxilində cəmləşdirən professor Mir Cəlal müəllim geni auditoriyalarda elmi mühazirələr oxuyan zaman hər bir tələbə və ya aspirant çox gözəl başa düşür ki, onun kimi alicənab, nəcib, humanist, xeyirxah insanın sözünü kəsib yersiz suallarla elm məclisinin vaxtını almaq ən böyük ədəbsizlik və hörmətsizlikdir. Onun iştirak etdiyi auditoriyada belə bir qanun var: "Əgər dərs əsasında bir məsələyə etirazın varsa, təmkinlə məclisin sona çatmasını gözlə, sonra isə öz iradlarını ehtiramla ona bildir". Hətta bu cür hərəkət edəndə etiraz və ya irad lazımi şəkildə, vəziyyətə uyğun olaraq bildirilirdi.

Öz vətənini istədiyi, xalqını sevdiyi, tarixi ilə fəxr etdiyi və mədəniyyəti ilə qürurlanan vətənpərvər bir şəxs kimi yazıçı, professor Mir Cəlal müəllim bütün elmlərə hörmətlə yanaşmasına baxmayaraq, əksər fikir mübadiləsi zamanı, övladlarında ədəbiyyata maraq artmasına çalışırdı. Bütün bunlar üçün ən gözəl stimulu Səməd Vurğun, Cəfər Xəndan, Süleyman Rəhimov, Sabit Rəhman, İlyas Əfəndiyev, Həmid Araslı, Məmməd Arif və başqa ədəbiyyat korifeylərin Paşayevlərin mənzilinə buyurduqları təşrif yaradırdı. Arif müəllim və Hafiz müəllim texniki elmlərə üstünlük versələr də, böyük bir həvəslə həmin görüşlərdən həzz alırdılar. Cəmiyyətin qaymaq hissəsini təşkil edən bu tərəqqipərvər ziyalılar demək olar ki, mütəmadi halda bir-birilərilə yaxından ünsiyyət qurur, məclislər təşkil edir, elmin, mədəniyyətin, incəsənətin, təhsilin problemləri barəsində

söhbətlər açır, dəniz kənarı parkda gəzintiyə çıxırdılar. Bu haqda Azərbaycan MEA-nın akademik-katibi, akademik Akif Hacıyevin gözəl xatirəsi var: "...Uşaqlıq illərində bir neçə yaş çox böyük bir fərq kimi görünürdü və mənim yaşıdlarım olan Emin Sabitoğlu, Araz Dadaşzadə və bizdən bir az kiçik olan Vaqif Səmədoğlu və Rafiq Zəka - biz hamımız, bizdən bir neçə yaş böyük olan Arif Paşayevə, Yusif Səmədoğluna və Elman Araslıya oxşamaq, onların hərəkətlərini təkrar etmək istəyirdik. Maraqlıdır ki, adını çəkdiyim insanların hər biri sonralar Azərbaycanın tanınmış şəxsləri, görkəmli - bəstəkarlar, yazıçılar, alimlər oldular. İllər keçdikcə yaş fərqi sanki yox olur, dostluğumuz da möhkəmlənirdi. Arif hər zaman dostlarının içində öz gözəlliyi, mehribanlığı, qayğıkeşliyi ilə fərqlənirdi və hamımızın əziz və sevimlisi idi. Düşünürəm ki, əgər Allah ideal xüsusiyyətlərə malik bir insan yaratmağı düşünərdisə - o məhz Arifi örnək götürərdi: böyük yazıçımız, Azərbaycan ədəbiyyatının korifeylərindən olan Mir Cəlal müəllimin və işıqlı, gülər gözləriylə, qayğıkeşliyi ilə, açıq süfrəsiylə xatirəmizdə qalan, mənim anamı özünə həmişə böyük bacı saydığı Püstə xanımın genlərini daşıyan, mənfi cəhəti görünməyən insanı".

Şərq dünyasında yaşamış bir filosofun fikrincə "elm həddindən artıq sonsuz bir sahədir. Onu tam dərk etmək heç bir Allah bəndəsinə nəsib olmaz". O, həyatda baş verən bütün proseslərə optimistcəsinə yanaşdığından hər şeyə real baxır - nə qədər ki, Yer kürəsi Günəş sistemində fəaliyyət göstərirsə, elm bəşəriyyət üçün bir o qədər də sonsuz görünəcək. Alimlər heç vaxt Kainat kimi sonsuz görünən elmin sahələrinə tam şəkildə yiyələnə bilməyəcəklər. Lakin bu o demək deyildi ki, Mir Cəlal müəllim bir alim, istedadlı yazıçı kimi elmi kənara

qoyub başqa bir sahə ilə məşğul olacaqdı. O, institutu bitirib aspiranturada oxuyan zamandan bəri bütün fikrini elmin müəyyən sahəsinə yönəldib daim axtarışlarda olubdur. Ümumiyyətlə, elmin vəzifəsi mövcud və konkret şəraiti tədqiq etməkdədir.

Adəti üzrə insanlar çox elm öyrənib, çox biliyə yiyələndikcə, hər şeyi daha tez başa düşüb daha tez dərk edir, onu başqalarına daha tez öyrədir və ondan məharətlə istifadə edir. Mir Cəlal müəllim peşəkar pedaqoq kimi bu üsuldan çox məharətlə istifadə etmişdir.

Müxtəlif məktəblərə və istiqamətlərə mənsub olan Azərbaycan filosoflarının nəzəriyyələrində elmlər təsnifatının obyektiv və subyektiv formalarına və üsullarına, elmlərin və biliklərin elmi təsnifatının dəqiq prinsipinə rast gələn Mir Cəlal müəllim, bu təsnifatlarda elmlərin və biliklərin nəzəri, əməli hissələrə bölünməsi özünün xüsusilə aydın göstərildiyinin şahidi olmuşdur.

X əsrin əvvəllərində Əbu Nəsr əl-Fərabi **“Elmlərin təsnifatı”** əsərində bütün elmlərin ümumi icmalını vermiş və onları beş qismə bölmüşdü: dilçilik, məntiq, riyaziyyat, metafizika və fizika, yəni təbiət elmləri və siyasət. Bu təsnifata üstünlük verən Mir Cəlal müəllim yalnız bununla kifayətlənməmiş, Platonun, Aristotelin, Əbu Əli İbn Sinanın və Nəsirəddin Tusinin təsnifatları ilə tanış olmuş və özünün müstəqil pedaqoji fəaliyyət konsepsiyasını hazırlamışdır. O, təhsil sisteminin təkmilləşdirilməsi sahəsində bir çox işlər görmüş və bununla da övladlarının mükəmməl bilik almasında xüsusi tədris proqramı yaratmışdır.

Mir Cəlal müəllim həmin proqramı mənimsəməklə çox yaxşı başa düşürdü ki, elmin təsnifatı problemi bütün

zamanlarda, elə həmin dövrü daxil edilməklə, alimlər üçün aktual olmuş və eyni zamanda ən az tədqiq olunmuş elm sahəsidir. Elmin təsnifatı, onun yaranma tarixi, inkişaf mərhələləri və həmçinin onun yaradıcıları ətrafındakı mübahisələr ədibin dövrünə kimi davam edirdi.

Etiraf olunmalıdır ki, alim öz biliklərinin dar çərçivəsində qapanıb qala bilməz. Belə alimlər passivdir. Passiv alim biliyini göstərə bilməyən alimə bənzəyir. Bundan belə nəticə çıxarmaq olar ki, elmə soyuqqanlı yox, ciddi yanaşmaq lazımdır. Alimlik titulu uğrunda yox, həqiqi elm uğrunda mübarizə aparılmalıdır. Mir Cəlal müəllim ədəbiyyatşünaslığı dövründə elə fəaliyyət göstərmişdir ki, bunu yalnız əsl yaradıcı alim həyata keçirə bilərdi.

Azərbaycanın qədim mədəniyyəti ilə fəxr edən professor Mir Cəlal müəllim öz fikrində israrlıdır; xalqın mədəniyyəti onun elmində, elmi isə mədəniyyətindədir. Yuxarıda qeyd edildiyi kimi elmlə mədəniyyətin vəhdəti olmalı və bu vəhdət bir istiqamətə - humanizmə xidmət etməlidir. Bu simbioz din, fəlsəfə və əxlaq problemlərini əhatə edir. Elmin inkişafı insanların təbiət üzərində hökmranlığını təmin edə bilər. Elmlə mədəniyyəti yaratmaq bəşər övladının borcudur. Bu dialoq tələb edir. Dialoqa yol tapmaq isə həmişə müdriklik əlamətidir. Bütün bunlara baxmayaraq, görkəmli ədəbiyyatşünas üçün elmlə mədəniyyət arasında müəyyən fərqlər var. Mir Cəlal müəllim anlayırdı ki, mədəniyyət inkişafla yanaşı istər-istəməz geriyə, yəni keçmişə də nəzər salır, çünki adət-ənənələr keçmişlə bağlıdır. Onu itirmək və ya nəzərdən qaçırmaq olmaz. Mədəniyyətlə bağlı olan bütün məsələlərdə təkrarlara imkan verilir. Elm isə geriyə baxmağı sevmir, onun baxışları gələcəyə yönəlibdir. Elm perspektivlər

axtarmalıdır, gündəmə gətirilən hepotezaları reallığa çevirməlidir.

Professor Mir Cəlal müəllim özü üçün elmin inkişafını iki istiqamətdə müəyyənləşdirmişdir: vertikal, yəni müəllim və şagird və horizontal, yəni müasir zəmanənin alimləri ilə elmi əlaqələr. Belə bir qanunauyğunluğu təbii hal hesab edir. Bu elmdə varisliyin zəncirvari dövrəsidir; emocional energiyanın nəsillərdən-nəsillərə keçməsinin təkan vericisidir. Bu proses elmi sönməyə qoymur, onu yeni elmi potensiallar hesabına bir qədər də alovlandırır. Mir Cəlal müəllim hesab edirdi ki, yalnız bu üsulla elm özünün ən yüksək dərəcəsinə çata bilər. Düzdür, müəyyən zaman şəraitində elmin səviyyəsi aşağı düşə bilər, lakin elm öz məktəblərini, qoruyub saxlaya bilər və onu məhv olmağa qoymaz. Burada elmlə mədəniyyətin vəhdəti və ahəngdarlığı özünü daha çox büruzə verə bilər.

Qərb təfəkkürünə görə, elmin köməyi ilə dünyamızın bütün mürəkkəb problemlərindən, o cümlədən insan problemindən baş çıxarmaq mümkündür: insanın mənəvi aləminin sirrini, mahiyyətini onun orqanizmində, beynində baş verən fiziki və kimyəvi prosesləri öyrənməklə dərk etmək olar. Bu amillə hesablaşan Mir Cəlal müəllimin iş üslubunu görəndə müəyyən etmək olar ki, insanı dəyişdirmək, onu xeyirxah və ağıllı etmək üçün ona yaxşı təhsil vermək, onu mədəniləşmiş, maariflənmiş fərdə çevirmək lazımdır. Cəmiyyət problemlərini, elmi-texniki tərəqqinin nəticələrini cəmiyyətin həyatına daha çox tətbiq etmək, insanların rifahını yaxşılaşdırmaq, ümumi firavanlıq cəmiyyəti yaratmaq yolu ilə həll etmək olar. Belə olan təqdirdə aclıq, yoxsulluq, azadlığın, demokratiyanın olması kimi problemlər öz-özünə

aradan qalxacaqdır. İnsanlar yaxşılaşacaq, bir-birilə mübarizə aparmaqdan əl çəkəcək, ümumiyyətlə şər sona yetəcəkdir.

Hər bir elm aqil insanlar üçün - sonsuzdur. Elmin ən ümdə vəzifəsi insanlara səadət gətirməkdir. Kamala çatmış hər bir kəsin düşündüyü kimi insan bu dünyada olan mövcudatın ən şərəflisidir. Əlbəttə ki, bu dünyadakı mövcudatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədini güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır.

Elmlə məşğul olub alimlik dərəcəsinə yüksələn kamil insanları Allahın istədiyi bəndə hesab etmək olar. Deməli, professor Mir Cəlal müəllim öz əməlləri ilə Ulu Tanrıya yaxın bir şəxsdir. Ədəbiyyatşünas alimin konsepsiyasında elmə həvəs göstərən, istedadı olan tələbələrin seçilməsi mühüm əhəmiyyət kəsb edir. Mir Cəlal müəllimin timsalında tələbələr xüsusi təbəqə hesab edilir, təlim alanları yaxşı saxlamalı, onların təbiətlərinə, xüsusiyyətlərinə xüsusi nəzər salınmalıdır; elmləri öyrənməkdə, istedadları xeyirxahlıq etməkdə bacarıqları olsa, artıq öyrənməyi onlara qadağan etməməli, şərait yaratmalı, kömək üçün boyunlarına minnət qoymamalı, çətinliklə rastlaşdıqda yardım əlini onlardan çəkməməlidir. İstedadlarına görə elmlə məşğul olmağa vadar etməli; elmə alışdıqca ümidsizlik, ətalət, həvəssizlik kimi zərərli adətlər ondan əl çəkib gedəcəkdir.

Mir Cəlal müəllim çalışdığı Bakı Dövlət Universitetinin özündə çox böyük, mükəmməl, əsaslı məktəb yaratmışdır. Onun yüksək elmi fəaliyyəti, təşkilatçılıq bacarığı, pedaqoqları kollektiv işə cəlb etmək bacarığı, onların əməyini düzgün və ədalətli surətdə qiymətləndirməyi, zehni çevikliyi, yeni istedadları tapmaq, tərbiyə etmək, müdafiə etmək, bir

alim kimi yetişdirmək qabiliyyəti, nəzəri konsepsiyanın reallığı, məqsədyönlü elmi istiqaməti, tədqiqat üsullarının dəqiqliyi, rəhbərlik etdiyi kafedrada hökm sürən möhkəm intizam və eyni zamanda qarşılıqlı hörmət, ehtiram və məhəbbət münasibətləri, elmi prinsipiallığı, yaradılmış sosial-psixoloji mühit tez zamanda universitetin "Azərbaycan Ədəbiyyatı Tarixi" kafedrasının adını çox-çox uzaqlarda - həm şəhərin daxilində, həm də rayonlarda şöhrətləndirmişdir.

Mir Cəlal müəllimin gənc, vətənpərvər, yüksək bilik və bacarığa malik mütəxəssislər yetişdirilməsində əvəzsiz xidmətləri olubdur. Yüksək peşəkarlıq, sənətinə olan məhəbbət, xeyirxahlıq, humanizm onu həm müəllimlərin, həm də tələbələrin sevimlisi edibdir.

***Xeyirə həsr edilməmiş həyatı hədərə getmiş hesab et.***

***Nəsirəddin Tusi***

***Bir ölkənin məşhurlaşması üçün bir neçə sənətkarın olması kifayətdir.***

***Napoleon***

# Xeyirxah və nəcib insan

Daim əxlaq çərçivəsində hərəkət edən ədəbiyyatşünas alim professor Mir Cəlal müəllim xarakterindəki bütün müsbət keyfiyyətləri səfərbər edib, həyat yoldaşı Püstəxanım ilə birlikdə övladlarına bir çox ailələrin qibtə etdiyi tərbiyəni veribdir. Görkəmli yazıçı övladları ilə söhbət edən zaman çox vaxt elmdən, mədəniyyətdən, ədəbiyyatdan, incəsənətdən, xüsusən də tarixi şəxsiyyətlərin, ədəbiyyat korifeylərinin həyatından müzakirə açardı. Əbəs yerə deyil ki, milli-əxlaq, milli-ənənə çərçivəsində tərbiyə alan hər beş övlad müstəqil həyata qədəm qoyandan sonra xeyirxahlığı, səxavətlərini ətrafdakı adamlardan əsirgəməmişdilər.

Xeyirxah hərəkətlərə üstünlük verən adamın xarakterində səxavətlik xüsusiyyəti böyük üstünlük təşkil edir. Paxıllığa zidd olan xüsusiyyətlərdən biri səxavətdir. “Səxavət” peyğəmbərlərin, imamların və onların yolunu düzgün gedənlərin məşhur sifətlərindəndir. Rəsuli-Əkrəm (s.ə.) buyurub: *“Səxavət behişt ağaclarındandır. Onun budaqları Yerin üzərinə səpələnmişdir. Hər kəs o budaqları tutsa (yəni hər kəs bu sayənin altında qərar tapıb səxavəti göstərsə) behiştə yaxınlaşar. Səxavətli şəxs Allah dərgahına*

*yaxın və cəhənnəmdən uzaqdır”.* Allahın bir çox elçiləri və onların tərəfdarları əksəriyyət şəkildə birmənalı olaraq bildiriblər ki, xeyriyyəçiliklə məşğul olan hər bir şəxs (əlbəttə xeyriyyəçiliklə məşğul olan bir dövrdə İslama zidd olan hərəkətlərə yol verməyən təqdirdə) üçün Cənnətin qapıları açıqdır.

Qədim sivilizasiyalara və mədəniyyətə malik olan bəşəriyyətin rəngarəng xarakterik xüsusiyyətləri var, onlardan da ki, ən önəmlisi xalqların xasiyyətini bildirən adət-ənənələrdir. Bu halda Azərbaycan xalqı başqa xalqlara nisbətən öyünmək üçün israrlıdır. Çünki bizim xalqda gözəl mədəni ünsiyyət, yüksək əxlaq tərzi, əməlisaleh və xeyirxahlıq ənənəsi formalaşaraq, hətta irsi ənənəyə çevrilibdir.

Mir Cəlal müəllimin elə özündən başlayan xeyirxah əməllər, elə yazıçının nəvələri tərəfindən də davam etdirilir. Nərgiz xanım və bacısı, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bir çox xeyirxah tədbirləri həyata keçirir və üzləşdikləri hər bir insanın köklü probleminə həssaslıqla yanaşırlar. Kimsəsiz uşaqların qaldıqları internatlar, qayğıdan, mərhəmətdən məhrum olan ahıl insanların qaldıqları pansionatlar, xəstə, əlil, iflic uşaqların müalicə olduqları xəstəxanalar heç vaxt, əməlisaleh bacıların qayğı, nəvaziş, səxavətindən əskik olunmur.

Mən deyərdim ki, saleh əməllər artıq Mir Cəlal müəllimin ailəsinin xasiyyətinə, adətinə çevrilibdir. Ümumiyyətlə, adət ona deyərlər ki, əvvəlcə düşünülmüş, ixtiyari bir iş görülsün, uzun təcrübələr, çoxlu təkrarlar nəticəsində vərdişə keçsin, tam vərdiş edildikdən sonra iradənin iştirakı olmadan qeyri-ixtiyari icra edilsin və

xasiyyətə çevrilsin. Xasiyyət nə təbiidir, nə də qeyri-təbii, bəlkə insan elə yaranmışdır ki, istədiyi xasiyyətə yiyələnə bilər, məcazına uyğun gəlsə tez olar, gəlməsə gec; müxtəlif insan təbəqələrində təsadüf edilən xasiyyətlər əvvəlcə iradi, ixtiyari şəkildə aşılanır, sonra təcrübə, təkrar, vərdiş nəticəsində xasiyyətə çevrilir.

Aparılan bir çox müşahidələr belə bir nəticəyə gətirmişdi ki, uşaqlar və cavanlar əvvəl hansı xasiyyətdə olmalarına baxmayaraq, başqa xasiyyətdə olanlarla dostluq etdikdə, ya onların tərbiyəsinə verildikdə, geyimdə, işdə, davranışda onların xasiyyətini qəbul edərlər. Çox güman ki, XIX əsrin sonunda, XX əsrin əvvəllərində Azərbaycanda bir çox kübar nəslin nümayəndələri, xüsusən də neft milyonçuları; Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Muxtadir Muxtarovun səxavətləri sayəsində, gözəl xeyriyyəçilik ənənəsi yaranmış və həmin ənənə bir çox insanların geninə keçmişdir.

Mir Cəlal müəllimlə Püstə xanım övladlarını vicdanlı olmağa öyrətmiş, sonra müxtəlif təlim və tərbiyə işlərinə başlamış və uşaqlara istər xoşla, istərsə də zorla bəyənilən xasiyyətləri aşılayıb vərdişə çeviriblər. Akademik Arif Paşayevlə professor Hafiz Paşayev kövrəkliyə, həssaslığa, ürək yumşaqlığına görə başqa ailə üzvlərindən daha fərqlidirlər. Onlar heç kimin göstərişi olmadan, başqasının tövsiyəsini almadan, yalnız öz şəxsi əqidəsinə, aldığı əxlaq tərbiyəsinə arxalanıb xeyirxahlıqla məşğul olmağa başlamış və səxavətli əməlləri ilə on millərlə insanları sevindiriblər. Bundan savab nə ola bilər?

Bizim cəmiyyətdə cürbəcür xarakterli insanlar yaşayıb fəaliyyət göstərirlər. Təəssüflər olsun ki, çoxlu maliyyə

vəsaiti əldə etmiş insanların əksəriyyəti eqoist, ambisioz, naqis, öz şəxsi mənafeyini ən ülvi məqsədlərdən üstün tutan şəxslərdir. Belə insanlar cəmiyyət arasında, xüsusən də imkansız insanlar arasında ümidsizlik halqası yaradırlar. İmkansızların dərdinə şərik olanların sayı az, ortada yeyib kənarda gəzənlərin sayı isə çox olduğundan, mənəviyyat ardınca gedən insanlar ələ keçdikdə onların qədirlərini bilmək və qayğısına qalmaq lazımdır. Onlar nadir və çox nəcib insanlardır.

Səxavətə, ürəkaçıqlığa, xeyirxahlığa, saleh əməllərə dair orta əsrlərdə yaşamış klassik ədiblər tərəfindən saysız-hesabsız şerlər, poemalar, dastanlar yazılıbdır və həmin əsrlərdə xeyirxahlıq xüsusiyyətləri haqlı olaraq insan xarakterinin ən yüksək zirvəsində durduğu göstərilir. Lakin nədənsə Mir Cəlal müəllimin bioqrafiyasını, şəxsi tarixçəsini, dövrü fəaliyyətini vərəqləyərkən həmişə özüm üçün şüar tutduğum, erkən orta əsrlərdə Şərqin tanınmış şair və alimlərindən biri sayılan Ömər ibn İbrahim Əl Xəyyam Qiyasəddin, Əbül Fəthin (1048-1123) bir rübaisi yadıma düşür:

*“Qəlbin məhəbbətlə çırpınsın gərək,*
*Çalış incimәsin səndən bir ürək.*
*Dəyər yüz Kəbəyə bir könül almaq,*
*Kəbəyə getməyə bəsləmə dilək”.*

Ömər Xəyyamın bu misralarına diqqətlə fikir yetirsək, görərik ki, həmin rübainin arxasında nə boyda hikmət var.

İmkansız ailələrdən çıxan əlaçı uşaqlara xüsusi qayğı göstərən professor, hətta onları öz evinə aparıb yedizdirib razı

halda evlərinə yola salarmış. Nəcib insan sayılan Püstə xanımın açdığı süfrələrdə çörək kəsən tələbələr, aspirantlar, gənc yaradıcı insanlar bu ailənin qonaqpərvərliyinə, səxavətinə, insani münasibətinə, mənəvi paklığına yaxşı bələddirlər. Mir Cəlal müəllim vaxtının qıt olduğuna əhəmiyyət vermədən həmin əlaçı tələbələrlə öz evində ədəbiyyatla bağlı diskussiyalar aparmaqdan xüsusi zövq alarmış, bir çoxlarını isə ədəbiyyat fənninə dair əlavə kitablarla təchiz edərmiş. O, gələcəkdə fayda verəcək həmin tələbələrin aspiranturaya daxil olub, dissertasiyalar üzərində işləmək üçün öz köməkliyini əsirgəməmişdir. Ümumiyyətlə, ədəbiyyat fənnindən fərqlənən tələbələr professorun diqqət mərkəzində olmuşdur.

Yataqxanalarında qalan tələbələrə xüsusi qayğı göstərməklə, onların keşməkeşli həyatında mənəvi dayaq durmaqla, Mir Cəlal müəllim həqiqi mənada həmin insanların həyatında ümid çırağı yandırmışdı. Deməli, həmin xeyirxah pedaqoq bir yox, iki yox, üç yox, minlərlə insanın könlünü şad etməklə, Yeri və Göyü yaradan Allahın sevimli bəndəsinə çevrilibdir. Ateist məmurların at oynatdıqları bir dövrdə xeyirxahlıq edən şəxslər təzyiqlərlə üzləşə bilərdilər. Odur ki, saysız-hesabsız xeyirxah əməllər çox vaxt gizlin saxlanılırdı.

Mir Cəlal müəllimlə bağlı maraqlı bir hadisəni qeyd etmək oxucuların marağına səbəb olacaq. Xalq şairi Nəriman Həsənzadə 1961-ci ildə Moskvada Maksim Qorkiy adına Ədəbiyyat İnstitutunu bitirib Bakıya qayıdır ki, işlə təmin olunsun. Lakin o, burada böyük maneələrlə rastlaşır. Xoşbəxtlikdən Nəriman Həsənzadə Mir Cəlal müəllim ilə üzləşir. Ədib biləndə ki, gənc şair iş axtarır, o da qətiyyətlə

bildirir ki, "İş axtarma, adam axtar. Adam - mən. Gəl universitetə, aspiranturaya".

Bununla bağlı Nəriman Həsənzadə bir şeir də yazıb ortaya qoyur:

İş axtarma, adam axtar, -
Mir Cəlal misal çəkərdi.
indi bildim, ustadımın
gözü niyə yol çəkərdi.

Tələbənin atasıydı,
yerdə Tanrı sədasıydı.
"Zaçot" vaxtı qaydasıydı, -
soruşmamış qol çəkərdi.

Sayardı, onu sayanda,
hörmətə hörmət qoyanda.
Ürəyinə yatmayanda
əl verməzdi, əl çəkərdi.

Gah xeyiri şər olardı,
gah balı zəhər olardı,
Amma zəri zər olardı,
o zəhərdən bal çəkərdi.

"Əhli-hal" kef eləyəndə,
özünü məhv eləyəndə,
Nəriman səhv eləyəndə,
dərdi Mir Cəlal çəkərdi.

Aspiranturada yer olmayanda universitet rəhbərliyi yanında böyük nüfuz sahibi sayılan görkəmli pedaqoq Nəriman Həsənzadə üçün əlavə ştat açdırır. Lakin Mir Cəlal müəllimin xeyirxahlığı bununla bitmir. Ədəbiyyatın sirlərinə yiyələnən və bu sahədə yorulmaz işlər görən gənc şairin yaradıcılıqla, həm də elmi iş görməyə evi olmur. Bu da tanınmış yazıçının diqqətindən yan qaçmır və Mir Cəlal müəllim gənc şairin evlə təmin olunmasını qarşısına məqsəd qoyur.

Həmin dövrdə Mir Cəlal müəllim oğlu Arif Paşayev üçün mənzil almalı idi. O, isə Nəriman Həsənzadəni özü ilə götürüb Azərbaycan Yazıçılar Birliyinin birinci katibi Mehdi Hüseynin evinə aparır və ona deyir ki, "Ev alanlar sırasında Arifin adını poz, Nərimanın adını yaz". Mehdi Hüseyn isə bildirir ki, "bu çox mürəkkəb prosesdir, çünki bütün sənədlər xüsusi komissiyada müzakirə olunubdur". Lakin buna baxmayaraq Mİr Cəlal müəllim təkid edir və gənc şairi oğlunun yerinə yazdırır. Nəriman Həsənzadə evi alanda, "Bir gəncin manifesti" əsərinin müəllifi oğlu Arifə ev almaq üçün şəxsi vəsaiti hesabına onun adını tikilən kooperativ binaya yazdırır. Yəni o dövr üçün Mir Cəlal müəllimin göstərdiyi xeyirxah əməl ağlasığmaz bir səxavət sayılırdı ki, onu görkəmli ədib həyata keçirməyə özündə cəsarət tapmışdı. Bunu ancaq damarlarında peyğəmbər qanı axan nəcib bir insan edə bilərdi.

Mir Cəlal müəllim kimi səxavətli, kövrək qəlbli şəxs əməllərinə görə onu tanıyan hər bir insanın qəlbində fəxarət hissi oyadır.

Həzrət Əlinin (ə.) belə bir müdrik kəlamı var: *"Tamah səni qul etməsin, Allah səni azad yaradıb".* Bu kəlamın

fəlsəfəsini başa düşmək üçün, o qədər də baş sındırmaq lazım deyil. Həqiqətən də tamah dalınca qaçan özünü qul hesab edə bilər. Allahın yaratdığı kimi azad olmaq istəyirsənsə, onda əldə olunan var-dövlətin toplanması ilə yanaşı, hökmən ixtiyarında olan malın müəyyən bir hissəsini kasıb insanların ehtiyacı üçün xərclənməlidir. Bu haqda Həzrəti Əli (ə.) demişdir: *"Ey Adəm oğlu! Ehtiyacından artıq qazandığın şeyi başqaları üçün yığırsan".* Şübhə yox ki, insan ehtiyacından əlavə nəsə əldə edibsə, onda artıq şeyi başqaları ilə bölüşdürməlidir. Sən xərcləməsən, Allah yetirməz. Bu prinsip bütün humanist insanlara agahdır.

İnsanın imkanları, gerçəkliyə çevrilmə formasına görə aktual və potensial imkanlara ayrılır.

Aktual imkanlar birbaşa gerçəkləşə bilər. Bu imkanlar Mir Cəlal müəllimin gündəlik həyatı və praktik fəaliyyəti ilə bağlı idi. Onun aktual imkanları konkret imkanlar olmuş, onların gerçəkləşməsi üçün o, əlindən gələn bütün işləri həyata keçirmişdi. Mir Cəlal müəllim bir fərd kimi cəmiyyətlə sıx təmasda olmuş və xeyriyyə ilə bağlı işləri insanların arasında tətbiq edərdi.

Xeyirxahlıq insanlarda ən ali insanı keyfiyyətdir. Onlar, yəni xeyriyyəçilər, humanistlər Allaha daha yaxın adam olurlar. Çünki onların əsas missiyası insanlara xidmət göstərməkdən, məzlum və fəqirlərə dayaq olmaqdan, imkansızlara yardım etməkdən ibarətdir.

Mir Cəlal müəllim xeyirxah işlərə hər beş övladını da cəlb etmiş və xeyirxah əməlləri ilə insanları sevindirmişdi. Sonrakı illərdə nəinki görkəmli yazıçının övladları, hətta onun nəvələri də iri layihəli xeyirxah tədbirlərdə iştirak etməyə başlayıblar.

Vaxtilə Mir Cəlal müəllim, indiki zamanda Arif müəllim, Nərgiz və Mehriban xanımlar qanlarında olan xeyriyyəçilik əməlləri ilə bütün xeyirxah insanların mənəvi irsini yaşadırlar. Nəsirəddin Tusinin, Hacı Zeynalabdin Tağıyevin, Musa Nağıyevin və başqa xeyriyyəçilərin, metsenantların gördükləri işlər, bu ailə tərəfindən milli-mənəviyyat, milli dəyərlər əsasında həyata keçirilərək, Allaha yaxın olduqlarını nümayiş etdirirlər.

Bütün bu insani keyfiyyətləri ilə bərabər Mir Cəlal müəllimdəki səxavət, səbr, inam və mərhəmətə heyran olmamaq mümkün deyil. Bu insanpərvər, vətənpərvər, tərəqqipərvər ailənin fəaliyyətini izlədikdə, xatirəmdə erkən orta əsrlərdə yaşayıb yaratmış, Azərbaycanda elmi yüksək zirvəyə qaldırmış, humanist elm dühası, Marağa rəsədxanasının banisi Mühəmməd Nəsirəddin Tusinin (1201-1274) dövrü fəaliyyəti düşdü.

Nəsirəddin Tusi həşşaşilərin "Ələmut" qalasında 20 il əsir qalandan sonra o, Elxanilər dövlətinin banisi, monqol hökmdarı Hülaku xanın sarayında məsləhətçi işləyir və aldığı maaşın çox hissəsini elm yoluna qədəm qoymuş insanların ehtiyacına xərcləyirdi. Sonrakı dövrdə Marağa rəsədxanasında çalışan və təhsil alan yüzdən çox alimin, müəllimin, altı yüzə yaxın tələbənin müntəzəm maaş alması üçün, onların ailələrinin mənzil ilə təmin olunması və vergidən azad olunması üçün o, hökmdardan xüsusi imtiyazlar almışdı. Tusi nəinki rəsədxanasında çalışan insanlar üçün, hətta Azərbaycanda yaşayan bütün sənətkarların maddi-mənafeyinin və sosial-rifahının yaxşılaşdırılmasına böyük səy göstərmişdi. Monqolların regiona olan yürüşlərindən bir çox mədəniyyət, incəsənət

abidələri və elm mərkəzləri bərbad vəziyyətə düşürdü. Tusi belə bir ağır və təhlükəli vəziyyətdə sinəsini irəli verərək, həmin abidələrin və sənət əsərlərinin məhv olunmasının qarşısını almış, dünya mədəniyyəti üçün qiymətli sayılan sərvətləri Azərbaycana gətizdirib onların təhlükəsizliyini təmin etmişdir.

Qətiyyətlə deyə bilərəm ki, XIII əsrə qədər heç bir alim və ya ziyalı Nəsirəddin Tusi kimi cəmiyyətin bir neçə sosial təbəqəsinin nümayəndəsini maddi vəsait ilə təmin etməmişdi və onu xeyriyyəçiliklə məşğul olan ilk ziyalı hesab etmək olar.

Necə ki, Nəsirəddin Tusi elm adamlarını yüksək səviyyədə qiymətləndirmişdi və ölkədə elmin inkişaf etdirilməsində bütün resurslardan istifadə edərək, Azərbaycan elminin region dövlətlərindən, xüsusən də Avropadan geri qalmadığını, əksinə sürətlə irəliləməsini nümayiş etdirmişdi, eləcə də Mir Cəlal müəllimin mənəvi irsini davam etdirən nəsli, xüsusən də akademik Arif Paşayev həmin prinsipi həyata keçirir. Əldə edilən məlumata görə görkəmli akademik həcmindən asılı olmayaraq həm bədii, həm publisist, həm də elmi əsərlərin sponsorluğunu öz üzərinə götürübdür. Onun və övladlarının elmə, maarifə, ədəbiyyata, sosial müdafiəyə göstərdikləri qayğı və nəvaziş məni bir ədib, xüsusən də bir vətəndaş kimi xeyli heyran etmiş və bununla da qürur hissi keçirirəm. Nə yaxşı ki, ziyalıları, yaradıcı insanları əməyinə, zəhmətinə görə yüksək səviyyədə qiymətləndirən Paşayevlər kimi vətənpərvər, qayğıkeş, xeyirxah insanlar var.

Azərbaycan bir quruluşdan digər quruluşa keçən zaman böhran vəziyyətində olmuş və nəticədə əhalinin əksər hissəsi iqtisadi böhran vəziyyəti ilə ayaqlaşa bilməyib kasıbçılığın məngənəsinə düşmüşdür. Belə bir ağır durumda məzlumların

sayı artdığı bir dövrdə imkanlı şəxslər ambisioz, eqoist insanlar kimi özlərini düşünərək, yalnız şəxsi maddi rifahlarını, maliyyə durumlarını daha da yaxşılaşdırmaq üçün öz pullarını "səmərəli" dövriyyəyə buraxırlar. Lakin bütün bu ədalətsizliyə baxmayaraq, təzadlarla dolu olan cəmiyyətimizin rəngarəng təbəqəsinin içərisindən ürəyi xalqın problemi ilə döyünən vətənpərvər, insanpərvər xeyirxah insanlar çıxır. Səxavətli insanların, xeyriyyəçilərin meydana çıxması kasıbçılıq həddində yaşayan aşağı təbəqəli insanların daxili aləmində ruh yüksəkliyini qaldıraraq, onların nikbinliyini artırır.

Əsl xeyriyyəçi ümumxalq mənafeyi güdməli, ümumbəşəri dəyərlərə arxalanmalıdır. Nərgiz xanımla Mehriban xanım həyata keçirdikləri xeyirxah işləri yalnız və yalnız Yeri, Göyü yaradan o əbədi Allahın adı ilə görürlər. Onlar əllərinə düşən bütün ruzi-bərəkətin də Ulu Tanrı tərəfindən yetirilməsinə, azacıq olsun şəkk-şübhə etmirlər. Müqəddəs amal uğrunda kim öz səy və bacarığını nümayiş etdirirsə, Allah həqiqətən də həmin şəxsə yardımçı olur.

Mir Cəlal müəllimə görə dərk edilmiş qanunlar insanların əməli fəaliyyətinin müvəffəqiyyətli olmasının başlıca şərtidir. Elmi idraka əsaslanmayan fəaliyyət isə kortəbii xarakter daşıdığından onun müvəffəqiyyəti təsadüflərdən asılı olur.

Xeyirxah insanlar heç bir çətinliklərə əhəmiyyət verməyib vicdanlarının səsi ilə öz işlərini həyata keçirirlərsə, deməli Allah qarşısında olan ən müqəddəs işi icra etmiş olurlar. Birinci İmam Həzrət Əli (ə.) buyurub ki, *"Yurdsuzlar və fəqirlər Allahın elçiləridir, hər kim onlara kömək etsə, Allaha kömək edir, hər kim onları incitsə Allahı incidir".*

Məntiqlə söylənilən bu fikir elə-belə söylənilməyibdir. Məhəmməd Peyğəmbərin (s.ə.) ən sevimli, etibarlı və sədaqətli məsləkdaşı olan, milyonlarla insanın məhəbbətini qazanan, İslam dininin yayılmasında müstəsna rol oynamış, din uğrunda gedən ölüm-dirim savaşlarında düşmənlərini dizi üstə çökdürmüş Həzrət Əli (ə.) hər hansı bir sözü söyləyəndə yüz dəfə ölçmüşdü.

Allah-taala dünyaya gələn hər bir insana bərabər səviyyədə yaşamaq üçün bütün imkanları onların ixtiyarına vermişdir. Lakin insanlar özləri daxildə olan bütün eybəcər xasiyyətləri nümayiş etdirərək, bir-birilərinə qənim kəsilir və orada olan tarazlığı kobud sürətdə pozurlar. Fəqirlər və kasıblar da varlılar kimi xoş və firavan yaşamaq arzusundadırlar. Lakin onlar ən elementar fürsətlərdən məhrumdurlar. Belə bir ədalətsizlik çox çəkməz. Çünki hər şey rəhmli və ədalətli olan Allahın əlindədir. İlahi hələlik bütün bu haqsızlıqları səbrlə seyr edir, insanların düzəlməsi, haqq yoluna gəlmək üçün bəşəriyyətə əlavə vaxt veribdir. Hər bir insan axirət dünyasında Qiyamət günündə gördüyü əməllərin hesabatını verəcəkdir.

***Xoşbəxt o kəsdir ki, onun gəlir mənbəyi öz şəhərində olsun, gündəlik qarşılaşdığı şəxslər əməlisaleh bəndələr olsun və onun bağışlanılması üçün dua edən övladı olsun.***
***Əli bin Hüseyn İmam Zeynalabidin***
***(Dördüncü İmam)***

# Mir Cəlal müəllimin ailəsi və ailə nümayəndələri tərəfindən onun ümidlərinin doğrultması

Mir Cəlal müəllim dünyasını dəyişsə belə, onun təsiri hələ də Paşayevlər ailəsində qalmaqdadır. İş ondadır ki, ədəbiyyat sahəsində mühüm araşdırmalarla məşğul olan Ədibə xanım, Elmira xanım, Aqil müəllim və Arif müəllimin böyük övladı Nərgiz xanım hərtərəfli olaraq, Mir Cəlal müəllimin yolunu davam etdirirlər. Bunun nəticəsi kimi Ədibə xanım sonrakı illərdə, əlbəttə ki, Azərbaycan Təhsil Nazirliyinin təyinatı ilə, ona doğma olan Bakı Dövlət Universitetində Rus Ədəbiyyatı kafedrasının müdiri, Nərgiz xanım isə həmin universitetin prorektoru vəzifəsində işləməyə başlayırlar.

Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Arif Paşayev və Azərbaycan Ali Diplomatiya Məktəbinin rektoru, Azərbaycan Respublikası Xarici İşlər nazirinin birinci müavini professor Hafiz Paşayev elmin fizika sahəsinin tanınmış elm xadimləri olmalarına

baxmayaraq, onlar da ataları kimi ədəbiyyat elminə dərindən yiyələniblər.

Elektrotexnika, kompüter proqramlaşması, mikrosxema, təyyarə mühərrikləri və kosmik aparatları sahəsində rus millətindən olan alimlər "inhisarçı" olsalar da, akademik Arif Paşayevin bu siyahıda tutarlı yer alması, erməni və yəhudi lobbisini yaman bərk narahat etmişdi. Ona qarşı intriqalar, böhtanlar, yalanlar yağdırılsa da, saf əqidəyə, dönməz iradəyə və yüksək intellektual biliyə malik olması akademiki öz yolundan döndərə bilmədi.

Bir çox elmlərdə olduğu kimi, fizika sahəsində də elə elmi xadimlər var ki, elm sahəsində göstərdiyi misilsiz xidmətlərinə görə həmin şəxsin adı **"Qızıl fonda"** düşübdür. Elm, mədəniyyət və təhsil sahəsində lazımi səviyyədə tanınan Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Mir Cəlal oğlu Paşayev belə alimlərdən sayılır.

Arif Paşayev 1934-cü il fevralın 15-də Bakı şəhərində anadan olmuş və ailədə birinci uşaq olduğundan yazıçı-professor Mir Cəlalın və qayğıkeş ana Püstəxanımın arzuladıqları övlad sayılırdı. Azərbaycanın gələcək akademiki 1951-ci ildə paytaxtın 164 saylı orta məktəbini bitirmiş və həmin il bacarıqlı, bilikli abituriyent kimi Odessa Elektrotexnik Rabitə institutuna oxumağa göndərilmişdi.

Elmdə böyük nailiyyətləri əldə edən akademik Arif Paşayev 1978-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1991-ci ildə o, avtonom hidroakustik informasiya sisteminin yaradılması sahəsindəki kompleks işlərinə görə Azərbaycanın dövlət mükafatı laureatı adına layiq görülübdür. Akademik Arif Paşayev SSRİ-də ilkin alimlərdən biri idi ki,


PAŞAYEVLƏR NƏSLİNİN ŞƏCƏRƏSİ
İMAM ZEYNALABDİN
MİRZƏLİ TAYFASI
MİR PAŞA
MİR ƏLƏŞRƏF
MİR XƏLİL
MİR AĞA
MİR ƏBÜLFƏZ
MİR CƏLAL
MİR CƏLİL
QUMRU
ARİF
ELMİRA
HAFİZ
ƏDİBƏ
AQİL
NƏRGİZ
MEHRİBAN
ALTAY
AYTƏKİN
CƏMİLƏ
MİR CAMAL
LEYLA
RASİM
NƏZRİN
MİR CƏLAL
AİDƏ
ÜLVİYYƏ
LEYLA
ARZU
HEYDƏR
NƏRMİN
AYTAC
GÜNAY
FUAD
ORXAN
NİGAR
CƏMİL
ZEMFİRA

yüksək keçirici keramik birləşmələrinin və onların tədqiqatının sintezinə başlamışdır. Bu sahədəki elmi nailiyyətlərinə görə o, Rusiya Elmlər Akademiyasının təsis etdiyi **"Yüksək keçirici elektronika"** elmi şurasının mükafatına layiq görülmüşdü. Alimin elmi diapazonu çox genişdir və onun nailiyyətləri 300-dən çox elmi əsərdə öz əksini tapmışdır. Akademik Arif Paşayev 15 kitabın və monoqrafiyanın müəllifidir.

Arif Paşayev Elmlər Akademiyasının Fizika institutunda işlədiyi zaman yarımkeçiricilər fizikası və texnikasının inkişafı ilə bağlı bir sıra məsələlərin həllinə yönəlmiş elmi-tədqiqat işləri, xüsusən yüksək və ifratyüksək tezlikli diapazonlarda materialların zədəsiz tədqiqatlarının fiziki əsaslarının yaradılması, ilk dəfə yarımkeçirici materialların elektrofiziki parametrlərinin kontaktsız ölçülməsi üsullarının elmi əsaslarının işlənilməsi, bu üsulları reallaşdıran elmi cihazların, maşınqayırma məmulatlarının cərəyan burulğanları ilə nəzarət üsullarının və qurğularının yaradılması, dəqiq inteqral miniatür çeviricilərin hərarətə, təzyiqə, nəmliyə, gücə, deformasiyaya və vibrasiyaya həssas elementlərinin yaradılması və tezliklə istehsala buraxılması, həmin qurğuların dünyanın bir çox elmi mərkəzlərində, gəmiqayırmada, maşınqayırmada, hərbi sənayedə və digər istehsalat sahələrində müvəffəqiyyətlə tətbiq olunmasına gətirib çıxarmışdır. Onun bu sahə üzrə təklif etdiyi elmi metodlar böyük tətbiqi əhəmiyyətə malikdir.

Fizika elmində kifayət qədər tanınan professor Hafiz Paşayev özünü diplomatiya sahəsində də sınamış və 10 ildən çox səfir kimi ləyaqətlə bizim ölkəni Amerika Birləşmiş Ştatlarında təmsil edibdir. Onun Amerikada keçirdiyi



*Mir Cəlal Paşayev ailəsi ilə birlikdə*



*Mir Cəlal Paşayevin evində. Mir Cəlal müəllimin həyat yoldaşı Püstə xanım, ayaq üstə duranlardan (soldan): 2-ci Arif Paşayev, 3-cü Hafiz Paşayev, 4-cü Aqil Paşayev.*

Konfranslar, iclaslar, brifinqlər xarici ölkələrin nümayəndələrini, elm, mədəniyyət və incəsənət xadimlərini, xüsusən də ABŞ-ın hakim dairələri tərəfindən hərarətlə qarşılanmışdır.

Həm ədəbiyyatla, həm də incəsənətlə dərindən maraqlanan Elmira xanım isə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında yorulmaz fəaliyyət göstərək, Azərbaycan hökumətinin xüsusi fərmanı ilə Azərbaycanın əməkdar incəsənət xadimi adına layiq görülübdür.

Nərgiz Paşayeva hələ uşaqlıq illərində, ədəbiyyata olan həvəsini hamıdan gizlin saxlamağa çalışaraq, şerlər və hekayələr yazmağı xoşlayırdı. Sanki bu həvəs, ona babası Mir Cəlal müəllimdən keçmişdi. Fərqlənmə attestatı ilə orta məktəbi bitirən Nərgiz xanım ədəbiyyat dərsində şairlərə xas olan tərzdə, xüsusi ədəbi bacarıqla və intonasiya ilə klassik və müasir şairlərin məşhur şeirlərini söyləyərək, bu istedadı ilə nəinki sinif yoldaşlarını, hətta müəllimlərini də heyrətə gətirmişdi. Əlbəttə, ədəbiyyata meylli olduğundan və poeziyanı xoşladığından akademik Arif Paşayevin və Aida İmanquliyevanın böyük qızı keçmiş S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, təhsildəki qazandığı uğurlarına və ictimai həyatdakı fəal iştirakına görə, onu işləmək üçün həmin kafedrada saxladılar.

Asudə vaxtının əksəriyyətini dövlət kitabxanalarında keçirən Nərgiz xanım həmin kafedrada işləyərkən elmlə ciddi məşğul olmağa başlayır. Hələ tələbəlik illərində o, elmi konfranslarda mükəmməl iştirak etmiş və sonradan aspiranturaya daxil olmuşdu. Aspiranturalıq dövründə Nərgiz

Paşayeva bir çox maraqlı məqalələr, tezislər və metodik vəsaitlər dərc etdirir. O, peşəkarcasına namizədlik dissertasiyasını müdafiə edir. Nərgiz xanımın ailə həyatında da böyük uğurları olur. Hələ aspiranturada oxuyanda o, cavan ana olur.

Azərbaycan və dünya ədəbiyyatı, bədii nəsr və poeziya ilə dərindən maraqlanan Ədibə xanım elə yetkinlik çağında həmin sahə ilə bağlı qeyri-adi qabiliyyətə, bacarığa və biliyə malik olması ilə özünü büruzə vermişdir. Elə atası Mir Cəlal müəllimin yanında olarkən, görkəmli ədibin qələm dostları ədəbiyyatla bağlı mübahisələr aparan zaman Ədibə xanım etiket qaydalarına riayət edərək, üzrxahlığını bildirə-bildirə, onlarla yüksək səviyyədə ədəbiyyatın hər hansı bölməsi ilə bağlı maraqlı diskussiyalar aparmağı xoşlayırdı. İstedadlı xanımın yaşına uyğun gəlməyən səviyyədə mübahisələr aparması Mir Cəlal müəllim ilə yanaşı, Azərbaycanın digər tanınmış qələm əhlinin fərəhinə, heyranına səbəb olmuş və onun hansı biliyə, dərrakəyə, idraka malik olduğunu bəyan etmək məcburiyyətində qalırdılar.

Yazıçı Mir Cəlal müəllimin ailəsində nümunəvi tərbiyə alan beş uşağın hər biri bütün hərəkətlərində və davranışında valideynlərinə oxşamaq istəyirdilər. İnsanda olan ən müsbət mənəvi keyfiyyətləri və xüsusən də istedad bacarığını qiymətləndirən professor Mir Cəlal müəllim övladlarının həm tərbiyəsini, həm də təhsilini diqqət mərkəzində saxlamış və hətta boş vaxtlarının əksər hissəsini tarix, ədəbiyyat və ərəb ədəbiyyatı mövzusunda xoş, maraqlı dialoq aparmaqla keçirərmiş. Arif Paşayevlə Elmira xanım böyük övlad olduqlarından o biri uşaqlara nisbətən hamıdan tez ədəbiyyatın incəliklərinə, Azərbaycan dilinin

qrammatikasının dərinliklərinə yiyələnir, bu sahədə ataları ilə fikirlərini bölüşdürür və əlbəttə ki, onlar bütün bunlarla bağlı Mir Cəlal müəllimin mövqeyini bilməyi özlərinə örnək sayırdılar. Onlar bədii əsərlərin mənimsəməsində, şeir janrlarının öyrənilməsində, müasir və klassik yazıçılarının əsərlərini, şairlərin şeirlərini təhlil etməkdə xüsusi istedada malikdirlər və bu sahədə ailədə onlara çatan yox idi.

Professor Mir Cəlal müəllimin ərsəyə gətirdiyi əsərlər də onların psixologiyasına müəyyən təsir göstərmiş və erkən orta məktəblik illərindən onlarda ədəbiyyata böyük həvəs yaranmışdır. Ədibə xanım hələ tələbəlik illərində çox istedadlı və özü üzərində işləməyi bacaran bir adam olub. Əlbəttə ki, elmə meylli olduğu üçün o, filologiya elmləri doktoru pilləsinə qədər yüksəlir.

Dövran ötüb keçir, zəmanə dəyişir. Köhnəlik yeniliklə əvəzlənir. Görkəmli şəxsiyyət isə öz əməli fəaliyyəti ilə tarixin abidəsinə çevrilir. Vaxtilə adı çəkilən ali təhsil ocağında kafedra müdiri işləmiş Mir Cəlal müəllimin qızı Ədibə xanım indi "Rus ədəbiyyatı" kafedrasının müdiri, nəvəsi Nərgiz xanım isə prorektordur. Onun ruhu universitetin dəhlizlərində, auditoriyalarında gəzərək, bu insanlara mənəvi qida verir, onlara dayaq olur.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, **"Azərbaycan-İrs"** Beynəlxalq jurnalının təsisçisi, millət vəkili, Azərbaycan xalqının sevimli qızı, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin həyat yoldaşı Mehriban Əliyeva uşaqlıq illərində Bakının ən tanınmış orta məktəblərindən birini qızıl medal ilə bitirmiş və çətinlik çəkmədən Azərbaycan Dövlət Tibb İnstitutunun

müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. O, birinci kursu bitirəndən sonra İlham Əliyevə ərə getmiş, onunla birlikdə Moskvaya köçmüş və təhsilini davam etdirmək üçün akademik M. Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunda təhsilini davam etdirərək oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ali təhsil ocağını bitirən Mehriban xanım akademik Zərifə Əliyeva ilə birlikdə akademik M. M. Krasnovun rəhbərliyi altında, bütün SSRİ-də məşhur olan Elmi-Tədqiqat Göz İnstitutunda dörd il həkim işləmişdi. O, fəlsəfə elmləri namizədidir.

1995-ci ildə Mehriban xanımın təşəbbüsü ilə hal-hazırda rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu yaradılmış, 1996-cı ildə isə onun təsisçiliyi ilə üç dildə nəşr edilən (Azərbaycan, rus və ingilis) və Azərbaycan Mədəniyyətinin geniş təbliğ olunması məqsədini daşıyan **"Azərbaycan-İrs"** jurnalı işıq üzü görmüşdür.

Bir sözlə, hər şeyə həssaslıqla və istiqanlılıqla yanaşan, heç bir şeyi nəzərindən qaçırmayan ümummilli liderimiz Heydər Əliyev, Azərbaycan adət-ənənələrini öz mədəniyyətində tərənnüm edən Mehriban xanımdan bir gəlin kimi tamamilə razı olubdur. Bir çox psixoloqlar qeyd edirlər ki, akademik Zərifə xanımın bir çox xarakterik xüsusiyyətləri Azərbaycanın birinci xanımının xarakterində cəmlənibdir. Xeyirxahlıq, səxavət, ehtiram, hörmət, izzət, əl tutmaq, kimsəsizlərə və məzlumlara diqqət yetirmək, yardım etmək Mehriban xanımın həyati uğurunun ən böyük silahıdır. Belə bir xüsusiyyət mömin insanlara xasdır.

Biz hamımız təbiətdə və cəmiyyətdə yaşayırıq. Yaşadığımız təbii və ictimai mühitdəki hadisələrin və cisimlərin təzahür və mahiyyət tərəfləri var. Elmi idrakın

yaranması məhz bu fərqləri dəf etmək, cisim və hadisələrin əsil mahiyyətini aşkarlamaq zərurəti ilə şərtlənmişdir. Mir Cəlal müəllim nəslinə xas olan bir amalı özü üçün şüar tutaraq insanların kamilləşməsi və humanist mövqe tutmasında böyük səylər göstərmişdir. Yaşadığımız dövr elm və texnika əsri olduğundan Nərgiz xanım bacısı Azərbaycanın birinci xanımı Mehriban Əliyeva kimi əhalinin maariflənməsinə və elmi idrakın inkişafına dair bir çox mühüm layihələr üzərində işləyir. Elmi idrakı yüksək olmayan ölkələrin maddi istehsalı, idarəetmə sistemi və dövlətçiliyi, mənəvi-mədəni inkişafı yüksək səviyyədə ola bilməz.

***İdeyalar yaxşı və güclü insanların əqli və qüvvəsi ilə həyata keçməlidir, yoxsa o, xəyaldan başqa bir şey olmayacaqdır.***

***Ralf Emerson***

## Mir Cəlal müəllimin ideyası və mənəviyyatı

İnsan üçün Mir Cəlal müəllim kimi həyatın sevincini duymaq, onun şirinliyinə qovuşmaq böyük səadətdir. O, insanlara sevgi və sonsuz rəğbət hissiylə həyatı dərk etmiş, hələ orta məktəbi bitirən illərdən sonra ömrünün mənasını xalqına, ədəbiyyatına, mədəniyyətinə xidmət etməkdə görmüşdü. Elə orta məktəbdə qazandığı bilik, həyat dərsi, insanlarla davranış qaydaları ilk günlərdən ona uğur gətirmişdi. Mir Cəlal müəllim beləcə özünə inanmış, gələcəyin xoş gününə onda ümid yaranmışdı. Artıq ona agah olmuşdu ki, insan öz ömrünü xeyirxah əməlləri ilə bəzəyir. O, həmyaşıdları arasında mərhəmət, haqq-ədalət, alicənablıq hissləri yaratmışdır. Bütün bunlarla yanaşı müəllimlərinin fəaliyyətinə rəğbət bəsləyən Mir Cəlal müəllim pedaqoq olmaq, insanlara səadət bəxş etmək istəyi həmişə onu düşündürmüşdü. Şagirdlərin qəlbinə yol tapdıqca müəllimlik peşəsi bir daha ona müqəddəsləşmişdi. O, bir neçə il ərzində yüksək mənəvi keyfiyyətləri və dərin savadı ilə işlədiyi məktəbdə gözəl ad qoyur.

Yuxarıda göstərildiyi kimi Şərq dünyasındakı insanların təfəkkürünə görə insan hər şeydən əvvəl özündən baş çıxarmalı, özü ilə dünyanın dərin qarşılıqlı əlaqəsini aydınlaşdırmalı, özünün mənəvi aləminin xarici aləmdən yüksək və mürəkkəb olduğunu dərk etməlidir. Professor Mir Cəlal müəllim özünün pedaqoji fəaliyyətində bu konsepsiyanı tələbələrinə aşılayardı. Onun fikrinə görə aləmin və insanın dərk edilməsində böyük nailiyyətlər qazanmış Şərq-Qərb sivilizasiyaları öz çatışmazlıqlarını yalnız qarşı tərəfin mövqeyi ilə tanışlıq və onu mənimsəmə yolu ilə aradan qaldıra bilər. Əslində bu iki mədəniyyət, ümumiyyətlə mədəniyyətlər müxtəlifliyi, bəşəriyyətin mənəvi zənginliyini dərk etdiyindən Mir Cəlal müəllim hər iki mədəniyyətin ümumi konsepsiyasının vəhdətini qəbul edərək, özünü kamil insan səviyyəsinə çatdırmışdır.

Söz yox ki, hər bir xalqın bənzərsiz və təkraredilməz mədəniyyəti, mənəviyyatı vardır. Görkəmli ədəbiyyatşünasın iş prinsipinə görə Qərb və Şərq sivilizasiyaları bir-birinin mədəniyyətini idxal etmədən, öz mənəviyyatlarında yeniliklərə boş yer tapmalıdırlar.

İnsan öz təbiəti etibarilə ictimai olduğundan onun tam xoşbəxtliyi sədaqətli adamlarının, dostlarının xoşbəxtliyi, əməkdəki həmkarlarının səadəti ilə bir yerdə olar. Kimin ki, tamlığı və ya fəaliyyəti başqalarının kimliyi ilə əlaqədardır, o heç vaxt təklikdə kamala və ya istədiyinə çata bilməz. Deməli, kamil və xoşbəxt o adam olar ki, özünə çoxlu sədaqətli, etibarlı həmkar tapmış olsun; özünün xeyirli şeylərə onları da şərik etsin, tək bacara bilmədiyi xoşbəxtliyi onların köməkliyi ilə ələ gətirsin, bütün ömrü boyu onların varlığı ilə fəxr edib ləzzət alsın. Mir Cəlal müəllimin özü səmimi və ziyalı

olduğundan, elə xasiyyətinə uyğun olaraq, ətrafına sədaqətli, etibarlı, işgüzar, öz işlərinə məsuliyyətlə yanaşan insanları toplamağa müvəffəq olmuşdu.

Mir Cəlal müəllimin ədəbi nəzəriyyəsi, estetik görüşləri və sosial-fəlsəfi baxışları Azərbaycan xalqının çoxəsrli ədəbiyyatı, mədəniyyəti və zəngin ictimai-fəlsəfi fikrinin möhkəm təməli üzərində meydana gəlmişdir. Eyni zamanda onun ədəbi nəzəriyyəsi, ictimai-siyasi və fəlsəfi görüşlərinin formalaşmasında qabaqcıl Azərbaycan, rus maarifçi ədəbiyyatı və orta əsrdən başlayaraq öz zəmanəsinə qədər fəaliyyət göstərmiş klassik Azərbaycan ədiblərinin ictimai-fəlsəfi fikrinin müsbət təsiri olmuşdur.

Mir Cəlal müəllimin dərin mənalı, müdrik fikirləri, məqsədinə çatmaq üçün çox zaman ağlasığmaz cəhdləri, nitqlərdə verdiyi gözəl ibarələr, müqayisələr, şeirlər, əfsanələrdən gətirilən xalq hikmətləri insanların qəlbində dərin iz buraxırdı. Xoşbəxtlikdən əgər ədibin hikmətləri, onun xoşa gələn gözəl səsi, təmkinliliyi, inadkarlığı, alicənablığı ilə bir ahəng təşkil edirdisə, insanlar bir daha yazıçıya dönə-dönə qulaq asmaq üçün axışıb onun görüşünə gəlirdilər. Mir Cəlal müəllimin hər sözü, hər ifadəsi, hər hərəkəti, mədəniyyəti, dinləyicini inandırmaq bacarığı sonradan dillərdə gəzirdi, şöhrəti insanlar arasında xüsusi məhəbbətlə yayılırdı.

Görkəmli ədib dərin biliyə, zəkaya, geniş dünyagörüşünə, həyat təcrübəsinə malik müdrik insan olduğundan o, toplantılar zamanı daim yüksək tribunadan çıxış etməyə cəhd göstərərdi. Maraqlı olsa da, Mir Cəlal müəllim ilk növbədə dinləyicilərin səviyyəsini nəzərə alıb nitqinə düzgün istiqamət verməyi bacarırdı.

Natiqlik sənətinin tarixinə nəzər salsaq, aydın olar ki, bu sənət bütün zamanlarda xalqın ümumi mədəniyyətinin çox mühüm amili sayılıb. İndiki zamanda yaşayan insanlar bugünkü günlə müqayisədə çətin təsəvvür edər ki, antik dövrdə və orta əsrlərdə natiqlik sənətinə nə qədər böyük əhəmiyyət verilirdi. Hər ziyalı və ya intellekt sahibi natiqlik sənətinə yiyələnə bilmir, bunun üçün insanda xüsusi bacarıq və oratorluq ilə bağlı fitri istedad gərəkdir.

Bəlağət elminin qanununa əsasən gözəl natiqlik istedadı olan hər adam hər şeydən danışa bilməz. Onun öz sahəsi, predmeti, mövqeyi və istiqaməti olmalıdır. Qaydaya görə natiq çıxış zamanı ünsiyyət yaratmağı bacarmalıdır, bu şərtlə ki, həmin ünsiyyət ədalət əsasında qurulsun.

Mir Cəlal müəllim çıxış edərkən danışdığı məsələ haqqında tam daxili inamı olurdu. Elə bunun müqabilində də onun qiyməti dinləyicilər tərəfindən müsbət dəyərləndirilirdi. Məhz həmin çıxışlardan sonra ədibin cəmiyyət arasında populyarlaşması baş verirdi.

Bütün bu incəliklərdən halı olmuş professor Mir Cəlal müəllim onu da çox gözəl bilirdi ki, insanlar arasında zəhməti bahasına qazandığı hörmət və ehtiramı itirməmək üçün nitq zamanı bir-birinə zidd olan fikirləri toplantılarda söylənilməməlidir. İstedadlı qələm ustasının ən güclü silahlarından biri onun həyat təcrübəsi və peşəkar səviyyəsi olmuşdur.

Peşəkar yazıçı çıxışlar zamanı cürbəcür vəziyyətlərdən asanlıqla çıxmağı bacarırmış. O, öz nitqində lazım gəlirdisə gərginlik yaratmağı bacarırmış, lazım gəlirdisə də təmtəraqlı, dəbdəbəli, pafosla, coşqun, vəcdlə, hüznlə, əzəmətlə danışar, başqa bir halda sakit, təmkinli, soyuqqanlı olardı. Mir Cəlal

müəllim nitq zamanı rəvanlıq, səlislik, aludəlik, axarlıq, bir məsələdən başqasına keçdikdə tədriciliyin çox vacib olduğunu yaxşı anlayardı. Bütün hallarda o, özünü təvazökar, sadə göstərər, özünü öyümək, lovğalanmaq meyllərindən qaçardı, bayağı və çeynənmiş ifadələrdən istifadə etməzdi.

Yaradıcılıqla məşğul olan yazıçının bəzi həmkarları reallıqdan, müzakirə olunan problemlərdən uzaqlaşmaqla, xırdaçılığa uymaqla, ikinci, üçüncü dərəcəli mənbələrə istinad etməklə, yersiz söhbətlər aparmaqla, mənasız sitatlar gətirməklə, ardıcıllığı pozmaqla, yersiz emosiyalara yol verməklə özlərini hörmətdən salardılar. Mir Cəlal müəllimin nitqi isə təbii xarakter və hamı üçün xüsusi əhəmiyyət kəsb edərdi. O, bunu da çox yaxşı bilirdi ki, nitqdəki qeyri-təbiilik heç kimdə inam yaratmır.

Mir Cəlal müəllimin nitq zamanı xoşagələn cəhəti o idi ki, o, analogiyalar və məntiqi isbatlarla yanaşı, daim poetik və ritorik arqumentlərdən istifadə edər və arif, aqil insanlar, diplomatlar kimi danışaraq insanların hüsn-rəğbətini qazanardı. O, milli-iftixar ruhunu kompas kimi istifadə edərək, ilk anlardan dinləyicilərin rəğbətini, hörmətini, ehtiramını və etimadını qazanmağı, onların əhval-ruhiyyəsini müzakirə olunan məsələyə yönəltməyi bacaran bir şəxs idi. Çünki qulaq asanlar arasında cürbəcür xarakterli və mürəkkəb düşüncəli insanlar olurdu.

İşlədiyi Bakı Dövlət Universitetində əsl ziyalı və alicənab şəxs kimi özünü tanıtdıran Mir Cəlal müəllim vaxtilə irəli sürdüyü yeni ideyalar bir çox hallarda əksəriyyətin ideya və təsəvvürləri ilə toqquşmuş və ətrafdakı insanların mənəvi aləminə müəyyən təsir göstərmişdi. Bundan əlavə o, öz mənəvi fəaliyyət imkanları, şüuru, təfəkkürü, intuisiyası,

hissləri sayəsində elə xarakterli ideyalar irəli sürmüş və ya elə obrazlar yaratmışdı ki, sözsüz olaraq belə adamlara həyatda yer yoxdur. Ağır sınaqlardan uğurla çıxmış, böyük həyati yol keçmiş Mir Cəlal müəllim yaradıcılığı, elmi-pedaqoji fəaliyyəti, fantaziyası ülvi məqsədləri, qüdsi ideyaları və ümumi fəaliyyəti təbiətin imkanlarını keçmişdi. Buna görə də dünyasını dəyişmiş bu əsl insanın mənəvi aləmi sonsuz yaradıcılıq və quruculuq imkanlarının yerləşdiyi bütöv bir Kainatdır.

Təbiətən adamlarda daim müxtəlif ideyalar yaranır. Bu ideyaların mənbəyi həm həyat təcrübəsi, həm təxəyyül, fantaziya, həm müxtəlif yollarla əldə edilmiş biliklər, bir sözlə, mənəvi aləmi təşkil edən hər şeydir. Mir Cəlal müəllim bu və ya digər ideyanın əhəmiyyətini necə müəyyənləşdirmək yolunu araşdırmışdı. Onun bəşəriyyət üçün əməli əhəmiyyətini, dəyərliliyini, insanlar üçün faydasını necə təyin etməyi ədib ətrafdakı insanlara aşılamışdı.

Mir Cəlal müəllim özünün mənəvi həyat ideallarından çıxış edərək, səadət tərzi haqqındakı təsəvvürlərini tam ödəyən bir həyat tərzi qurmağa səy göstərmiş və demək olar ki, buna nail olubdur. İnsanın xoşbəxtliyə can atması çox təbiidir. Lakin real həyatda heç də hamı buna nail ola bilmir. Görkəmli yazıçının istəyi, məqsədi, məramı, amalı qüdsi olduğundan və verdiyi sözlər əməlləri ilə üst-üstə düşdüyündən Allah-taala səadət qapılarını onun üzünə açıbdır.

Əbəs yerə demirlər ki, insan dünyasını dəyişir, ölür, ruhu isə yaşayır, onu yaşadır. Əlbəttə, insanlar bəşəriyyətə, insanlığa xidmətinə, həyatda sağlığında qazandığı fəzilətinə görə yaşayır, yaddaşlardan silinmir. Bu mənada Mir Cəlal müəllim kimi tarixi şəxsiyyətləri, bu əbədiyaşar ruhları

saymaqla tükənməz. Xalqı yaşadan da əslində bu insanlar, onların qeyri-adi fəaliyyətləri, bunun əksi olan zəngin əbədi ruhlarıdır.

Əsərin adının yaranma ideyası Mir Cəlal müəllimin özündən sonra qoyub getdiyi nəslin xeyrül-əməl işlərin həyata keçirilməsi nəticəsində yarandı. **"Qəlblərdə yaşayan Mir Cəlal"** əsəri ondan xəbər verir ki, ədibin ideyaları, ədəbi-fəlsəfi irsi, əxlaqi-mədəni tərzi hələ də yaşayır, lakin bir neçə istiqamətdə inkişaf etdirilir. Bu, mənəviyyatla bağlı olan istiqamətin beş qolu var və bunun hamısını bir əsərdə əks etdirilməsi böyük külliyyatın yaranmasına səbəb olar. Əlbəttə, zaman-zaman həmin külliyyat yaranıb ictimai-ədəbi və ictimai-siyasi kütlənin ixtiyarına veriləcəkdir. Amma etik-mədəni xüsusiyyətləri nəzərə alıb, heç bir pafosa ehtiyac duyulmadan, bütün əxlaqi kriteriyaları süzgəcdən keçirərək, Mir Cəlal müəllimin pak ailəsinin nümayəndələri olan beş övladından böyük oğlu olan, Azərbaycan elmi-pedaqoji fəaliyyətində, maarifində, ictimai-siyasi həyatında kifayət qədər yetərli nüfuz sahibi sayılan, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin və onun nəsil şəcərəsini davam etdirən övladları Nərgiz və Mehriban xanımın dövrü fəaliyyətindən, o cümlədən elmi-pedaqoji və ictimai-siyasi həyatlarından bəhs edən, kiçicik epizodları qələmə almalı oldum. Mir Cəlal müəllimin kökündən ayrılan bu qolun vasitəsilə, mən XX əsrdə Azərbaycanda gedən siyasi proseslərdən, əbədi mühitdən, əxlaqi davranışından və qədim mədəniyyətdən ədib tərəfindən alınan mənəvi qidanın XXI əsrdə yaşayan azərbaycanlılara qaytarmağı çalışıram. Bu isə okeanda üzən aysberqin görünən tərəfidir. Mənəviyyat

aləmində Mir Cəlal müəllim iri okeanlarda fəaliyyət göstərən iri cərəyanları, bol sulu çaydan ayrılan çoxsaylı qolları, bar verən nəhəng ağacların iri budaqları, Günəşdən ayrılıb Yer kürəsinə həyat verən istilik enerjisinə və gözqamaşdırıcı işığı xatırladaraq, intellektual potensiala malik olan azərbaycanlı ziyalı ordusunun maraq obyektinə çevrilibdir. Hazırda isə həmin xəzinənin öyrənilməsi üçün mən əsərdə cərəyan edən surətlərin mənəvi və cismani varlıqlarından mənbə körpüsü kimi istifadə edərək, **“Qəlblərdə yaşayan Mir Cəlal”** əsərini yazıb ərsəyə çatdırdım.

***Xalqın ən böyük şərəf və şöhrətini onun yazıçıları təşkil edirlər.***

***Samuel Conson***

## Qəlblərdə yaşayan ədib

Professor Mir Cəlal müəllim bir yazıçı kimi ailəsində xüsusi aura yaratmışdı. Əgər şəxsiyyətin yaradıcılıq müstənaslığı, aləmi qavramasının, dərk etməsinin xüsusiyyəti onun ən bariz ifadəsidirsə, onda demək olar ki, hər bir şəxs öz daxili, təkraredilməz aləmi yaradır.

Şəxsiyyətin mənəvi aləmi bütün cəmiyyətin mənəvi aləmindən yoxsuldur. Ona görə ki, hər bir adam müəyyən dövrdə, konkret cəmiyyətdə, məhdud müddətdə yaşayır və buna görə də bəşəriyyətin ondan əvvəl yaratdığı bütün mənəvi sərvətləri mənimsəyə bilmir. Lakin bununla belə, şəxsiyyətin, xüsusən də qeyri-adi şəxsiyyətin mənəvi aləmi elmin müəyyən sahələrində, yeni tədqiqatlar istiqamətində, incəsənətdə, siyasətdə cəmiyyəti xeyli qabaqlaya və onun mənəvi aləmindən geniş və dərin ola bilir. Ayrı-ayrı adamların beyninə elə bir fikir, ideya, hepoteza gələ bilər ki, əvvəllər onu heç kim ifadə etməmiş olsun. Mir Cəlal müəllimin dünyanın inkişaf qanunauyğunluqlarını qavraması, onun rənglərini, səslərini və s. duyması, insanların dərdinə şərik çıxması, onların problemləri ilə dərindən maraqlanması,

bunları elmi-bədii vasitələrlə ifadə etməsi zaman üçün qeyri-adi görünmüş və hətta ilk çağlarda ictimai rəylə ixtilafda ola bilmişdi.

Məhz yazıçı, professor Mir Cəlal müəllimin və Püstəxanımın ailəsindən, təzadlarla dolu olan cəmiyyətimizdə sevilən, izzət sahibi olan akademik Arif, professor Hafiz, Ədibə, Elmira və Aqil Paşayevlər kimi milli adət-ənənəyə sadiq olan, milli-mənəvi dəyərləri hər şeydən üstün tutan nümunəvi övladlar çıxa bilərdi. Onların hər biri ayrı-ayrılıqda Azərbaycan elminə, mədəniyyətinə, incəsənətinə və təhsilinə ümumi töhfələrini verirlər.

Sona yaxın akademik Arif Paşayevin qardaş-bacıları barəsində dediklərini oxucuların diqqətinə çatdırmaq istəyirəm. Onun dedikləri:

- Qardaşım, fizika-riyaziyyat elmləri doktoru, professor Hafiz Paşayevdən söz düşəndə yadıma, professor Ağabəy Sultanovun sözləri düşür. O, deyir: “Deyirlər ki, insan həyatda gərək, ya övlad böyütsün, ya ağac əksin. Mir Cəlal müəllimin, maşallah, 5 övladı olub. İnanın mənə, bu da bir heykəldir ki, o özünə qoyub. Onun hər bir oğlu, hər bir qızı bizim respublikamızda böyük şəxsiyyətdir və respublikamızın fəxridir. Mən Hafiz Paşayevlə üç-dörd dəfə görüşmüşəm. Hafiz müəllimlə mən görüşəndən sonra gözəl təəssüratla ayrılıram. Ağıllı-kamallı, yığcam, təmkinli, özünü düz aparan, insanlar arasında olan diapazonu düzgün qurmağı bacaran, onun xarici görünüşü də bir diplomatdır, çox xoşdur ki, o bizim respublikanı Amerikada təmsil edir”.

Hafiz müəllim - çox görkəmli alimlərdəndir, fizikdir. Kurçatov adına Atom institutunda aspiranturada oxuyub. Doktorluq dissertasiyasını orada müdafiə edib. Sonra gəlib

bizim Fizika institutunda şöbə müdiri vəzifəsində çalışıb. Ancaq ona deyəndə diplomat o, sevinmir. Deyir mən xüsusi dərs keçmişəm, təhsil almışam, diplomat işləyim?

O vaxt Mir Cəlal müəllim mənə belə bir söz dedi: İctimai fikir birmənalı olmur. Biri belə yaza bilər, biri başqa cür yaza bilər. Biz Hafizlə fizikaya getdik. Bir bacım musiqiçidir, digər bacım və qardaşım filoloqdur. Ənənə qalıb.

O, xasiyyətcə Mir Cəlal müəllimə daha yaxındır. Atam həmişə deyərdi ki, mənim ən gözəl əsərim mənim ailəmdir. O, ailəni həmişə birinci yerə qoyardı. O, çox sevinirdi ki, ailəsinə düzgün tərbiyə verib, düzgün istiqamətləndirib. Mir Cəlal müəllim uşaqlarına görə heç vaxt, heç kəsə ağız açmamışdı; ya tapşırsın, ya da zəng etsin. Mən ona deyəndə: "Ata, filankəsə zəng vur", atam deyərdi: "A bala, sənin ondan nəyin əskikdir. Sən ondan heç də az istedadlı deyilsən. Çalış özün hər işini gör. Sən ondan savadsız deyilsən. Sənin qabiliyyətin hara, onun qabiliyyəti hara?" Özü də bir işi var idi, yəqin, o da pedaqoqikanın üsullarından biri idi. Yaxşı olmağı adamın elə bil boynuna qoyurdu: "Sən çalışsan, özün o işi hamıdan yaxşı edərsən". Mən də məcbur olurdum o sözün altından çıxmaq üçün özümü o tərəfə layiq aparam.

Buna baxmayaraq atam bir dəfə xahişə gedib. Mənim böyük bacım Elmira xanım musiqi müəlliməsidir, çox çalışqan, qanunpərəst, ikinci belə adam tapılmaz. Çox mehriban, işə sevinclə yanaşan. Musiqi məktəbinə nazirlikdən məktub gəlib, mənim bacımı ora müdir qoymaq haqda. Əmr veriləndən üç gün sonra qız evə gəlib başlayıb ağlamağa ki, mən orada müdir olmaq istəmirəm. Orada əyər-əskiklər var. Papa, get nazirin yanına, qoy mənim əmrimi verib geri qaytarsınlar. Onda Mir Cəlal müəllim qızı götürüb gedib



*Mir Cəlalın 2-ci Fəxri Xiyabanda məzarı yanında.*
*Püstə xanım, Hafiz Paşayev və Elmira xanım*

nazirin yanına ki, mənim qızımı işdən çıxar. Nazir deyib ki, birinci dəfədir görürəm xahişə gəlsinlər ki, uşağımı işdən çıxar. Biz övladlar valideynlərimizdən belə tərbiyə almışıq.

Dünyanın ən güclü, ən qüdrətli, ən tanınmış fatehi kimdir? Bu sual bir çox tarixçiləri və intellekt sahiblərini düşündürür. Makedoniyalı İsgəndər, Attila, Qay Yuli Sezar, Çingiz xan, Mehmet Sultan, Napoleon Bonapart və başqa hegemonlar öndə gedir, yoxsa digər fatehlər? Bəzən tarixçilər və publisistlər onları ümumən fateh adlandıranda demək olar ki, yanlışlığa yol verirlər. Çünki əlində qılınc olan fateh özü ilə zülm, iztirab, əzab-əziyyət gətirməklə qarşısında duran ölkəni işğal edib yaşayış məskənlərini xarabazarlığa çevirir, lakin əsrlər keçsə belə qorxu altında saxladığı insanların ürəyini heç vaxt fəth edə bilməmişdi. Mir Cəlal müəllim kimi əlində qələm tutan ədəbiyyat fatehi isə özünün söz çələngi ilə çətinlik çəkmədən həm xalqın ürəyini, həm də özünə yad olan bir ölkənin hüdudlarını fəth edə bilər. İş ondadır ki, bədii yaradıcılıqla məşğul olan insanlar həyata vida deyib gözlərini yumandan sonra da inkişafdan mənəvi yürüşdən geri qalmır, yaratdıqları mənəvi sərvət sayəsində yeni-yeni ürəkləri, şüurları ələ ala bilir, ölkələrin fəthinə əl atırlar. Bu bəşəri fəth heç vaxt dayanmır, öz hüdudlarını genişləndirməyə xidmət edir.

Dövrünün yaddaqalan hadisələrini əlyazmalara köçürmüş, həyat fəlsəfəsinin əbədiyyət çırağında ölməzliyini təsdiq edən qələm sahiblərindən biri olan Mir Cəlal müəllim öz əsərləri ilə həqiqətən də insanların ürəyini fəth edə bilmişdir. Gözəl fikirlər, ölməz sözlər bir yerə toplanaraq kitab şəkilində insanlara ərməğan edilmiş və bununla da insanların ürəyinə yol taparaq müəyyən mənada özünü fateh

hesab edə bilər. Bəşəri dəyərləri öz idrakı ilə işğal edən insan kamillik zirvəsinə ucalaraq, özü üçün əbədiyyəti qazanmış olur. Əbədiyyət bütün insanlara qismət olur, yoxsa təkcə kamil insanlara? Belə demək olar ki, əbədiyyət bütün mövcud olan insanların məskənidir, lakin əbədiyyətin ən gözəl məkanı yalnız kamil insanlara nəsib olur. Əlbəttə kütlələr deyil, kamillik pilləsinə ucalanlar dərk edir, yaşayır, yaradır və əbədiyaşam hüququ alır. Əbədiyaşam hüququ qazanan kamil insan dünyanı dərk edir, göyün, yerin sirlərini öyrənərək hər elmə vaqif olur, dünya onun varlığına sığsa da, insan dünyanın sinəsinə sığmır, hüdudsuzluq axtarır. Dünyanı heyrətlə silkələyən, lərzəyə gətirməyi bacaran, öz istedadı ilə sevilən və humanizm prinsiplərini insanlara aşılayan dahilər çox olmasa da, onların sayı heç də az deyil. Mir Cəlal müəllim bir söz ustası, bir ədəbiyyat fatehi kimi insanların əsrarəngiz qəlblərinə daxil olub, maneəsiz olaraq mənəviyyat dünyasını fəth edə bilmiş və həmin aşiqi istila bu günə kimi davam edir.

Mir Cəlal müəllim ədəbiyyat daxilində öz dünyasını yaradaraq səlis, ürəyə yatan, çeşidli mövzularla dolu olan əsərlər yazdığından onlar çox maraqla oxunur. İllər ötdükcə onun, Azərbaycan bədii nəsr və pedaqoqika sahəsində göstərdiyi xidmətlər xalqın ürəyinə yatıb və bu təşəkkül ədibin şan-şöhrətini daha da rövnəqləndirir. Potensial oxucular Mir Cəlal müəllimin ərsəyə gətirdiyi əsərlərin yanından diqqətsiz ötüb keçmir.

Bizim klassiklərimiz sayılan Qətran Təbrizi, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Cəlil

Məmmədquluzadə, Hüseyn Cavid, Səməd Vurğun, Mir Cəlal və digərləri kimi dünya ədəbiyyatı arenasına çıxa biləcək nasirlərə və şairlərə xüsusi mənəvi dəstək verməklə, onları bütün problemlərdən azad etməliyik. Avropa ölkələri və Amerika qitəsi ümumilikdə Aligyeri Dante, Bokkaçço, Aleksandr Düma, Jül Vern, Robert Luis Stivenson, Valter Skott, Rafael Sabatini, Rafaello Covanyoli, Mark Tven, Fenimor Kuper, Aleksandr Puşkin, Mixail Lermontov, Lev Tolstoy və başqa yazıçılarla fəxr edib Qərb ədəbiyyatını yüksək zirvənin Olimpinə qaldırdığı təqdirdə, biz azərbaycanlılar ümumi Şərq dünyası ilə yanaşı, ana doğma Vətənimizin tək halda yetişdirdiyi öz klassiklərimizlə fəxr etməli və onların layiqli davamçılarını arayıb üzə çıxarmalıyıq.

Görkəmli ictimai xadim, əsl pedaqoq, professor Mir Cəlal müəllim el arasında özünün xeyirxahlığı ilə seçilirdi. O, sağlığında bir çox alimlərə, yazarlara, şairlərə onların gənc, tələbəlik dövründən dayaq durmuş, böyük həyat yolunda onlara yardımçı olmuşdur. Alimlərin, ədəbiyyat və incəsənət işçilərinin arasında özünün xeyriyyəçilik keyfiyyətləri ilə müasirlərindən fərqlənən Arif Paşayev atasının bu sahədə yolunu layiqli davam etdirir.

Sonda Mir Cəlal müəllimin ana dilinə olan məhəbbətindən və doğma Azərbaycana olan sevgisindən söz açmaq istərdim, lakin bu məsələnin nə qədər çox yazı tutacağını nəzərə alıb mən görkəmli ədib ilə bağlı başlanan yazını elə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dili, Azərbaycan dövləti, Azərbaycan xalqı və Azərbaycanın söz sərrafları barəsində söylədiyi tarixi ifadələrini xatırlamağı özümə borc bilirəm. Öz bənzərsiz çıxışları ilə bütün xalqı

heyran edən ümummilli liderimiz Heydər Əliyev bəlağət elmində püxtələşən yaradıcı insanların qarşısında elə nitqlər söyləyərdi ki, hətta onlar belə həmin çıxışlardan sonra öz heyranlıqlarını gizlədə bilmirdilər. Sanki qarşılarındakı şəxs dövlət xadimi yox, məhz fitri istedada malik olan ya şair, ya da ki, yazıçıdır. Bədii söz ustadlarına daim hörmətlə yanaşan və onların problemlərinin həll olunmasında müstəsna rol oynamış ümummilli lider Heydər Əliyevin 1997-ci ilin oktyabrın 30-da Azərbaycan yazıçılarının X qurultayında çox möhtəşəm çıxışı olmuş və həmin çıxışın bir neçə abzası oxucuların diqqətinə çatdırılır:

***"Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanımızda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatımızdan keçir. Bəzi əsərlər var ki, onlar açıq-açığına xalqımıza milli dirçəliş, oyanış hissiyyatlarını çatdırıbdır: Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın və başqalarının əsərləri. Amma digər əsərlər isə dolayısı ilə, ayrı-ayrı fikirlərlə millətimizə vətəni sevmək, vətənə sadiq olmaq, Azərbaycanı sevmək, azərbaycanlı olmaq hissiyyatlarını yaradıbdır.***

***Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rüstəmin, Məmməd Rahimin, Osman Sarıvəllinin, Süleyman Rəhimovun, Mehdi Hüseynin, Əbülhəsənin, Əli Vəliyevin, Mir Cəlalın, İlyas Əfəndiyevin, Mirvarid Dilbazinin də əsərlərindən yan keçməyibdir...***

***Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil. Amma ondan qat-qat yaxşı dildir, ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət, xalq, millət ola bilməz. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, Şərq ölkəsinin əsarəti altında olduğumuz zaman da, sovet imperiyasının tərkibində olduğumuz zaman da biz bu dilimizi yaşatmışıq. Nəinki yaşatmışıq, onu inkişaf da etdirmişik. Bu, xalqımızın, xüsusən bizim söz ustalarının, ədəbiyyatçıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin ən böyük nailiyyətidir".***

Ümummilli liderimiz Heydər Əliyev kimi dühanın Azərbaycan ədəbiyyatı tarixində mühüm rol oynamış dahi insanlar haqqında söylədiyi möhtəşəm ifadələrdir. Mir Cəlal müəllim və onun kimi qələm sahibləri sovet imperiyası dövründə yazıb yaratsalar da, öz dillərini qoruyub saxlamış, öz mədəniyyətini inkişaf etdirmiş, pedaqoji fəaliyyəti ilə Azərbaycan təhsilinin işıqlanmasına təkan vermiş, vətənə, xalqa olan məhəbbətini gizlətməmiş və intellektual potensiala malik olan milli kadrların yetişdirilməsində bütün səy və bacarıqlarından istifadə etmişdilər.

Fitri-istedadı insana Allahın özü bəxş edir. Mir Cəlal müəllim yaradıcı insan olduğundan təbiətin, insan varlığının sirlərini açmağa can atmışdır. Məhz bütün bu sirlərə yiyələnmək üçün Allah ona qeyri-adi ağlı və zəkanı əta

etmişdir. O, sözün əsl mənasında əsl insan, dahi şəxsiyyət olmuşdur. Əsl insan isə bu dünyada olan mövcudatın ən şərəflisidir. Mir Cəlal müəllim filosoflara, kamil insanlara xas olan qabiliyyətə - özü-özünü dərk etmək qabiliyyətinə - malik idi. O, böyük, müdrik, özü bir aləm olduğundan bir çox hikmət sirlərinə yiyələnmişdir.

Öz qüvvəsindən düzgün istifadə edən insanların ən kamili o adamı hesab edirlər ki, bu kamilliyə daha çox malik olsun, durğunluğa, zəifləməyə yol vermədən daim onu təkmilləşdirib inkişaf etdirə bilsin. Mir Cəlal müəllim kamil insan kimi insanın müdrikliyinə, zəkasına, onun yaradıcı qüvvəsinə, istedadına, adət-ənənəsinə, əqidəsinə inanardı; insanları birləşdirə biləcək qüdrətə inanardı; bir də inanardı ki, bir zaman gələcək ki, bütün insanlar dünyaya ana gözü ilə baxmağı öyrənəcəklər - bütün insanlar dünyaya ana gözü ilə baxa bilsələr, bunun müqabilində bütün bəşəriyyət səadət tapa biləcək.

Zəngin dünyagörüşünə malik olmuş Zərdüştün gəldiyi qənaətindən məlum olur ki, əgər insan övladı heç olmasa əxlaqı bütöv bir ailə qura, Vətənə, xalqa sadiq övlad-vətəndaş tərbiyə edə bilirsə, bunun özü bir əbədiyyətdir. Çünki sadə insan xoşbəxtliyi əzab və sevincləri ilə bütün zamanlarda özünün var olduğunu isbat edə bilmişdir. Sadalanan sözlərin özü demək olar ki, Mir Cəlal müəllimə və onun pak ailəsinə ünvanlanıbdır.

Mir Cəlal müəllimin həyatının əsasını insanlara məhəbbət təşkil edirdi. O, insanlıq dünyasını əzəmətli, vüqarlı edən böyük varlıq kimi yaşadı. Ədibin yaşanan həyatı fədakarlıq, xeyirxahlıq, paklıq timsalı olaraq əbədi ürəklərə köçdü. Mir Cəlal müəllimin müqəddəsliyi onda oldu ki, sona

qədər halallığını, təmizliyini, ən əsası insanlığını qoruyub saxladı. Başqasının sevinci ilə yaşamaq onun üçün qəlb rahatlığı idi. Nəcib əməlləriylə ədib dünyasını üzüaçıq, ləyaqətlə yaşadı. Xüsusən də insan mənəviyyatının sehrli güzgüsü olan saflıq, təmizlik lap ana südü ilə axıb onun qəlbinə, ruhuna hopmuşdu. Odur ki, dərin zəkası ilə həyatın incəliklərinə bələd olan ədib ədəbiyyat institutunu bitirəndə yalnız vətəninin tərəqqisini düşünmüşdür. Bir də bu dünyada hər insanın öz yolu, cığırı olur. Mir Cəlal müəllimin yolu xeyirxahlıq, kamillik, mənəvi yetkinliklə ildən-ilə körpü salmışdı. Bu bəşəri keyfiyyətlərlə də o, fəaliyyət göstərdiyi sahələrdə yardım əlini uzatmış minlərlə insanın qəlbində uzun müddət anılacaq. Çünki o, tapşırılan işləri vicdanla görmüş, əsl vətəndaş, humanist bir şəxsiyyət kimi sevilmiş, hamının hörmətini qazanmışdı. Əlbəttə ki, insan səadəti üçün canını qurban verməyə hazır olur.



Mir Cəlal Paşayev oğlu Arif Paşayevlə



*Arif Paşayev*



Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, həyat yoldaşı Mehriban xanım və onların övladı Leyla xanım



*Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva*

# İÇİNDƏKİLƏR

**Yazıçı, professor Mir Cəlal**

**Tarixin sınağı və ya təlatümlü dövrdə Mir Cəlal müəllimin ədəbi fəaliyyəti ……………………11**

**Ədibin özünüdərk məsələsi və həyatdakı mövqeyi……………………………………..24**

**Böyük bir məkanda Mir Cəlal müəllimin elmi-pedaqoji fəaliyyəti……………………………..32**

**Mir Cəlal şəxsiyyəti……………………………….…41**

**Xalqa bağışlanan ölməz əsərlər…………………….……48**

**Əsərləri ilə oxucuları heyran edən ədib…………………57**

**Mir Cəlal müəllimin Füzuli yaradıcılığı…………………69**

**Mir Cəlal müəllim bir psixoloq kimi……………………75**

**Ədibin əsərlərindəki vətənpərvərlik ideyası……………..82**

**Mir Cəlal müəllim satira ilə…………………………….…...90**

**Öz elmi qüdrəti ilə həmkarlarını**
**heyran etmiş ədib……………………………………..100**

**Xeyirxah və nəcib insan……………………………………112**

**Mir Cəlal müəllimin ailəsi və həmin ailə tərəfindən onun ümidlərinin doğrultması……………………...………124**

**Mir Cəlal müəllimin ideyası və mənəviyyatı…………...135**

**Qəlblərdə yaşayan ədib…………………………………143**

*Çapa imzalanıb: 12/02/2008*
*Formatı: 60x84*
*Ofset kağızı. Ofset çap üsulu.*
*Sayı: 500 səh. 160*

*Azərbaycan*

Azərbaycan azıçılar Birliyi
**"YURD" Nəşriyyat-Poliqrafiya Birliyi**

Bakı, Xaqani küç. 25
Tel: 598-27-13